Azərbaycan Respublikasının
İnsan Huquqları uzrə Muvəkkili
(Ombudsman)

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN

## FƏALİYYƏTİNƏ DAİR

# MƏRUZƏ

(2009 - 2010)

**AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)**

**İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR**

# M Ə R U Z Ə

(2009-2010)

Bakı – 2011

Məruzədə Azərbaycan Respublikasında İşgəncələr əleyhinə Milli Preventiv Mexanizmin təşəkkülü, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) mandatı, mövcud qanunvericilik və təşkilati problemlər, habelə 2009 və 2010-cu illər ərzində həyata keçirilmiş tədbirlər, müvafiq təklif və tövsiyələr ehtiva olunmuşdur.

Məruzəyə həmçinin MPM-in yurisdiksiyasında olan müəssisələrin siyahısı, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu, habelə fotoşəkillər əlavə edilmişdir.

**ISBN: 978-9952-8138-7-6**

ATƏT
Avropada Təhlükəsizlik və
Əməkdaşlıq Təşkilatı
**Bakı Ofisi**

Bu məruzə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hazırlanmış və ATƏT-in Bakı Ofisinin maliyyə dəstəyi ilə çap edilmişdir. Məruzədə qeyd olunan fikirlər onun müəllifinə aiddir və ATƏT-in Bakı Ofisinin rəsmi mövqeyini əks etdirməyə bilər.

# Ön söz

XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında aparılan hüquq islahatları ilə demokratik, hüquqi dövlət quruculuğu, insan hüquqlarının ən ali dəyər kimi qorunması, insan və cəmiyyətin mənafeyinin daha önə çəkilməsi dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirilmişdir.

Ölkəmizin qısa müstəqillik dövrü ərzində milli qanunvericilik bazası təkmilləşdirilərək Avropa standartlarına uyğunlaşdırılmışdır. Qəbul olunan qanunların əksəriyyəti, bu və ya digər sahəyə aid olmasından asılı olmayaraq, bilavasitə və ya bilvasitə insan hüquqlarının daha etibarlı qorunmasına xidmət edir.

Milli qanunvericiliyin durmadan təkmilləşdirilməsi ilə yanaşı, Respublikamız tərəfindən çoxsaylı beynəlxalq müqavilələr, o cümlədən 31 may 1996-cı il tarixli qanunla BMT-nin "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyası", həmçinin 25 dekabr 2001-ci il tarixli qanunla "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyası və onun 1 və 2 saylı Protokolları ratifikasiya edilmişdir.

Ölkədə qanunvericilik yönümündə aparılan islahatlarla yanaşı, həmçinin azadlıqdan məhrum edilmiş şəxslərin saxlanması şəraiti və onlarla rəftar sahəsində təşkilati istiqamətdə aparılmış islahatlar da xüsusi vurğulanmalıdır. Qeyd olunmalıdır ki, son dövrlər müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin işinin təkmilləşdirilməsi, saxlanılma şəraitinin və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, bu müəssisələr üçün ixtisaslı kadrların hazırlanması, onların peşə hazırlığının və ixtisaslarının artırılması, adı çəkilən müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün qanunvericilik, təşkilati və digər tədbirlərin həyata keçirilməsi məqsədilə çoxsaylı fərmanlar imzalanmışdır. Bu əsnada, həmçinin qeyd edilməlidir ki, vahid islah siyasətinin həyata keçirilməsi və istintaq təcridxanalarının fəaliyyətinin, Azərbaycan Respublikasının 2001-ci ildən üzv olduğu Avropa Şurasının standartlarına uyğunlaşdırılması məqsədilə, hələ

1999-cu ildə Daxili İşlər Nazirliyinin tabeliyindəki istintaq təcridxanaları Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. 2004-cü ildə Səhiyyə İdarəsinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin (hazırkı Penitensiar Xidmət) tabeliyindən alınaraq Ədliyyə Nazirliyinin nəzdində müstəqil tibb idarəsinin yaradılması da, məhkumların sağlamlığının daha effektiv müdafiəsi, işgəncə və digər pis rəftar hallarının qarşısının alınması üçün zəmin yaratmışdır.

Məhkəmədənkənar hüquq-müdafiə mexanizmi olan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) də məhbusların hüquqlarının daha etibarlı müdafiə olunması işinə öz töhfələrini vermişdir. Fəaliyyətə başladığı gündən məhbusların hüquqlarının qorunması, qanuni mənafelərinin təmin olunmasına xüsusi önəm verən təsisat tərəfindən mütəmadi olaraq məhbuslar saxlanılan müəssisələrin monitorinqi aparılmış, onlarla görüş keçirilərək saxlanma şəraiti, habelə şikayətləri yerində öyrənilmiş, daxil olmuş müraciətlər üzrə müvafiq tədbirlər görülmüş, bu və ya digər məsələnin həll edilməsi və mövcud problemin aradan qaldırılması üçün səy göstərilmiş, müxtəlif dövlət qurumlarına tövsiyələr verilmişdir. Məhkumlar və onların ailə üzvlərinin xahişləri nəzərə alınaraq, Müvəkkil tərəfindən əfvetmə haqda verilmiş çoxsaylı müraciətlər təmin edilmişdir.

Ölkədə işgəncə və digər pis rəftar hallarına qarşı aparılan mübarizədə növbəti məqam kimi, 02 dekabr 2008-ci il tarixdə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun (FP) ratifikasiya edilməsi çıxış etmişdir. Ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli sərəncamı ilə Müvəkkil işgəncələrin qarşısının alınması üzrə milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən edilmişdir. Daha sonra, Müvəkkilin fəaliyyətini tənzimləyən Konstitusiya Qanununa müvafiq əlavə və dəyişikliklər edilərək mandatı genişləndirilmişdir.

Ötən dövrdə qanunvericilik və təşkilati bazanın hələ tam formalaşdırılmadığına baxmayaraq, Müvəkkilin Aparatında, regional mərkəzlər də daxil olmaqla, MPM Qrupu yaradılmışdır və o, öz fəaliyyətini FP-nin və beynəlxalq standartların tələblərinə uyğun qurmuşdur. Qısa zaman kəsiyində qrup tərəfindən MPM-in yurisdiksiyasının şamil olunduğu, şəxslərin öz iradəsi ilə tərk etməsinə imkan verilmədən saxlanıldıqları və ya saxlanıla

bildikləri bütün yerlərdə – müvəqqəti saxlama yerləri, inzibati saxlanılma yerləri, təcridetmə mərkəzləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, həbsxana, hauptvaxtlar, intizam batalyonu, psixiatriya müəssisələri, ruhi-əsəb dispanserləri, internat evləri və s. yerlərdə mütəmadi başçəkmələr həyata keçirilmiş, müxtəlif təklif və tövsiyələr hazırlanaraq aidiyyəti üzrə göndərilmiş və bir çoxu təmin edilmişdir.

2009-cu ilin bir hissəsinin ilkin olaraq təşkilatı məsələlərin həllinə sərf olunduğunu nəzərə alaraq, Azərbaycan MPM-nin 2009-2010-cu illər üzrə fəaliyyətinə dair vahid məruzə hazırlanması qərara alınmışdır.

Hazırkı məruzədə Azərbaycan Respublikasında MPM-in təşəkkülü, Müvəkkilin mandatı, mövcud qanunvericilik və təşkilati problemlər, habelə 2009 və 2010-cu illər ərzində həyata keçirilmiş tədbirlər ehtiva olunmuşdur.

Ölkədə işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların aşkar olunması, araşdırılması və qarşısının alınması sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi və əlaqələndirilməsi, habelə MPM-in işinin daha səmərəli təşkili üçün səlahiyyətli qurumlara göndərilmiş müvafiq təklif və tövsiyələr məruzənin xüsusi bölməsində əks etdirilmişdir. Məruzəyə həmçinin MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrin siyahısı, FP, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu, habelə fotoşəkillər əlavə edilmişdir.

Məruzə ilə bağlı göndəriləcək hər hansı təklif və ya tövsiyəyə görə əvvəlcədən öz dərin minnətdarlığımızı bildiririk.

**Professor Elmira Süleymanova**
*Azərbaycan Respublikasının İnsan*
*Hüquqları üzrə Müvəkkili (Ombudsman)*

# Mündəricat

**Ön söz ................................................................................................3**

**Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar ........................................8**

**Bölmə 1. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizmin mahiyyəti, Azərbaycan Respublikasında təşəkkülü ..........................................................10**

**Bölmə 2. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizm kimi: mandatı, mövcud qanunvericilik və təşkilati problemlər ...................................................................15**

**Bölmə 3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizm qismində fəaliyyətinin əsas istiqamətləri ..................................................29**

3.1. Başçəkmələr.......................................................................................30
- 3.1.1 Daxili İşlər Nazirliyinin müəssisələri ..............................................31
- 3.1.2 Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri...............43
- 3.1.3 Milli Təhlükəsizlik Nazirliyinin İstintaq təcridxanası .......................63
- 3.1.4 Müdafiə Nazirliyinin müəssisələri....................................................64
- 3.1.5 Təhsil Nazirliyinin müəssisələri ......................................................68
- 3.1.6 Səhiyyə Nazirliyinin müəssisələri....................................................69
- 3.1.7 Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri........76

3.2. Müraciət və məlumatların araşdırılması ..................................................79
3.3. Elmi-analitik iş......................................................................................86
3.4. Hüquqi-maarifləndirmə işi......................................................................90
3.5. Beynəlxalq əməkdaşlıq ..........................................................................97

**Təklif və tövsiyələr ....................................................................107**

**Əlavə 1. MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrin siyahısı ....................................................................114**

**Əlavə 2. “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolu ....................................................................116**

**Əlavə 3. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu ....................................134**

**Əlavə 4. Fotoşəkillər ....................................................................139**

## Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etməsinə icazə verilmədən saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**ATƏT DTİHB** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – cəzaçəkmə müəssisəsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İMM** – Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin İxtisaslaşdırılmış Müalicə Müəssisəsi

**İs.T** – istintaq təcridxanası

**İşgəncə** – işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza

**KİV** – kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Məhbus –** azadlıqdan məhrum edilmiş şəxs

**MFP** – İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı

**MM** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Müalicə Müəssisəsi

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MST** – müvəqqəti saxlama təcridxanası

**MTCM** – məntəqə tipli cəzaçəkmə müəssisəsi

**MTN** – Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PX** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – rayon polis idarəsi

**RPŞ** – rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**ŞPİ** – şəhər polis idarəsi

**ŞPŞ** – şəhər polis şöbəsi

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

## Bölmə 1. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizmin mahiyyəti, Azərbaycan Respublikasında təşəkkülü

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının[1] Fakültativ Protokolu BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli, 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir.

FP-nin qəbul edilməsinin məqsədi, preambulada göstərildiyi kimi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq etmək və azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan, preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında işgəncələrdən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin görülməsinin zəruriliyini vurğulamaq, habelə dövlətlərin işgəncələrin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsi öhdəliyi, bu öhdəliyin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığı, azadlıqdan məhrum edilmiş şəxslərin insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğu və beynəlxalq qurumların fəaliyyəti ilə milli tədbirlərin tamamlanmasının bu prosesə xidmət etdiyini diqqətə çatdırmaq olmuşdur.

Yeri gəlmişkən qeyd etmək lazımıdır ki, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza termininə bir sıra müvafiq beynəlxalq aktlarda rast gəlinsə də, beynəlxalq müstəvidə işgəncəyə anlayış yalnız BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sında verilmişdir. Adı çəkilən konvensiyanın 1-ci maddəsinə əsasən, Konvensiyanın məqsədləri üçün "işgəncə" dedikdə, hər hansı bir şəxsə, ondan və ya üçüncü şəxsdən məlumat, yaxud etiraf əldə etmək üçün, onu, özünün, yaxud üçüncü şəxsin törətdiyi,

[1] 10 dekabr 1984-cü il tarixdə qəbul edilmiş, 26 iyun 1987-ci il tarixdə qüvvəyə minmişdir. Azərbaycan Respublikası tərəfindən 31 may 1996-cı il tarixdə 103-IQ nömrəli qanunla ratifikasiya edilmişdir. 25 iyun 1996-cı il tarixdən Azərbaycan Respublikasına münasibətdə qüvvədədir.

yaxud törədilməsində şübhəli bilindiyi, şübhə doğuran hərəkətə görə cəzalandırmaq üçün, həmçinin onu, yaxud üçüncü şəxsi qorxutmaq və ya məcbur etmək üçün, yaxud hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hansısa səbəbə görə dövlətin vəzifəli şəxsi, yaxud rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya məlumatlılığı, yaxud göz yumması ilə qəsdən fiziki, yaxud mənəvi cəhətdən güclü ağrı və ya əzab verən hər hansı hərəkət başa düşülür. Yalnız qanuni sanksiyalar nəticəsində baş verən, bu sanksiyaların ayrılmaz tərkib hissəsi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və ya əzablar bu anlayışa daxil deyil.

Əsas tələbi işgəncələrin qarşısının alınması məqsədi ilə azadlıqdan məhrumetmə yerlərinə[2] müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarət olan FP innovativ müqavilə kimi, işgəncələrin qarşısının alınmasında beynəlxalq və milli səyləri özündə birləşdirməklə və konstruktiv dialoqun vacibliyini vurğulamaqla, tənzimlənən münasibətlərə reaktiv – reaksiyaya əsaslanan münasibət deyil, preventiv, yəni qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. Başqa sözlə, protokol hər hansı yeni hüquqları və ya pozulmuş hüquqların bərpasını deyil, işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını özündə əks etdirir. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq səviyyədə Qarşısını Alma üzrə Altkomitə, milli səviyyədə isə milli preventiv mexanizmlər yaradılır. Beynəlxalq səviyyədə yaradılmış Altkomitə BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin alt komitəsi olmaqla, BMT-nin yeni nəsil saziş qurumudur.

Artıq qeyd olunduğu kimi, yuxarıda adı çəkilən sənəd işgəncələrlə mübarizədə effektiv alət olmaqla, işgəncələrin qarşısının alınması üzrə milli preventiv mexanizmin təsis və ya təyin edilməsi tələbini ehtiva edir. Belə ki, FP-nin 17-ci maddəsinə əsasən, protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, təyin və ya təsis edir.

Azərbaycan Respublikası FP-ni 15 sentyabr 2005-ci il tarixdə imzalamış, 02 dekabr 2008-ci il tarixli, 724-IIIQ nömrəli qanunla ratifikasiya etmişdir. Sözü gedən qanunun dərcindən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Həmin tarixdə həmçinin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli, 112 nömrəli Sərəncamı da dərc edilmişdir. Sərəncama əsasən, MPM-nin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

MPM qismində məhz Müvəkkilin müəyyən edilməsi təsadüfi olmamışdır. Belə ki, Müvəkkil məhkəmədənkənar hüquq-müdafiə mexanizmi olmaqla öz mandatına görə Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsini təmin edir və şübhəsiz ki, müstəqil, qərəzsiz, "Paris prinsipləri"nə əsasən "A" statusuna malik milli insan hüquqları institutu kimi çıxış edən Müvəkkil öz fəaliyyətində işgəncələrlə mübarizə və qarşısının alınması, preventiv tədbirlərin təşkili və eləcə də maarifləndirmə işlərinin aparılması məsələlərinə xüsusi diqqət göstərmişdir ki, bu da MPM-in formalaşdırılmasının əsasını qoymaqla onun fəaliyyəti üçün baza rolunda çıxış etmişdir. Müvəkkilin MPM qismində müəyyən olunması bu sahədə gördüyü işlər nəticəsində həm dövlət, həm də ictimaiyyət qarşısında qazandığı etimadın əlaməti olmaqla, sözü gedən fəaliyyətin daha səmərəli və keyfiyyətlə aparılmaqla növbəti mərhələyə qədəm qoymasına və bu sahədə görülən işlərin təkmilləşdirilməsinə zəmin yaratmış, Müvəkkilin səlahiyyət dairəsini genişləndirmiş, eyni zamanda onun üzərinə kifayət qədər məsuliyyətli vəzifələr qoymuşdur. Yeni vəzifələrin layiqli icrasının təmin edilməsi üçün ilk əvvəl aşağıdakı istiqamətlər üzrə təxirəsalınmaz tədbirlərin görülməsi zərurəti meydana çıxmışdır:

- müvafiq müzakirələrin aparılması və təşkilati tədbirlərin görülməsi;

- Müvəkkilin mandatının MPM prizmasından təhlili;
- beynəlxalq təcrübənin öyrənilərək ümumiləşdirilməsi;
- MPM modelinin müəyyən edilməsi;
- MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrin siyahısının dəqiqləşdirilməsi;
- əməli fəaliyyətə başlanılması;
- beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi.

Göstərilən məqsədlərlə Müvəkkil tərəfindən 15 yanvar 2009-cu il tarixdə müvafiq sərəncam imzalanmışdır. Həmin sərəncamla Aparatın əməkdaşlarından ibarət tərkibdə işçi qrupu yaradılmış və qrupa MPM-in funksiyalarının yerinə yetirilməsi işinin təşkil olunmasına dair təkliflər və müvafiq tədbirlər planının on gün müddətində Müvəkkilə təqdim edilməsi tapşırılmışdır. İşçi qrup tərəfindən sərəncama əsasən zəruri təşkilati tədbirlər görülmüş, Müvəkkilin rəhbərliyi və iştirakı ilə müzakirələr aparılmış, müxtəlif dövlət qurumlarından, həmçinin beynəlxalq təşkilatlardan müraciətlər əsasında alınmış təkliflər ümumiləşdirilmiş, eyni zamanda bu sahədə mövcud olan beynəlxalq təcrübə öyrənilərək təhlil edilmiş, tədbirlər planı hazırlanmış, o cümlədən ölkədə tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərin saxlanıldığı müəssisələrin siyahısı tərtib olunmuş, habelə müvafiq istiqamətlər üzrə əməli fəaliyyətə başlanılmışdır.

MPM-in işinin daha səmərəli təşkili üçün Müvəkkilin qarşısında duran və qısa zaman kəsiyində həll edilməsi zəruri olan əsas məsələ kimi, onun mandatının FP-nin tələblərinə tam uyğunlaşdırılması və Aparatda yeni, xüsusi struktur vahidinin yaradılması vəzifəsi olmuşdur.

Bu məqsədlə Aparatda Müvəkkilin mandatı FP-nin prizmasından təhlil olunmuş və perspektiv istiqamətlər üzrə müvafiq təkliflər hazırlanmışdır. Göstərilənlərlə yanaşı, həmçinin Aparatda yaradılması nəzərdə tutulan yeni struktur vahidinin – İşgəncələrin qarşısının alınması məsələləri şöbəsinin tərkibinin, əsasnaməsinin, Aparatın və regional mərkəzlərin ştat cədvəlinə və büdcəsinə əlavələrin, həmçinin Müvəkkilin müvafiq sərəncamının layihəsi hazırlanmış, razılaşdırılması üçün müvafiq qurumlara göndərilmişdir. Həmçinin Konstitusiya Qanununa əlavə və dəyişikliklərin layihəsi də işlənib hazırlanaraq Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmişdir.

Yuxarıda adı çəkilmiş şöbənin büdcəsi təsdiqlənənədək, Aparatın mövcud büdcəsi çərçivəsində struktur vahidlərinin 5 nəfər əməkdaşı MPM məsələləri ilə bağlı işlərə cəlb edilmişdir. Daha sonra, Müvəkkilin 19 yanvar 2010-cu il tarixli sərəncamı ilə Müvəkkilin MPM Qrupu yaradılmışdır. Müvəkkilin rəhbərlik etdiyi və Başçəkmələr üzrə altqrup və Sənədlərin və hesabatların hazırlanması üzrə altqrupdan ibarət Qrupun tərkibini Aparatın 8 nəfər əməkdaşı təşkil etmişdir. Daha sonra, göstərilən sahədə fəaliyyətin genişləndirilməsinin və işin daha da təkmilləşdirilməsinin təmin olunması məqsədilə Müvəkkilin 28 dekabr 2010-cu il tarixli Sərəncamı ilə altqrupların ləğv olunması və Müvəkkilin regional mərkəzlərinin əməkdaşları qrupun tərkibinə daxil edilməklə MPM Qrupu 17 nəfərdən ibarət olmaqla yenidən təşkil edilmişdir.

Qanunvericiliyə müvafiq əlavə və dəyişikliklər edildikdən sonra MPM-in işinə vətəndaş cəmiyyətinin nümayəndələrini də cəlb etmək mümkün olacaq.

Hesab edirik ki, Müvəkkilin MPM qismində tam, hərtərəfli və məhsuldar fəaliyyət göstərməsi onun mandatının genişləndirilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi, həmçinin müvafiq büdcənin, strukturun və ştat vahidlərinin təsdiq olunmasından və təşkilati problemlərin həllindən sonra mümkün olacaqdır.

## Bölmə 2. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizm kimi: mandatı, mövcud qanunvericilik və təşkilati problemlər

Artıq qeyd olunduğu kimi, Müvəkkilin MPM qismində müəyyən edilməsi onun səlahiyyət dairəsini genişləndirməklə yanaşı, həmçinin üzərinə vəzifələr qoymuşdur. Bu səbəbdən, Müvəkkilin konstitusion qurum olduğu nəzərə alınaraq, Konstitusiya Qanununa Müvəkkilin MPM-in funksiyalarını həyata keçirməsi ilə əlaqədar müvafiq əlavənin edilməsi zəruridir.

Müvəkkilin MPM-in funksiyalarını həyata keçirən qurumun fəaliyyətini tam həcmdə həyata keçirməsinin təmin edilməsi üçün onun hüquq və vəzifələrinin – səlahiyyətlərinin FP-nin tələblərinə uyğun qurulması qarşıda duran əsas vəzifələrdən biridir. Belə ki, əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından (maddə 1) ibarət olan FP-nin 3-cü və 17-ci maddələrinə əsasən, hər bir iştirakçı dövlət işgəncələrin qarşısının alınması məqsədilə milli səviyyədə (MPM adlandırılan) bir və ya bir neçə müstəqil başçəkmə orqanı yaradır, təyin edir və ya dəstəkləyir. Bu orqanlar FP-nin tələblərinə cavab verdiyi təqdirdə, MPM qismində təyin edilə bilərlər. Başqa sözlə demiş olsaq, Müvəkkilin mandatı FP-də MPM-lər üçün nəzərdə tutulmuş minimum səlahiyyətlər toplusunu ehtiva etməlidir.

MPM qismində müəyyən edilmiş Müvəkkilin mandatı Konstitusiya Qanunu ilə müəyyən olunmuşdur. Konstitusiya Qanununun 1.1-ci maddəsinə əsasən, Müvəkkil vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilmişdir.

Müstəqil qurum olan Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur (Konstitusiya Qanunu, maddə

1.7).

MPM-in mandatına dair əsas tələblər FP-nin 18-23-cü maddələrində təsbit olunmuşdur.

FP-nin 18-ci maddəsində deyilir:

1. İştirakçı dövlətlər MPM-lərin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər MPM-lərin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edirlər.

3. İştirakçı dövlətlər MPM-lərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürürlər.

4. MPM-lərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

Müvəkkilin müstəqilliyinin təminatları Konstitusiya Qanununda təsbit edilmişdir. Konstitusiya Qanununun 5.1-ci maddəsinə əsasən, Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir. Fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır (Konstitusiya Qanunu, maddə 5.3).

Konstitusiya Qanununun tələbinə görə, müvəkkilin müstəqilliyinə aşağıdakı təminatlar verilir:

*dəyişilməzliyi*

Müvəkkil 7 il müddətinə seçilir və eyni şəxs müvəkkil vəzifəsinə iki dəfədən artıq seçilə bilməz. (Konstitusiya Qanunu, maddə 4.1; 4.2);

*toxunulmazlığı*

Müvəkkil səlahiyyət müddəti ərzində toxunulmazdır (Konstitusiya Qanunu, maddə 6.1);

*hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi*

Müvəkkilin qanuni fəaliyyətinə mane olma – onun fəaliyyətini məhdudlaşdırma və ya fəaliyyətinə müdaxilə etmə Azərbaycan

Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur (İXM, maddə 310-1).

*maddi və sosial təminatları*

Müvəkkil qanunvericilikdə nəzərdə tutulmuş məbləğdə aylıq əmək haqqı alır, hərbi çağırışdan və hərbi toplantıdan azad edilir, səlahiyyət müddəti ərzində diplomatik pasportla təmin edilir, qanunvericiliklə müəyyən olunmuş qaydada məzuniyyət hüququndan istifadə edir, ona məzuniyyətə çıxdığı vaxt müalicə olunması və istirahət etməsi üçün iki aylıq əmək haqqı məbləğində pul təminatı verilir. Müvəkkilin səlahiyyət müddəti onun ümumi, xüsusi və fasiləsiz iş stajına daxil edilir. Vaxtından asılı olmayaraq Müvəkkil vəzifəsində işləmiş şəxs pensiya yaşına çatdıqda hazırkı dövrdə Müvəkkil üçün müəyyən edilmiş vəzifə maaşının 80 faizi məbləğində pensiya alır (Konstitusiya Qanunu, maddə 16).

Yeri gəlmişkən qeyd edilməlidir ki, Müvəkkilin qanuni fəaliyyətinə mane olmağa görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət tədbirləri kifayət qədər qənaətbəxş deyildir və Müvəkkilin statusuna, onun cəmiyyətdə və dövlət orqanları arasında tutduğu mövqeyə uyğun gəlmir. İXM-də nəzərdə tutulan normaya tövsifedici əlamətlərin, o cümlədən Müvəkkilin qanuni sorğularının cavablandırılmaması və ya vaxtında cavablandırılmaması əməlinin daxil edilməsinin, normanın sanksiyasının sərtləşdirilməsinin və fiziki şəxslər və vəzifəli şəxslər üçün differensiasiyanın aparılmasını, eyni zamanda göstərilənlər barədə Konstitusiya Qanununda müvafiq qeyd aparılması məqsədəuyğundur. Bu, Müvəkkilin MPM qismində fəaliyyəti baxımından olduqca aktualdır.

Müvəkkilin fəaliyyətinin hüquqi, təşkilati, elmi-analitik, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatının həyata keçirilməsi üçün onun aparatı yaradılır. Yerlərdə Müvəkkilin regional mərkəzləri yaradıla bilər (Konstitusiya Qanunu, maddə 17.1). Müvəkkilin və onun aparatının və regional mərkəzlərinin fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilir (Konstitusiya Qanunu, maddə 19.1) və bunun üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz (Konstitusiya Qanunu, maddə 19.2). Aparat və regional mərkəzlər müvəkkil tərəfindən

təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərirlər (Konstitusiya Qanunu, maddə 17.3) və əməkdaşların hüquqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının Əmək Məcəlləsi, «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilir (Konstitusiya Qanunu, maddə 18.2).

Hazırda Aparatın strukturunda əsas vəzifələri məhbuslar və onların yaxınları tərəfindən müvəkkilin ünvanına daxil olmuş ərizələrin araşdırılması, azadlıqdan məhrum etmə yerlərinə Müəssisələrə müvəkkilin baxışlarının təşkil edilməsi, habelə belə baxışların keçirilməsi, məhbuslar və onlarla işləyən əməkdaşlar arasında hüquqi-maarifləndirmə işlərinin aparılması olan Məhbusların hüquqlarının müdafiəsi sektoru fəaliyyət göstərir. Həmçinin qeyd olunmalıdır ki, Müvəkkilin yanında əlavə, ödənişsiz əsaslarla işgəncələr üzrə ixtisaslaşmış müşavir, o cümlədən məhbusların hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış müşavir çalışır. İxtisaslaşmış müşavirlər tərəfindən mütəmadi olaraq müvafiq sahələr üzrə milli qanunvericilik və beynəlxalq-hüquqi aktlar, bu sahədə ölkədəki vəziyyət, Müvəkkilin ünvanına daxil olmuş şikayət və müraciətlərin elmi-analitik təhlili aparılır, ayrı-ayrı istiqamətlər üzrə tədbirlər planı hazırlanaraq həyata keçirilir, müvafiq qurumlara təklif və tövsiyələr göndərilməsi üçün Müvəkkilə layihələr təqdim olunur. Lakin qeyd olunan resurslar Müvəkkilin MPM kimi səmərəli fəaliyyət göstərməsinin təmin olunması üçün qənaətbəxş hesab oluna bilməz. Belə ki, ölkədə azadlıqdan məhrum etmə yerlərinin sayının 250-dən çox olması və MPM-in əsas işinin bu müəssisələrə mütəmadi baş çəkmələrin həyata keçirilməsindən ibarət olması nəzərə alınaraq, Müvəkkilin MPM qismində müəyyən olunmasından sonra Aparatda aparılmış müzakirələr, müxtəlif dövlət qurumlarından, həmçinin beynəlxalq təşkilatlardan daxil olmuş təkliflərin ümumiləşdirilməsi, o cümlədən bu sahədə mövcud olan beynəlxalq təcrübənin öyrənilərək təhlil edilməsi nəticəsində müəyyən edilmişdir ki, Aparatın tərkibində işgəncələrin aşkar olunması, araşdırılması və qarşısının alınması sahəsindəki fəaliyyəti təşkil edəcək xüsusi struktur vahidinin yaradılması təklif olunmuşdur. Göstərilən məqsədlə, Aparatda İşgəncələrin qarşısının alınması məsələləri şöbəsinin əsasnaməsinin, həmçinin strukturunun, aparatın və regional mərkəzlərin ştat cədvəlinə əlavə olunması təklif olunan ştat vahidlərinin,

habelə xərclər smetasının və tədbirlər planının layihələri hazırlanmış və razılaşdırılması üçün, ölkə prezidentinin FP-nin icrasının təmin edilməsi barədə imzaladığı məlum sərəncamda FP-nin icrası ilə əlaqədar zəruri tədbirlərin görülməsinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırıldığı nəzərə alınaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Aparatın əməkdaşlarının müvafiq səlahiyyətlərə malik olmaması fonunda, MPM-in işinin həcmi və əhəmiyyəti, həmçinin azadlıqdan məhrum etmə yerlərinin konqlomeratı – sayı və ölkənin müxtəlif hissələrində yerləşməsi bu işin Müvəkkil tərəfindən şəffaf prosedurlar əsasında yaradılacaq və üzvləri xüsusi tələblərə cavab verən şəxslər sırasından seçiləcək Milli preventiv qrupun (MPQ) təsis edilməsi zəruridir. MPQ-nin tərkibinə QHT nümayəndələrinin də daxil edilməsi yolu ilə, MPM-in işinə vətəndaş cəmiyyətinin daha yaxından iştirakının təmin edilməsi mümkündür.

Müvəkkilin özünün müstəqilliyinin təminatları qanunvericilik səviyyəsində təsbit olunsa da, onun işçi heyətinin müstəqilliyinə dair hər hansı göstəriş nəzərdə tutulmamışdı. Yeri gəlmişkən qeyd olunmalıdır ki, əməkdaşların bu və ya digər qapalı müəssisədə başçəkmə aparması üçün xüsusi icazə alınması zəruridir. Müvəkkilin aparatının və regional mərkəzinin əməkdaşları dövlət qulluqçusudurlar və onların hüquq və vəzifələri, eləcə də təminatları “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və bu qanunda hər hansı imtiyaz və immunitet nəzərdə tutulmamışdır. Sözü gedən qanunun 21-ci maddəsində dövlət qulluqçusunun təminatları sadalanarkən müvafiq məsələ ilə bağlı yalnız dövlət qulluqçusunun vəzifə öhdəliklərinin icrası ilə əlaqədar olaraq ona və onun ailə üzvlərinə qarşı törədilən zorakılıqdan, hədələrdən və təhqirlərdən dövlət qulluqçusunun və onun ailə üzvlərinin müdafiəsi müddəası qeyd olunmuşdur ki, bunun da konkret olaraq nədə və necə ifadə olunmasına dair hər hansı göstəriş təsbit olunmamışdır. FP-nin 35-ci maddəsinə əsasən, MPM-lərin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. FP-nin göstərilən tələbini, həmçinin 18-ci maddəsinin 1-ci bəndini, habelə MPQ üzvləri tərəfindən icra edilən vəzifə öhdəliklərinin

xarakterini, onların müstəqilliyinin təmin olunmasının zəruriliyini, habelə bu sahədə olan beynəlxalq təcrübəni nəzərə alaraq, qanunvericilikdə MPQ üzvləri üçün müvafiq imtiyaz və immunitetlərin nəzərdə tutulması təklif olunmuşdur.

FP-nin 18-ci maddəsinin 2-ci və 4-cü bəndlərində nəzərdə tutulmuş tələblərlə əlaqədar qeyd olunmalıdır ki, 27 oktyabr 2006-cı il tarixdə Milli İnsan Hüquqları təsisatlarının Beynəlxalq əlaqələndirmə Komitəsi tərəfindən, mandatı 20 dekabr 1993-cü ildə qəbul olunmuş "Paris Prinsipləri"nə tam cavab verdiyinə görə, ən yüksək "A" statusuna layiq görülmüşdür.

Müvəkkilin aparatında və respublikanın 4 bölgəsində fəaliyyət göstərən regional mərkəzlərində, 2010-cu ilin sonuna olan məlumata görə, 70 əməkdaş fəaliyyət göstərir ki, onlardan 12-si regional mərkəzlərin (4 mərkəzin hər birində 3 nəfər olmaqla) əməkdaşıdırlar. 50-si insan hüquqları sahəsində ixtisaslaşmış hüquqşünaslardır. Digər əməkdaşlar yardımçı vəzifələri tuturlar. Aparatda və regional mərkəzlərdə çalışan əməkdaşlardan 45-i kişidir. Əməkdaşlar arasında azərbaycanlılarla yanaşı, avar, gürcü, ləzgi, rus, talış, tat və yəhudi milliyyətindən olan şəxslər də var. Aparatın tərkibində yeni struktur vahidinin yaradılması zamanı gender balansına xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

FP-nin 19-cu maddəsində deyilir:

MPM-lərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

FP-nin 20-ci maddəsində deyilir:

MPM-lərin mandatını yerinə yetirə bilməsi məqsədilə, FP-nin iştirakçısı olan dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə MPM-in fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını Alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

Müvəkkilin səlahiyyətləri əsasən Konstitusiya Qanununun 1, 12 və 13-cü maddələrində təsbit edilmişdir. Konstitusiya Qanununun 1.5-ci maddəsinə əsasən, Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair, o cümlədən amnistiya elan edilməsi barədə təklif verə bilər. Müvəkkil həmçinin əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

Əlavə olaraq qeyd olunmalıdır ki, Konstitusiya Qanununun 14.3-cü maddəsinə əsasən, Müvəkkilin insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələri onun illik məruzəsində öz əksini tapır. Cari il bitdikdən sonra 2 aydan gec olmayaraq Müvəkkil ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası Prezidentinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikası Milli Məclisi qarşısında çıxış edir (Konstitusiya Qanunu, maddə 14.1). Məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərilir. (Konstitusiya Qanunu, maddə 14.4).

Müvəkkilin müvafiq qurumlara təklif və tövsiyələr təqdim etməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, o, ünvanına daxil olmuş şikayətləri ümumiləşdirərək qruplaşdırır və təhlil edir, təhlil nəticəsində əldə olunmuş məlumatlara əsaslanaraq, milli qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati səviyyədə islahatların aparılması istiqamətində Azərbaycan Respublikasının Milli Məclisinə, o cümlədən müxtəlif dövlət qurumlarına təkliflər ünvanlayır, habelə Azərbaycan hökuməti tərəfindən müxtəlif beynəlxalq konvensiyalara, protokollara qoşulma, onları ratifikasiya etmə işinin sürətləndirilməsi üçün töhfələrini verir.

Lakin göstərilənlərə baxmayaraq qeyd olunmalıdır ki, Konstitusiya Qanununda Müvəkkilin bu və ya digər dövlət orqanına tövsiyələr vermək hüququ birbaşa təsbit olunmamışdır. Bu səbəbdən müvafiq əlavənin edilməsi məqsədəmüvafiqdir.

Ünvanına daxil olmuş şikayət ərizələrinin araşdırılması ilə əlaqədar Müvəkkilin hüquqları Konstitusiya Qanununun 12-ci maddəsində əks etdirilmişdir. 12.2-ci maddənin tələblərinə görə, insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkilin aşağıdakı hüquqları var:

- maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil olmaq; cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək; onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq;
- dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən zəruri məlumat, sənəd və materialları 10 gün müddətində almaq;
- cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq;
- şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq;
- şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək (qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqan və ya vəzifəli şəxs istisna olmaqla);

- müvafiq dövlət orqanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq;

- dövlət və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının və müvəqqəti saxlanılma yerlərinin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək.

İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkil öz təşəbbüsü ilə araşdırma apara bilər (Konstitusiya Qanunu, maddə 12.3).

Konstitusiya Qanununun 13.2-ci maddəsinə əsasən, Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər:

- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək;

- cinayət əlamətləri aşkar edildikdə müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;

- əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;

- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək;

- insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə KİV-i tanış etmək;

- insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətlərində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;

- dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək.

- şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.

Konstitusiya Qanunun 12.2-ci maddəsinin mətnindən görünür ki, Müvəkkilin səlahiyyəti həmin normaya "insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı" ifadəsinin daxil edilməsi yolu ilə xeyli məhdudlaşdırılmışdır. Belə ki, həmin ifadənin məğzinə görə, Müvəkkil sadalanan hüquqlardan yalnız bu və ya digər şikayət ərizəsinin araşdırılması zamanı istifadə edə bilər ki, bu da MPM-in funksiyaları ilə bir araya sığmır. Qeyd olunan mülahizəni, analoji olaraq 13.2-ci maddəyə də şamil etmək olar. FP-nin tələblərinə görə isə, MPM-in işinin fəlsəfəsi azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı və ya saxlanıla bildiyi müəssisələrə mütəmadi başçəkmələrin həyata keçirilməsində ifadə olunur və FP-nin 4-cü maddəsi aşkar surətdə bəyan edir ki, dövlət qeyd olunan mexanizmlərə azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə başçəkmələrə icazə verir. Göstərilənləri nəzərə alaraq, Konstitusiya Qanununun 12-ci və 13-cü maddələrinin mətninin müvafiq redaktədə verilməsi təklif olunmuşdur.

FP-nin tələblərinə və fəaliyyət dövrü ərzində toplanmış təcrübəyə əsasən xüsusi vurğulamaq lazımdır ki, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri digər yerlər də (qapalı müəssisələr olan xüsusi tipli internatlar, psixiatriya müəssisələri, uşaq evləri, ahıllar evləri) MPM tərəfindən diqqət mərkəzində saxlanılmalıdırlar. Konstitusiya Qanunun 12.2.1-ci maddəsində Müvəkkilin maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən daxil olmasına və s. icazə verilən müəssisələr sadalanarkən qeyd olunan müəssisələr göstərilməmişdir. Bu səbəbdən, göstərilən normaya müvafiq əlavənin, həmçinin FP-nin 20-ci maddəsinin tələblərinə uyğun olaraq digər zəruri dəyişikliklərin edilməsi tövsiyə olunmuşdur.

FP-nin 20-ci maddəsinin "f" bəndi ilə əlaqədar qeyd olunmalıdır ki, Müvəkkil, fəaliyyət istiqamətlərinə uyğun olaraq, müxtəlif beynəlxalq təşkilatlarla müstəqil surətdə əlaqələr yaradır və əməkdaşlıq edir. Müvəkkil Avropa Ombudsmanlar İnstitutuna, Beynəlxalq Ombudsmanlar İnstitutuna və Asiya Ombudsmanlar Assosiasiyasına üzv seçilmiş və həmin qurumlar daxilində uğurla fəaliyyət göstərməkdədir. Müvəkkilin yüksək "A" statusuna

layiq görülməsi beynəlxalq əlaqələrinin daha da genişləndirilməsinə və ona BMT-nin İnsan hüquqları şurasının fəaliyyətində müstəqil olaraq iştirak etmək və tövsiyələr vermək, BMT-nin saziş qurumlarına hökumət tərəfindən hazırlanan hesabatlarla bağlı öz rəyini bildirmək, paralel hesabatlar hazırlamaq və sazişlərin yerinə yetirilməsinin monitorinqini həyata keçirmək səlahiyyətləri vermişdir. İşgəncələrlə mübarizə ilə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlığın, habelə xarici ölkələrin MPM-ləri ilə təcrübə mübadiləsinin yüksək səviyyədə təşkil olunmasının əhəmiyyəti nəzərə alınaraq, bu işin Aparatda yaradılacaq şöbəyə həvalə olunması planlaşdırılır.

Sadalananlara rəğmən qeyd olunmalıdır ki, Konstitusiya Qanununda Müvəkkilin beynəlxalq əməkdaşlığının qurulmasına dair hər hansı göstəriş yoxdur ki, bu da qanuna müvafiq əlavənin edilməsini zəruri etmişdir və müvafiq təklif verilmişdir.

FP-nin 21-ci maddəsində deyilir:

1. Heç bir orqan və ya vəzifəli şəxs MPM-ə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiya təyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. MPM tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

Müvəkkilin mandatının göstərilən maddənin tələblərinə uyğunluğu barədə qeyd etmək olar ki, milli qanunvericiliyin tələblərinə görə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən Müvəkkilə ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində ona göndərilməlidir (Konstitusiya Qanunu, maddə 8.5).

Konstitusiya Qanununun 15-ci maddəsinə əsasən, Müvəkkilin fəaliyyəti ilə əlaqədar ona məlum olmuş dövlət sirri təşkil edən məlumatların mühafizəsi "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq surətdə həyata keçirilir. Şikayətlərdə əks etdirilmiş halların Müvəkkil tərəfindən araşdırılması zamanı ərizəçilərin şəxsi və ailə həyatı barədə bəlli olmuş məlumatların yayılmasına onların razılığı olmadan yol verilmir. Müvəkkil,

həmçinin ərizəçinin xahişi ilə onun barəsində olan məlumatları gizli saxlamalıdır (Konstitusiya Qanunu, maddə 9.5)

Konstitusiya Qanununun istinad edilən maddələrinin mətnindən, habelə digər qanunvericilik aktlarından görünür ki, Müvəkkilə bu və ya digər məlumatın ötürülməsinə görə təqiblərin qadağan edilməsi barədə hər hansı birbaşa göstəriş təsbit edilməmişdir. Odur ki, Konstitusiya Qanununda müvafiq qeydin edilməsi, habelə müvəkkilin qanuni fəaliyyətinə mane olmaya görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət məsələləri sərtləşdirilərkən, FP-nin 21-ci maddəsinin 1-ci bəndinin tələblərinin də nəzərə alınması vacibdir. Bu barədə müvafiq təklif verilmişdir.

FP-nin 22-ci maddəsində deyilir:

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları MPM-in tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

Konstitusiya Qanununun 12.1-ci maddəsinə əsasən, Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənməlidir. 10 gün müddətində mülahizə Müvəkkilə təqdim edilməlidir.

Konstitusiya Qanununun 13.2.1-ci maddəsinə əsasən, Müvəkkil həmçinin qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb edə bilər. Müvafiq orqanlar, vəzifəli şəxslər 10 gün müddətində Müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda Müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edə bilər.

Müvəkkil şikayət ərizələrinin təhlili nəticəsində aşkar edilmiş problemlərin effektiv həllinə nail olmaq üçün dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları, nazirliklər və dövlət komitələri ilə işgüzar əlaqələr yaratmışdır ki, bu da, müvəkkilin işinin təşkili və pozulmuş insan hüquqlarının bərpasında mühüm rol oynayır. Dövlət qurumları ilə birgə araşdırmalar, monitorinqlər, regionlarda şikayətçilərin qəbulu, müxtəlif bölgələrdə dövlət qurumları, icra hakimiyyəti, hüquq-mühafizə orqanları, hakimlər, məhkəmə

işçiləri, QHT-lər və KİV-i cəlb etməklə seminarlar, treninqlər keçirilir. Əhalinin rastlaşdığı problemlərə, qanun pozuntularına dövlət qurumlarının diqqətini cəlb etmək, insan hüquqlarının pozulmasının qarşısını almaq, bu hüquqları etibarlı təmin etmək, pozulduğu halda isə qanun çərçivəsində bərpa etmək məqsədi ilə müvafiq təkliflər paketi hazırlanıb səlahiyyətli orqanlara təqdim olunur.

Müvəkkil, dövlət qurumları ilə əməkdaşlığı çərçivəsində insan hüquqlarına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müddəalar üzrə hesabatların hazırlanmasında yaxından iştirak edir. Müvəkkil həmçinin dövlət qurumlarına, beynəlxalq təşkilatların monitorinqlərinin nəticələri üzrə verdikləri tövsiyələri həyata keçirməkdə kömək edir, QHT və vətəndaş cəmiyyətinin digər üzvlərini bu işdə aktiv surətdə iştirak etməyə cəlb edir.

FP-nin 23-cü maddəsində qeyd olunur ki, FP-nin iştirakçı dövlətləri MPM-lərin illik hesabatlarını dərc etməyi və yaymağı öhdələrinə götürürlər.

Konstitusiya Qanununun 14.5-ci maddəsinin tələbinə görə, Müvəkkilin illik məruzələri dövlət nəşrlərində dərc olunmalıdır.

Beləliklə, Müvəkkilin mandatının FP-nin tələbləri prizmasından təhlili nəticəsində müəyyən olunmuşdur ki, o, FP-nin tələblərinə qismən cavab verir və Müvəkkilin tam hüquqlu MPM kimi fəaliyyət göstərməsi üçün qanunvericilikdə müvafiq əlavə və dəyişikliklərin edilməsi zəruridir.

Bu əsnada qeyd etmək lazımdır ki, artıq qanunvericilik istiqamətində təkmilləşdirmə işlərinin həyata keçirilməsi başlanılmışdır. Belə ki, 21 dekabr 2010-cu il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu birinci səsvermədə qəbul edilmişdir. Sözü gedən qanun 6 aydan sonra təkrar səsvermədən keçdikdə və ölkə prezidenti tərəfindən imzalandıqda qüvvəyə minəcəkdir.

Xüsusi vurğulamaq lazımdır ki, sözü gedən qanun Müvəkkilin, eləcə də müvafiq beynəlxalq qurumların, o cümlədən ATƏT-in Bakı Ofisinin, ATƏT DTİHB-nin, habelə vətəndaş cəmiyyətinin, Azərbaycanda fəaliyyət göstərən hüquq müdafiə təşkilatlarının və hüquq müdafiəçilərinin də dəstəyi, eyni

zamanda təklif və tövsiyələri nəzərə alınmaqla qəbul edilmişdir.

Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklər öz əhəmiyyətinə və əhatə etdiyi məsələlərin dairəsinə görə olduqca əhəmiyyətlidir və uğurlu irəliləyiş, təkmilləşmə hesab oluna bilər. Sözü gedən qanunla Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqillik göstəriciləri kifayət qədər genişləndirilmiş, FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, habelə onun işçi heyətinin təminatları əks etdirilmişdir.

Belə ki, Qanunda Müvəkkilin pozulmuş insan hüquqlarının bərpasına yönəlmiş reaktiv funksiyası ilə yanaşı insan hüquqlarının pozulmasının qarşısının alınmasına yönəlmiş preventiv funksiyası; informasiya sahiblərinin müvafiq qanunvericilik aktının tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirməsi; fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq etməsi; səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ; azadlıqdan məhrum etmə yerlərinə və ya saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri digər yerlərə istənilən vaxt başçəkmə həyata keçirmək hüququ; eləcə də sonuncu ilə Müvəkkilin Aparatında şəffaf prosedurlar əsasında yaradılacaq Milli preventiv qrupun (MPQ) da səlahiyyətləndirilməsi; MPQ üzvlərinə dair tələblər, onların toxunulmazlığının təminatları; həmçinin Müvəkkilə məlumat verilməsinə görə hər hansı şəxsə və ya təşkilata təzyiq göstərilməsi, yaxud şəxsin və ya təşkilatın təqib edilməsinin yolverilməzliyi; Müvəkkilin fəaliyyətinə maneə törədilməsinin qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətə səbəb olması və digər əhəmiyyətli məsələlər təsbit edilmişdir. Əlavə və dəyişikliklərə əsasən, Müvəkkil həmçinin başçəkmələrin həyata keçirilməsinə müstəqil mütəxəssisləri dəvət etmək hüququndan da bəhrələnəcək (bax: Əlavə 3).

Göstərilən qanun FP-nin və digər beynəlxalq sənədlərin tələblərinə cavab verməklə yanaşı, beynəlxalq təcrübədə nümunəvi layihə kimi də hesab oluna bilər.

## Bölmə 3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizm qismində fəaliyyətinin əsas istiqamətləri

Milli insan hüquqları təsisatı kimi Müvəkkil öz fəaliyyətində işgəncələrlə mübarizə və qarşısının alınması, preventiv tədbirlərin təşkili və eləcə də maarifləndirmə işlərinin aparılması məsələlərinə xüsusi diqqət göstərmişdir. Bu fəaliyyət onun MPM qismində müəyyən olunmasından sonra daha da təkmilləşmiş və yeni xüsusiyyətlər meydana çıxmışdır.

Müvəkkilin MPM qismində fəaliyyəti 4 əsas istiqamət üzrə qurulmuşdur:

- Başçəkmələr – azadlıqdan məhrum etmə yerlərinə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Elmi-analitik iş – həyata keçirilən fəaliyyət nəticəsində toplanmış empirik materialların və daxil olmuş digər məlumatların nəzəri-təcrübi təhlili, mövcud qanunvericilik aktlarına əlavə və dəyişiklər edilməsi barədə təkliflərin hazırlanması və aidiyyəti üzrə göndərilməsi;
- Hüquqi-maarifləndirmə işi – əhali, xüsusilə əhalinin həssas qrupları, həmçinin hüquq-mühafizə orqanlarının əməkdaşları arasında hüquqi-maarifləndirmə işinin aparılması;
- Beynəlxalq əməkdaşlıq – müxtəlif beynəlxalq təşkilatlarla, xarici ölkələrin ombudsmanları və səfirliklərlə qarşılıqlı əməkdaşlığın qurulması; regional və beynəlxalq tədbirlərdə təsisatın iştirakının təmin olunması.

Təbii ki, bu bölgü şərtidir, hər bir istiqamət üzrə görülmüş işlər müəyyən mənada kəsişir və bir-birini tamamlayırlar.

Göstərilən istiqamətlər üzrə fəaliyyət həmçinin Müvəkkilin müraciət və məlumatları araşdırması sahəsindəki fəaliyyəti ilə də sıx əlaqələndirilmişdir. Belə ki, daxil olmuş müraciət və digər məlumatların bilavasitə yerində və yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması zamanı toplanmış faktlar, əldə olunmuş məlumatlar, habelə şikayətlərin aidiyyət və kəmiyyət göstəriciləri MPM qismində həyata keçirilən başçəkmələr zamanı yönəldici, köməkçi məlumatlar qismində istifadə

olunmuşdur.

MPM qismində həyata keçirilmiş başçəkmələrin, habelə azadlıqdan məhrum edilmiş şəxslərlə və əməkdaşlarla aparılmış söhbətlərin nəticələri akt, protokol və xidməti məlumatlarda təsbit olunmuşdur və hər biri üzrə, xüsusiyyətindən asılı olaraq, müvafiq tədbirlər görülmüşdür. Həmçinin qeyd olunmalıdır ki, Müvəkkilin MPM qismində fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. Belə ki, bu və ya digər yerli, regional və ya beynəlxalq tədbirlərdə edilən məruzələrlə yanaşı, Aparatın İnformasiya və ictimaiyyətlə əlaqələr sektoru tərəfindən Müvəkkilin işgəncələrlə mübarizə üzrə fəaliyyətinə dair 2009-cu ildə azərbaycan, rus və ingilis dillərində 98 rəsmi mətbuat xülasəsi yayımlanmışdır ki, onlardan 42-si başçəkmələr, 46-sı araşdırmalar, 10-u isə maarifləndirmə xarakterli tədbirlərlə əlaqədar olmuşdur. 2010-cu ildə isə başçəkmələrlə əlaqədar 94, araşdırmalarla əlaqədar 29, maarifləndirmə xarakterli tədbirlərlə əlaqədar isə 12 olmaqla, cəmi 135 mətbuat xülasəsi yayımlanmışdır.

Mətbuat xülasələri həmçinin Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

### *3.1. Başçəkmələr*

Azadlıqdan məhrum etmə yerlərinə mütəmadi olaraq plan üzrə və ya təxirə salınmadan, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi Müvəkkilin MPM qismində fəaliyyətinin başlıca istiqamətidir. MPM qismində müəyyən olunduqdan sonra təsisatın həyata keçirdiyi başçəkmələrin kəmiyyət və eləcə də keyfiyyət göstəricisi artırılmış, nəticələr daha dəqiq və ciddi surətdə təsbit olunmuşdur.

Başçəkmələr Müvəkkil və MPM qrupu tərəfindən həyata keçirilmişdir. Bununla yanaşı qeyd olunmalıdır ki, Müvəkkilin regional mərkəzləri də bu işə qatılmışlar.

Müvəkkilin və onun nümayəndələrinin azadlıqdan məhrum etmə yerlərinə maneəsiz baş çəkməsi üçün müvafiq qurumlar tərəfindən daxili əmr və göstərişlər verilmiş, zəruri şərait yaradılmışdır.

MPM qismində başçəkmələrin həyata keçirilməsinə başlamazdan əvvəl,

aidiyyəti qurumlara FP-nin 20-ci maddəsinin “a” bəndinə müvafiq olaraq tabeliklərində olan azadlıqdan məhrum etmə yerləri haqqında müvafiq məlumatların təqdim olunması barədə sorğu göndərilmişdir və bu sorğular cavablandırılmışdır. Təqdim olunmuş məlumatlara əsasən, MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrin siyahısı tərtib olunmuşdur (bax: Əlavə 1). Siyahıya ənənəvi müəssisələrlə yanaşı, həmçinin saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri digər yerlər də – qapalı müəssisələr olan xüsusi tipli internatlar, psixiatriya müəssisələri, uşaq evləri və ahıllar evləri də daxil edilmişdir.

Tərtib olunmuş siyahı üzrə başçəkmələr planı hazırlanmış və bu plan üzrə və plandankənar başçəkmələr həyata keçirilmişdir. Plandankənar başçəkmələr əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM qrupuna bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbətlər zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatlar, habelə daxil olmuş ərizə və şikayətlərin təhlili nəticəsində əldə olunmuş məlumatlara əsasən xüsusi diqqətin artırılması tələbatının təmin edilməsi, habelə Müvəkkilin şəxsi təşəbbüsü ilə əlaqədar olmuşdur.

Plan üzrə həyata keçirilmiş başçəkmələrin hər biri müəssisənin həcmindən, eləcə də orada saxlanılan şəxslərin sayından asılı olaraq 1-3 iş günü ərzində davam etmişdir. Həmçinin qeyd olunmalıdır ki, belə baxışların aparılması üçün başçəkmədən öncə 1-2 iş günü davam edən xüsusi hazırlıq işləri də görülür. Belə ki, başçəkmə həyata keçiriləcək müəssisə haqqında Müvəkkilin ünvanına müxtəlif mənbələrdən daxil olmuş ərizə və şikayətlərin, müraciətlərin, KİV-dən götürülmüş, habelə bu və ya digər QHT-nin təqdim etdiyi və ya yayımladığı məlumatların, eləcə də əvvəlki başçəkmələr zamanı aşkar olunmuş faktların mahiyyəti üzrə təhlil olunması, xüsusi diqqət göstərilməsi məsələlərin dairəsinin müəyyən olunması və suallar siyahısının hazırlanması həyata keçirilir.

2009-cu ildə MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrdə plan üzrə 283, plandankənar isə 133 olmaqla, cəmi 416 başçəkmə həyata keçirilmişdir. Qeyd olunan başçəkmələrdən 294-ü DİN-in tabe

müəssisələrində, 108-i PX-nin tabe müəssisələrində, 2-si MTN İs.T-də, 2-si MN-nin tabe müəssisələrində, 6-sı TN-nin tabe müəssisələrində və 4-ü SN-nin tabe müəssisələrində aparılmışdır.

2010-cu ildə isə, MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrdə plan üzrə 320, plandankənar isə 76 olmaqla, cəmi 396 başçəkmə həyata keçirilmişdir. Həmin başçəkmələrdən 274-ü DİN-in tabe müəssisələrində, 94-ü PX-nin tabe müəssisələrində, 2-si MTN İs.T-də, 3-ü MN-nin tabe müəssisələrində, 4-ü TN-nin tabe müəssisələrində, 11-i SN-nin tabe müəssisələrində və 8-i ƏƏSMN-nin tabe müəssisələrində aparılmışdır.

Bu və ya digər müəssisədə aparılan başçəkmə zamanı saxlanma şəraiti, işçi heyətin rəftarı, tibbi xidmətin vəziyyəti, qida rasionu, qidanın keyfiyyəti, habelə məhkumlara tətbiq olunan islahetmə vasitələri, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmışdır. MPM qismində həyata keçirilən baxışlar zamanı, əvvəlki illərdə olduğu kimi, məhbuslarla qrup şəklində və ya təkbətək çoxsaylı söhbətlər aparılmışdır. Söhbət zamanı başçəkməni aparan şəxslər məhbusun problemi və ya şikayəti ilə tanış olur, onları imkan daxilində yerində həll etməyə cəhd göstərirlər. Bu məqsədlə, həmçinin başçəkmə zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilir, zəruri hallarda isə aidiyyəti nazirliyə müraciət edilir və əksər hallarda bu və ya digər çatışmazlıq aradan qaldırılır.

2009-cu ildə həyata keçirilən başçəkmələr zamanı müvəqqəti saxlama yerlərində 700-dək, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində isə 200-dək saxlanılan şəxs qəbul edilmiş və onlarla təkbətək, fərdi söhbətlər aparılmışdır. Başçəkmələr zamanı həmçinin 127 nəfər əməkdaşla da fərdi söhbət aparılmışdır. 2010-cu ildə isə DİN-in tabe müəssisələrində 670, PX-nin tabe müəssisələrində 430, MTN İs.T-də 14, MN-nin tabe müəssisələrində 12, TN-nin tabe müəssisələrində 40, SN-nin tabe müəssisələrində 35, ƏƏSMN-nin tabe müəssisələrində isə 40 nəfər olmaqla cəmi 1241 nəfər şəxslə təkbətək söhbətlər aparılmışdır. 2010-cu ildə həmçinin 252 əməkdaşla fərdi söhbətlər aparılmışdır.

Qeyd olunmalıdır ki, başçəkmələr zamanı məhbuslar tərəfindən şikayətlər əsasən saxlanma şəraiti və ya rəftarla deyil, istintaqın qeyri-obyektiv

aparılması, əsassız tutulmalar, istintaq zamanı müxtəlif təzyiqlərə məruz qalmalar, həmçinin bu və ya digər məhkəmə qərarının ədalətsiz olması haqqında edilmişdir.

Başçəkmələr zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması, həmçinin saxlanma şəraitinin təkmilləşdirilməsi üçün bu və ya digər müəssisənin rəhbərliyinə, habelə aidiyyəti nazirliyə müvafiq təklif və tövsiyələr verilmişdir və hər bir tövsiyə üzrə nazirliklər tərəfindən uyğun tədbirlər həyata keçirilərək görülmüş işlər barədə məlumat verilmişdir.

Azadlıqdan məhrumetmə yerlərində həyata keçirilən başçəkmələr zamanı aşkar olunmuş digər problemlərlə yanaşı, bütün müəssisələr üçün ümumi olan saxlanılan şəxslər üçün nəzərdə tutulmuş gündəlik ərzaq normasının və buna ayrılmış vəsaitin real tələbata qismən cavab verdiyi müəyyən olunmuşdur. Bu, müvafiq təhlilin həyata keçirilməsini və bütün həmcins müəssisələr üçün ərzaq təminatının unifikasiyasının aparılmasını zəruri etmişdir. Göstərilən məqsədlə saxlanılan şəxslər üçün gündəlik ərzaq normasının və buna ayrılan vəsaitin miqdarı barədə məlumat verilməsi haqda tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlər olan nazirliklərə Müvəkkil tərəfindən müraciət edilmişdir.

### *3.1.1. Daxili İşlər Nazirliyinin müəssisələri*

DİN-in MPM-in yurisdiksiyasının şamil olunduğu 119 müvəqqəti saxlama yeri vardır. Bu yerlərə İnsan Alverinə Qarşı Mübarizə İdarəsi, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Bakı şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlanılma məntəqəsi, Bakı şəhər Baş Polis İdarəsinin Yetkinlik yaşına çatmayanların təcridetmə mərkəzi, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin Araşdırma Mərkəzi, rayon polis idarələri, polis bölmələri və müvəqqəti saxlama təcridxanaları aiddir (bax: Əlavə 1).

Sözü gedən müəssisələrdəki vəziyyət haqqında qeyd olunmalıdır ki, adı çəkilən nazirlik tərəfindən polis orqanlarının müvəqqəti saxlama təcridxanalarının müasir standartlara uyğun yenidən qurulması istiqamətində zəruri tədbirlər görülmüş, müvəqqəti saxlama yerlərində beynəlxalq normalara və standartlara cavab verən şəraitin yaradılması, saxlanılan şəxslərin

hüquqlarının təmin olunması məqsədilə, çoxsaylı MST müasir tələblər səviyyəsində yenidən inşa edilmiş, böyük əksəriyyətində isə əsaslı təmir işləri aparılmışdır. Bakı şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlama məntəqəsi və Yetkinlik yaşına çatmayanların müvəqqəti təcridetmə mərkəzi üçün standartlara cavab verən yeni inzibati bina, eləcə də Xəzər, Qusar, Göygöl və Lerik rayon polis orqanlarında yeni MST-lər tikilərək istifadəyə verilmişdir. Nəsimi, Sabunçu, Abşeron, Samux, Hacıqabul, Quba və Tovuz rayon polis orqanlarında yeni MST-lərin inşası başa çatmaq üzrədir.

Saxlanılan şəxslərin sosial, tibbi və s. zəruri tələbatlarının ödənilməsi baxımından müvəqqəti saxlama təcridxanalarının sanitar qovşaqlarla, dindirmə, görüş, tibb, ibadət və digər köməkçi otaqlarla təchiz olunmasına diqqət yetirilərək müasir normalara uyğun şərait yaradılmışdır.

MST-lərin əksəriyyəti müasir həyəcan və mühafizə siqnalizasiya sistemi ilə təchiz edilmiş, orada xidmətin aparılmasına və saxlanılan şəxslərin davranışlarına nəzarəti gücləndirmək məqsədilə əksər polis orqanlarında video-nəzarət avadanlıqları quraşdırılmışdır və bu proses davam etdirilir. Bütün MST-lərdə yataq ləvazimatları, çarpayılar və mebel təzələnmiş, otaqlar lazımi avadanlıqlarla təchiz olunmuş, saxlanılan şəxslərə tibbi yardım göstərilməsi, yaxınları ilə görüşməsi, habelə onların ibadət etmələri üçün lazımi şəraitin yaradılması, eləcə də vəkillə təmin edilməsi məsələlərinin həlli istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Həmçinin təcridxanalarda təhlükəsizliyin təmini, baş verə biləcək fövqəladə hadisələrin qarşısının alınması, orada xidmət aparan əməkdaşların fəaliyyətinə nəzarəti gücləndirmək məqsədilə şəhər, rayon polis orqanlarının növbətçi hissələrinə video-nəzarət avadanlıqlarının quraşdırılması prosesi də davam etdirilir.

Polisə gətirilmiş və orada saxlanılan şəxslərə, inzibati binalarda yerləşdirilən lövhələr vasitəsi ilə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş hüquq və azadlıqları, beynəlxalq normalar və DİN-in bu sahədə fəaliyyətini tənzimləyən normativ sənədləri əsasında hazırlanmış hüquq və vəzifələri, habelə Müvəkkil təsisatının mahiyyəti və ona müraciət etmə qaydası ilə tanış olmaq imkanı yaradılmışdır.

Artıq qeyd olunduğu kimi, 2009-cu il ərzində DİN-in bütün azadlıqdan məhrum etmə yerlərində MPM tərəfindən 294, 2010-cu ildə isə 274 başçəkmə

həyata keçirilmişdir. Başçəkmələr zamanı toplanmış məlumatlar üzrə aparılmış ümumiləşdirməyə əsasən qeyd etmək olar ki, bu müəssisələrdəki ümumi vəziyyət, saxlama şəraiti, eləcə də məhbuslarla rəftar qənaətbəxş səviyyədə təşkil olunmuşdur və ümumilikdə standartlara cavab verir.

Göstərilənlərlə yanaşı, başçəkmələr zamanı bəzi faktlar da aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Astara RPŞ MST-də həyata keçirilmiş başçəkmə zamanı təcridxanada həkim baxışının nəticələrini əks etdirən aktların mövcud qaydaların tələblərinə uyğun olmadan tərtib olunduğu müəyyən edilmişdir. Bu barədə akt tərtib olunmuş, qüsurların aradan qaldırılması üçün müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

Qobustan RPŞ MST-də həyata keçirilmiş baxış zamanı müəyyən edilmişdir ki, RPŞ-nin inzibati hissəsi və MST müasir standartlara cavab verən, yeni inşa olunmuş binada yerləşir və saxlanılan şəxslər üçün lazımi şərait yaradılmışdır. Lakin göstərilən MST-də saxlanılan şəxslərə ilkin tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulmuş tibb qutusunda ağrıkəsici və digər zəruri tibbi preparatların olmadığı aşkar olunmuşdur. Başçəkmə zamanı həmçinin MST-də işin qurulması üzrə bir sıra nöqsanlara yol verildiyi qeyd olunmuşdur. Belə ki, inzibati qaydada saxlanılan şəxslərin qeydiyyatı MST-də saxlanılan şübhəli və təqsirləndirilən şəxslərin qeydiyyatı və uçotu kitabında aparılır. Baxış zamanı həmin jurnalda saxlanılan şəxslərin qeydiyyatının aparıldığı, lakin onların vəkillə, habelə ailələri ilə görüşmələrinə baxmayaraq bu barədə hər hansı müvafiq qeydin edilmədiyi aşkar olunmuşdur.

Qobustan RPŞ MST-də həmçinin inzibati qaydada həbs edilmiş şəxslərin məcburi əməyə cəlb edilməsi halı aşkar edilmişdir. Belə ki, Qobustan Rayon Məhkəməsinin qərarı ilə İXM-ə müvafiq olaraq 7 sutka inzibati həbs edilmiş Ə.M. ilə aparılan söhbət zamanı o, inzibati qaydada həbs olunmuş qardaşı ilə birlikdə 5 gün ərzində hər gün MST-nin binasından çıxarılaraq RPŞ-nin həyətinin süpürülməsi, ağacların dibinin yumşaldılması və s. kimi müxtəlif təmizlik işlərinin görülməsinə cəlb edildiklərini, bunu könüllü surətdə deyil, şöbə rəisinin göstərişi ilə icra etdiklərini bildirmişdir. Göstərilən faktlar polis əməkdaşları ilə aparılan söhbət zamanı MST-nin rəisi və eləcə də RPŞ-nin Cinayət-axtarış bölməsinin rəisi tərəfindən təsdiq olunmaqla yanaşı, saxlanılan

şəxslərin MST-nin hüdudlarından kənara çıxarılması və məcburi əməyə cəlb olunmasının normal hal olduğu və qanunvericiliklə ziddiyyət təşkil etmədiyi bildirilmişdir.

Analoji hal Qəbələ RPŞ MST-də həyata keçirilən başçəkmə zamanı da qeydə alınmışdır. Belə ki, adı çəkilən MST-də saxlanılan, inzibati qaydada həbs olunmuş G.B. söhbət zamanı müəssisədə saxlanıldığı müddət ərzində 2 dəfə RPŞ-nin həyətində 1-2 saat müddətinə məcburi əməyə cəlb edildiyini – həyəti süpürdüyünü və zibil daşıdığını bildirmişdir. Bu barədə MST-nin məsul növbətçisinin iştirakı ilə müvafiq akt tərtib olunmuşdur.

Başçəkmələr zamanı diqqət çəkən digər məqam isə İsmayıllı RPŞ MST-dəki vəziyyətin qeyri-qənaətbəxşliyi olmuşdur. Belə ki, göstərilən müəssisədə aparılan başçəkmə zamanı müəyyən edilmişdir ki, havanın soyuq olmasına baxmayaraq təcridxananın kameraları isidilmir. Mövcud olan təbii qaz sobası dəhlizdə qurulmuşdur ki, bu da yalnız onun yaxınlığında yerləşən 2 kameranın isidilməsinə imkan verir. Araşdırma zamanı həmçinin aşkar olunmuşdur ki, təcridxananın kameraları, mətbəxi və istintaq otağı antisanitar vəziyyətdədir. Bir neçə kamerada saxlanılan şəxslərin qida qəbul etməsi üçün masa və oturacaqlar mövcud deyil, həmçinin elektrik lampaları işlək vəziyyətdə deyil. Kameralardakı sanitar qovşaqları qeyri-kafi vəziyyətdədir. Kameralardakı tualetin, eləcə də su kranının vəziyyətini də məqbul hesab etmək olmaz. Həddindən artıq alçaqda yerləşdirilmiş krandan istifadə etmək, demək olar ki, qeyri-mümkündür. Baxış zamanı həmçinin MST-nin hamamına su gəlməməsi və s. bu kimi neqativ hallar aşkar edilmişdir.

Yuxarıda göstərilən hallarla əlaqədar DİN-ə müraciət olunmuşdur.

DİN-in tabeliyində olan müəssisələrdə qeydə alınmış digər faktlar kimi, yeni istifadəyə verilmiş Xəzər RPİ MST-də bütün kameraların 4 nəfər şəxsin saxlanılması üçün nəzərdə tutulmasına baxmayaraq, həmin kameralarda yalnız 2 oturacağın olmasını; Nəsimi RPİ MST-də əksər kameraların təbii işıqlanmasının zəif olmasını, suyun gündə iki dəfə olmaqla səhər və axşam vaxtlarında verilməsini, 2010-cu ilin 10 ayı ərzində inzibati qaydada həbs olunan 11 nəfərin Bakı şəhər Baş Polis İdarəsinin rəis müavininin məktubu əsasında orada saxlanılmasını, MST-də qadın əməkdaşın olmaması səbəbindən 2010-cu il ərzində orada saxlanılan 11 nəfər qadının MST-yə qəbul edilərkən

üzərində axtarışın yalnız vizual baxış və sorğu-sual əsasında həyata keçirilməsini; İmişli RPŞ MST-nin inzibati qaydada həbs olunanlar üçün nəzərdə tutulmuş 5 nəfərlik kamerasında sanitar qovşağın (tualet və su kranı) olmadığını; Gədəbəy, Yardımlı və İsmayıllı RPŞ-lərin MST-lərinin əsaslı təmir olunmasına və ya yeni binaların tikilməsinə ehtiyac olduğunu; Xaçmaz, Qax, Goranboy, Beyləqan, Saatlı, Biləsuvar və Cəlilabad RPŞ-lərin MST-lərində antisanitar şəraitin olduğunu, Şirvan ŞPŞ-nin və Zərdab RPŞ-nin MST-lərində döşəklərin yararsız halda olduğunu; Şirvan ŞPŞ MST-nin 28 nəfər şəxs üçün nəzərdə tutulmasına baxmayaraq, başçəkmə günündə orada 29 nəfərin saxlanıldığının aşkar olunduğunu; Şirvan ŞPŞ və İmişli RPŞ MST-lərdə saxlanılan şəxslərin saxlanmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olarkən orada saxlanılan şəxslərin heç birinin barələrində tərtib olunmuş "şübhəli şəxsin tutulması haqqında protokol"ların DİN-in müvafiq əmrinin tələblərinə uyğun olaraq gerbli möhürlə təsdiqlənmədiyini; analoji halın Qax və Balakən RPŞ MST-də də qeydə alındığını; habelə Sumqayıt ŞPİ MST-nin kameralarının əksəriyyətində pəncərələrin ölçüsü kiçik olduğundan təbii işıqlanmanın zəif təşkilini, MST-nin mövcud standartların tələblərinə cavab vermədiyini və inzibati binanın əsaslı təmirə ehtiyacı olduğunu, eləcə də saxlanılan şəxslərin sənədlərinə baxış keçirilərkən şübhəli və təqsirləndirilən şəxslərin tutma protokolları müvafiq gerbli möhürlə deyil, "arayışlar üçün" yazısı olan dairəvi möhürlə təsdiq olunduğunu göstərmək olar.

Sumqayıt ŞPİ MST-də saxlanılan şəxslərlə aparılan söhbət zamanı həmçinin müəyyən edilmişdir ki, onlardan biri MST-yə qəbul edilərkən həkim müayinəsindən keçirilməmişdir. MPM qrupu tərəfindən həmin şəxsin sənədləri ilə tanışlıq zamanı onun həkim müayinəsindən keçməsi və sağlam olması barədə arayış tərtib edildiyi aşkar olunmuşdur. Sözü gedən saxlanılan şəxs epilepsiya xəstəsi olduğunu və eyni zamanda böyrəklərindəki ağrılardan əziyyət çəkdiyini, lakin MST-də növbədə olan əməkdaşlardan ağrıkəsici dərman istəməsinə baxmayaraq ona dərman verilmədiyini bildirmişdir.

Başçəkmələr zamanı Cəlilabad RPŞ MST-də həmçinin aşkar olunmuşdur ki, boş kameraların olmasına baxmayaraq, eyni kamerada dörd nəfər inzibati qaydada saxlanılan şəxs, eyni münaqişə ilə bağlı iki nəfər və aqressiv münasibətdə olan ata və oğul saxlanılır. Müvəkkilin müdaxiləsindən sonra ata

və inzibati qaydada saxlanılan digər bir şəxs başqa boş kameraya köçürülmüşdür.

Bundan başqa, qeyd etmək olar ki, Tovuz və İmişli RPŞ-nin MST-lərində şübhəli şəxs, təqsirləndirilən şəxs və ya inzibati qaydada saxlanılan şəxs qismində gətirilən şəxslər bəzən həkim müayinəsindən keçirilmirlər ki, bu da son nəticədə onların polis şöbələrində işgəncə və ya zorakılığa məruz qalmaları barədə etdikləri əsaslı və ya əsassız şikayətlərin araşdırılmasını çətinləşdirir.

MPM qismində həyata keçirilən başçəkmələr zamanı həmçinin aşkar edilmişdir ki, bəzi hallarda MST-lərdə təhlükəsizlik qaydalarına riayət edilmir. Belə ki, kameralarda saxlanılan şəxslər oradan çıxarılarkən digər qapıların bağlanmaması kimi hallar Ağsu və Ucar RPŞ-lərin MST-lərində müşahidə edilmişdir ki, bu da xoşagəlməz nəticələrə səbəb ola bilər.

Bəzi MST-lərdə qeydə alınmış sıxlıqla bağlı aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, regionlarda fəaliyyət göstərən yeni apellyasiya məhkəmələrinin yerləşdiyi rayonların polis şöbələrinin MST-lərində saxlanılanların sayının çox olması səbəbindən sıxlıq yaranır və nəzərdə tutulmuş limit həddi bir neçə gün ərzində keçilir. Qeyd edilməlidir ki, bu sıxlıq nəticəsində qanunvericiliyə müvafiq olaraq müəyyən qrup şəxslərin bir-birindən təcrid edilməsi mümkün olmur. Hesab edirik ki, apellyasiya məhkəmələrinin, eləcə də növbəti ildən ağır cinayətlər məhkəmələrinin və inzibati-iqtisadi məhkəmələrin yerləşəcəkləri rayonlardakı (şəhərlərdəki) polis şöbələrinin MST-lərində yarana biləcək sıxlığın qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi zəruridir. Göstərilənlər barədə Müvəkkil tərəfindən DİN-ə müraciət olunmuşdur.

Daxil olmuş cavab məktublarında bildirilmişdir ki, cinayət törətməkdə şübhəli olan şəxslərin tutulması haqqında protokolların gerbli möhürlə təsdiq edilməsinə nəzarətin gücləndirilməsi, keçirilmiş başçəkmələr zamanı müəyyən olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması, eləcə də bu sahəyə cavabdeh əməkdaşlar barəsində intizam tənbehinin görülməsi aidiyyəti polis orqanlarının rəhbərlərindən tələb olunmuş, həmçinin Xaçmaz RPŞ rəhbərliyindən MST-nin kameralarında sanitariya şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsi tələb olunmuş, habelə Sumqayıt və Nəsimi

şəhər, rayon polis orqanlarının bir qrup əməkdaşı intizam məsuliyyətinə cəlb edilmiş, eləcə də Qax RPŞ-nin müstəntiqi, MST-nin rəisi, o cümlədən Balakən RPŞ-nin müstəntiqi və MST-nin rəisinə töhmət elan olunmuş, habelə tabelikdəkilərin xidməti fəaliyyətinə nəzarət və tələbkarlığın artırılması Qax və Balakən RPŞ rəislərindən tələb edilmişdir.

Daxil olmuş cavab məktublarında həmçinin bildirilmişdir ki, daxili işlər orqanlarının insan hüquqları sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, onun müvafiq beynəlxalq standartlara, BMT-nin İşgəncələrə Qarşı Komitəsinin tövsiyələrinə uyğunlaşdırılması istiqamətində lazımi addımlar atılmış, polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquqlarına ciddi riayət edilməsi məqsədilə yerlərə əlavə konkret tapşırıqlar verilmişdir.

DİN-dən verilən məlumata görə, işgəncə hallarının qarşısının alınması baxımından müvəqqəti saxlama yerinə gətirilmiş bütün şəxslər kameraya yerləşdirilməzdən əvvəl həkim müayinəsindən keçirilərək bu barədə müvafiq jurnalda qeydiyyat aparılır, sonradan həmin jurnal nəzarətedici prokuror tərəfindən mütəmadi olaraq yoxlanılır. Bundan başqa, DİN-in regionlarda xidməti ezamiyyətdə olan əməkdaşları tərəfindən ərazi polis orqanlarına gətirilən tutulan və MST-lərdə saxlanılan şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilir, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görülür. Qanun pozuntuları aşkar edildikdə zərərçəkmişin müraciət edib-etməməsindən asılı olmayaraq obyektiv daxili təhqiqatın aparılması təmin edilir.

MPM qrupu tərəfindən həyata keçirilən başçəkmələr zamanı bəzi saxlanılan şəxslər saxlanılarkən və ya istintaqla əlaqədar zorakılığa məruz qaldıqlarını bildirmişlər. Belə ki, İmişli RPŞ MST-də həyata keçirilən başçəkmə zamanı orada saxlanılan T.N., X.İ. və Ə.X. törətdikləri cinayətdən başqa digər cinayəti də etiraf etmələrinə nail olmaq məqsədi ilə İmişli RPŞ-nin əməkdaşları tərəfindən işgəncələrə məruz qaldıqlarını bildirmişlər. Məsələ ilə əlaqədar DİN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda məsələnin araşdırılması nəticəsində göstərilən təqsirləndirilən şəxslərə qarşı polis əməkdaşları tərəfindən hər hansı qanunsuz hərəkətə yol verilməsi xüsusatının öz təsdiqini tapmadığı bildirilmişdir.

Analoji müraciət Nərimanov RPİ MST-də ATƏT DTİHB-nin ekspertinin

iştirakı ilə həyata keçirilən başçəkmə zamanı qeydə alınmışdır. Saxlanılan şəxs S.A. ondan etirafedici ifadələrin alınması məqsədilə döyüldüyünü bildirmişdir. Başçəkmədə iştirak edən Müvəkkil məsələ ilə əlaqədar, yerindəcə Konstitusiya Qanununa müvafiq olaraq Nərimanov RPİ-nin rəisinə araşdırma tapşırığı vermişdir. Bundan başqa, məsələnin araşdırılması həmçinin Aparatın əməkdaşına da tapşırılmışdır. Qeyd olunan xüsusat aparılan araşdırmalar zamanı öz təsdiqini tapmamışdır.

Yasamal RPİ MST-də saxlanılan A.H. ilə söhbət zamanı o, Qaradağ RPİ-nin əməkdaşları tərəfindən tutularaq polis idarəsinə aparıldığını, narkotik vasitəni əldə etdiyi mənbənin yerinin müəyyənləşdirilməsi məqsədi ilə ondan məlumat alınması üçün əməkdaşlardan birinin xidməti otağında digər 3 polis əməkdaşı tərəfindən bədəninin müxtəlif yerlərinə rezin dəyənəklə vurulduğunu bildirmişdir. Məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğuna və DİN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktublarında qeyd olunmuşdur ki, məsələ üzrə aparılan araşdırma zamanı A.H.-nin döyülməsi xüsusatı öz təsdiqini tapmamışdır. Belə ki, təyin olunmuş məhkəmə-tibb ekspertizasının rəyinə əsasən, A.H.-nın bədəni üzərində hər hansı bir xəsarət aşkar olunmamışdır. Lakin, DİN-də aparılmış xidməti təhqiqatla müəyyən edilmişdir ki, Qaradağ RPİ-nin narkotiklərlə mübarizə qrupunun baş əməliyyat müvəkkili A.H.-nın qanuni əsaslarla polisdə saxlanılmasını təmin etməyərək onu həmin qrupun digər iki əməliyyat müvəkkili ilə birgə uzun müddət xidməti otaqda saxlayaraq ona qarşı kobudluğa yol verdikdən sonra toplanmış materiallarla birlikdə istintaqa təhvil vermişdir. Bu səbəbdən, A.H.-nın fiziki zorakılığa məruz qalması barədə göstərilən xüsusatlar təsdiqlənməsə də, onun qanunvericiliklə müəyyən edilmiş əsaslarla saxlanılmasını təmin etmədiklərinə və ona qarşı kobudluğa yol verdiklərinə görə Qaradağ RPİ-nin narkotiklərlə mübarizə qrupunun baş əməliyyat müvəkkili və həmin qrupun digər iki əməliyyat müvəkkili DİN-in müvafiq əmri ilə tutduqları vəzifədən azad edilmiş, digər baş əməliyyat müvəkkili və əməliyyat müvəkkili, eləcə də Qaradağ RPİ-nin rəisi intizam məsuliyyətinə cəlb edilmişlər.

Yuxarıda göstərilənlərə əlavə olaraq, həmçinin qeyd oluna bilər ki, Xətai RPİ MST-də aparılan başçəkmə zamanı saxlanılan şəxs M.A. tutularkən

Səbayel RPİ-nin 9-cu polis bölməsinin əməliyyatçısı tərəfindən zorakılığa məruz qaldığını bildirmişdir. Məsələ ilə əlaqədar DİN-ə müraciət olunmuşdur.

MPM qrupu DİN-in müvafiq tabe müəssisələrində həyata keçirdiyi başçəkmələr çərçivəsində həmçinin saxlanılan şəxslərin qida təminatı məsələsini də araşdırmışdır. Xaçmaz RPŞ MST-də həyata keçirilən baxış zamanı saxlanılan şəxslərlə aparılan söhbət zamanı təqsirləndirilən şəxs kimi saxlanılan N.Ə., A.A. və P.S. saxlanma şəraitindən narazı olmadıqlarını bildirsələr də, orada saxlanıldıqları müddətdə gündə bir dəfə yeməklə təmin olunduqlarını qeyd etmişlər. Həmin vaxt MPM qrupunun üzvlərini müşayiət edən Xaçmaz RPŞ MST-nin rəisi və həmin polis şöbəsinin rəis müavini də bu faktı təsdiq etmiş və MST-də saxlanılan şəxslərə gündə bir dəfə qida verilməsinin mövcud təlimatla və xüsusi əmrlə tənzimləndiyini bildirmişlər. Qrup üzvləri həmin sənədlərlə tanış olmaq istəsələr də belə sənədlər təqdim edilməmişdir. Məsələ ilə əlaqədar Müvəkkil tərəfindən DİN-ə ünvanlanmış müraciətə verilmiş cavab məktubunda Respublikanın polis orqanlarının MST-lərində saxlanılan şəxslərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2001-ci il tarixli "Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə" 154 saylı Qərarına uyğun olaraq DİN-in smetası üzrə ayrılmış maliyyə vəsaiti hesabına gündə 3 dəfə yeməklə təmin edildikləri bildirilmişdir. Cavab məktubunda Xaçmaz RPŞ-nin rəhbərliyindən saxlanılan şəxslərin gündəlik yeməklə təmini işinə nəzarətin artırılmasının tələb edildiyi göstərilməklə yanaşı, həmçinin N.Ə., A.A. və P.S.-in də Xaçmaz RPŞ MST-də saxlanıldıqları müddətdə yeməklə təmin olunmalarından razı qaldıqları və onlara gündə 3 dəfə yemək verildiyi qeyd edilmişdir. MPM Qrupunun üzvləri PX 3 saylı İs.T-də olarkən həmin məsələni bir daha dəqiqləşdirmək üçün orada saxlanılan N.Ə. və P.S.-lə görüşmüşlər. Söhbət zamanı həmin şəxslər MPM Qrupunun üzvləri tərəfindən Xaçmaz RPŞ MST-də qəbul edildikdən sonra əvvəlki günlərdən fərqli olaraq gündə 3 dəfə yeməklə təmin olunduqlarını və bundan bir neçə gün sonra DİN-in MST-yə gəlmiş əməkdaşlarına qeyd edilənlər barədə məlumat verdiklərini bildirmişlər. Daha sonra MPM Qrupunun üzvləri Sumqayıt ŞPİ MST-də (28 nəfər), Nəsimi RPİ MST-də (2 nəfər) saxlanılan şəxslərlə söhbət apararkən, onlar qeyd edilən MST-lərdə saxlanıldıqları müddətdə gündə bir dəfə yeməklə təmin

olunduqlarını bildirmişlər. Sumqayıt ŞPİ MST rəisi və Nəsimi RPİ MST-nin rəisi vəzifəsini müvəqqəti icra edən şəxs də MST-də saxlanılan şəxslərə gündə bir dəfə qida verilməsi faktını təsdiq etməklə, bunun mövcud normativ aktlara uyğun olduğunu bildirərək, bu haqda tərtib edilmiş aktları imzalamışlar.

Göstərilənlərə əlaqədar DİN-ə təkrarən müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda Sumqayıt və Nəsimi şəhər, rayon polis orqanlarının bir qrup əməkdaşının intizam məsuliyyətinə cəlb edildiyi bildirilmişdir.

Qeyd olunanlarla yanaşı, həmçinin təəssüf doğurucu haldır ki, DİN-in əməkdaşları tərəfindən saxlanılan şəxslərin ərzaq təminatı ilə əlaqədar Sumqayıt ŞPİ MST-də yoxlama aparıldıqdan sonra şübhəli və təqsirləndirilən şəxslərin yaxınları və ziyarətçiləri tərəfindən onlara göndərilən və ya gətirilən sovqatların verilməsi, MST rəisinin bildirdiyinə görə, yoxlama qrupu tərəfindən qadağan edilmişdir. Məsələ ilə əlaqədar Müvəkkil tərəfindən DİN-ə müraciət olunmuşdur.

DİN-in müvafiq tabe müəssisələrində həyata keçirilən başçəkmələrdən danışdıqda xüsusi qeyd etmək alzımdır ki, Saatlı RPŞ MST-də aparılan başçəkmə zamanı şöbənin rəisi Ağali Xəlilov MPM Qrupunun xidməti fəaliyyətinə müdaxilə edərək maneəçilik törətmişdir. Belə ki, Aparatın əməkdaşları Saatlı RPŞ-nin inzibati binasına daxil olaraq orada yerləşən növbətçi hissənin məsul növbətçisinə xidməti vəsiqələrini təqdim etdikdən sonra MST-yə baxış keçirəcəklərini bildirmiş və həmin növbətçinin müşayiəti ilə MST-yə daxil olmuşlar. MST-nin növbətçisi təcridxanada 5 nəfər şəxsin saxlanılması və növbə çəkdiyi müddət ərzində hər hansı bir pozuntunun baş verməməsi barədə məsul növbətçiyə məruzə etmişdir. Daha sonra MST-nin kameralarına baxışa başlanılmış və 2 kameranın vəziyyəti yoxlanılaraq fotoşəkili çəkilmişdir. Baxış keçirilən kameraların mövcud standartlara cavab vermədiyi, hər iki kamerada sanitar qovşağının (tualet və su kranı), stol və stulun olmadığı, çarpayıların üstünün bütöv dəmirdən olduğu və kameraların divarlarının nahamar olduğu aşkar edilmişdir. Başçəkmə qrupu növbəti kameraya baxış keçirmək istəyərkən, Saatlı RPŞ-nin rəisi Ağali Xəlilov MST-yə daxil olmuş və kobud tərzdə MST-nin əməkdaşına açdığı kameranın qapısının bağlanması barədə göstəriş vermişdir. Ağali Xəlilov başçəkmə qrupuna şöbəyə daxil olan zaman qeydiyyatdan keçməli olduqlarını və bunu

etmədiklərinə görə MST-ni tərk etməli olduqlarını bildirmişdir. Aparatın əməkdaşları inzibati binaya daxil olarkən xidməti vəsiqələrini təqdim etdiklərinə görə MST-yə buraxıldıqlarını və yalnız başçəkmə qurtardıqdan sonra MST-də yoxlama aparan şəxslərin qeydləri kitabında qeydlər aparacaqlarını şöbə rəisinə bildirmişlər. Eyni zamanda Ağali Xəlilova milli qanunvericiliyin tələbləri ilə, yanaşı FP-nin müvafiq müddəaları barədə də məlumat verilmişdir. Lakin buna baxmayaraq şöbə rəisi Ağali Xəlilov israrla onların MST-ni tərk etmələrini tələb edərək xidməti fəaliyyətlərini həyata keçirməyə imkan verməmişdir. Bu hadisə MST əməkdaşlarının və orada saxlanılan şəxslərin qarşısında baş vermişdir.

Hesab edirik ki, bu cür hərəkət, FP və qanunvericiliyin kobud pozuntusu olmaqla yanaşı, Müvəkkil təsisatı ilə DİN arasında uzun müddət ərzində formalaşmış qarşılıqlı, sıx əməkdaşlığa kölgə salır. Məsələ ilə əlaqədar müvafiq pozuntuların aradan qaldırılması, həmçinin yerlərdə Konstitusiya Qanununun, eləcə də FP-nin tələblərinin öyrənilməsinin təşkili barədə Müvəkkil tərəfindən DİN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda DİN-in rəhbərliyi tərəfindən aidiyyəti polis qurumlarından FP-nin şəxsi heyət tərəfindən öyrənilməsinin tələb edildiyi, həmçinin Ağali Xəlilovun ciddi xəbərdar olunduğu qeyd edilmişdir.

DİN-in müvafiq tabe müəssisələrində həyata keçirilən başçəkmələr zamanı həmçinin müəyyən edilmişdir ki, MST-də saxlanılan şəxslər üçün müvafiq şərait yaradılmasına baxmayaraq, orada xidmət aparan əməkdaşların iş şəraiti qənaətbəxş hesab oluna bilməz. Belə ki, kameraların döşəməsi taxtadan olduğu halda, əməkdaşlar üçün nəzərdə tutulmuş otaqların və xidmət apardıqları dəhlizlərin döşəməsi betondandır ki, bu da onların səhhətinə mənfi təsir göstərir.

### *3.1.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri*

PX-nin MPM-in yurisdiksiyasının şamil olunduğu 50 müəssisəsi vardır. Bu müəssisələrə Həbsxana, İMM, MM, Tərbiyə müəssisəsi, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, məntəqə tipli cəzaçəkmə müəssisələri və xüsusi müəssisələr aiddir (bax: Əlavə 1).

Sözü gedən müəssisələrdəki vəziyyətin təkmilləşdirilməsi ilə əlaqədar PX

tərəfindən çoxsaylı tədbirlər görülmüşdür. Bu ilk növbədə cəzaların icrası və çəkilməsi qaydalarının humanistləşdirilməsi ilə bağlı “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 24 iyun 2008-ci il tarixli Qanununun tələblərindən irəli gəlmişdir. Belə ki, məhkumlara verilən telefon danışıqlarının müddəti 10 dəqiqədən 15 dəqiqəyə, sayı isə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər üçün ildə 12 dəfədən həftədə 1 dəfəyə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər üçün isə ildə 6 dəfədən ayda 2 dəfəyədək artırılmışdır. Bununla əlaqədar qarşıya çıxmış məsələlərin həlli məqsədilə 1, 6, 7, 10, 11, 14, 15 və 16 saylı CÇM-lərdə əlavə olaraq bir şəhərdaxili telefon nömrəsi məhkumların istifadəsinə verilmişdir. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin ayda iki dəfə telefonla danışmaq, il ərzində qısa müddətli 6 və uzun müddətli 2 görüş, il ərzində 8 bağlama, sovqat və banderol almaq hüququ təmin edilmişdir.

Yeni qanunvericiliklə televiziya verilişlərinə baxmaq imkanı verilmiş məhkumların hüquqlarının təmin edilməsi məqsədilə İMM-in ömürlük azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müvafiq palatalarında 8, MM-də 1, 8 saylı CÇM-in kamera tipli otaqlarında 13, Həbsxananın kameralarında isə 148, ümumən 170 ədəd televizor quraşdırılaraq məhkumların istifadəsinə verilmişdir. Eyni zamanda, məhkumlara televiziya kanallarını özləri dəyişmək imkanı verilməklə, gün ərzində teleproqramlara baxışın müddəti 2 saatdan 4 saatadək artırılmışdır.

Tənbeh tədbirlərinin tətbiqi haqqında qərarlara dair məhkumların öz rəyini bildirmək və ya onlardan şikayət etmək hüququnun təmin olunması üçün cəzaçəkmə müəssisəsinin rəisi və ya onu əvəz edən şəxs belə qərarlar qəbul etdikdə, məhkumlara bu qərarlar barədə rəy bildirmək və ya şikayət vermək hüququ izah olunmaqla, qərarda bunun üçün xüsusi ayrılmış yerdə imza etdirilir. Məhkum imza etməkdən imtina etdiyi halda, müvafiq akt tərtib olunaraq məhkumun şəxsi işinə əlavə edilir.

Bütün CÇM-lərdə psixoloq ştatları nəzərdə tutulsa da, 4 və 8 saylı CÇM, Həbsxana, Tərbiyə müəssisəsi, Bakı İs.T və İMM istisna olmaqla, digər

müəssisələrdə bu ştatlar vakantdır. Psixoloq ştatı vakant olan müəssisələrdə məhkumlara psixoloji yardım PX-nin Baş idarənin Tərbiyə işinin təşkili idarəsinin psixoloqlar qrupunun əməkdaşları tərəfindən göstərilir.

Məhkumların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkməsi və onların saxlanma şəraitinin müasir, beynəlxalq standartlara uyğunlaşdırılması işi diqqət mərkəzində saxlanılmışdır. Bakı şəhəri Zabrat qəsəbəsində yeni İs.T-in birinci növbəsi istifadəyə verilmiş, həddindən artıq sıxlıq müşahidə olunan 1 saylı İs.T-də ağır şəraitdə saxlanılan şəxslər oraya köçürülmüşdür. Hazırda təcridxananın ikinci mərhələ üzrə obyektlərinin inşası ilə bağlı işlər davam etdirilir.

Zabrat qəsəbəsində inşa olunacaq qadın məhkumlar üçün nəzərdə tutulmuş CÇM-in və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş tərbiyə müəssisəsinin ərazisinin geoloji işləri başa çatdırılmış, mühafizə hasarının layihə-smeta sənədləri hazırlanmış və tikinti işləri aparılır.

Bakı şəhəri Umbakı qəsəbəsində yeni həbsxananın bir sıra obyektlərinin tikintisinə başlanılmış və zəruri obyektlərinin tikintisi üzrə işlər davam etdirilir.

2009-cu ildən həmçinin Şəki və Lənkəran şəhərlərində inşa edilən qarışıq rejimli CÇM-lər komplekslərinin ikinci mərhələsi üzrə tikinti işləri davam etdirilir.

Gəncə şəhərində inşa olunan qarışıq rejimli CÇM-in tikintisinin layihə-smeta sənədləri hazırlanaraq ekspertizadan keçirilmiş və qiymətləndirilmişdir. Hazırda müəssisədə bir sıra obyektlərin tikintisi işləri aparılır.

Kürdəmir rayonunda inşası planlaşdırılan qarışıq rejimli CÇM-in tikintisi üçün texniki şərtlər alınmış, layihə-smeta sənədlərinin hazırlanması üçün aidiyyəti qurumlara təqdim olunmuşdur.

Məhkumların saxlanılma şəraitinin daha da yaxşılaşdırılması məqsədilə, CÇM-lərin əksəriyyətində kommunal-məişət obyektlərinin cari təmiri işləri aparılmışdır. 1, 8 və 12 saylı CÇM-lərdə məhkum yeməkxanaları, 11 saylı CÇM-də məhkum yataqxanası, 12 və 13 saylı CÇM-lərdə cərimə təcridxanaları və karantin otaqları təmir edilmiş, 2, 5, 7, 10, 11, 13, 15 və 17 saylı CÇM-lərdə yataqxanaların dam örtüyü dəyişdirilmişdir. İMM-də yeni korpusun daxili su və kanalizasiya xətləri çəkilmiş, 2, 9 və 17 saylı CÇM-lərdə

bu xətlərin dəyişdirilməsi işləri başa çatdırılmışdır.

8, 12, 13 və 14 saylı CÇM-lərin xarici qaz xətlərinin dəyişdirilməsi işlərinə başlanılmışdır. Həbsxananın qaz xəttinin istismara yararsız 500 m uzunluğunda olan hissəsinin dəyişdirilməsi, Tərbiyə müəssisəsinin istilik xəttinin yenidən çəkilməsi üçün borular alınaraq müəssisəyə verilmişdir.

2 saylı İs.T-də I rejim korpusunda cari, IV rejim korpusunda isə əsaslı təmir işləri başa çatdırılmışdır. Tərbiyə müəssisəsində məktəb binası tam təmir edilərək istifadəyə verilmişdir.

Artıq qeyd olunduğu kimi, MPM tərəfindən PX-nin bütün azadlıqdan məhrum etmə yerlərində 2009-cu il ərzində 108, 2010-cu ildə isə 94 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı toplanmış məlumatlar üzrə aparılmış ümumiləşdirməyə əsasən qeyd etmək olar ki, bu müəssisələrdəki ümumi vəziyyət, saxlama şəraiti, eləcə də məhbuslarla rəftar qənaətbəxş səviyyədə təşkil olunmuşdur və ümumilikdə standartlara cavab verir.

Başçəkmələr zamanı bəzi faktlar aşkar edilmiş, müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə PX-nin müəssisələrində məhbusların saxlanma şəraiti ilə bağlı Müvəkkil tərəfindən ƏN-nin müvafiq qurumlarına çoxsaylı müraciətlər edilmiş və bu müraciətlər əksər hallarda öz müsbət həllini tapmışdır.

İlk növbədə qeyd olunmalıdır ki, PX-nin Bakı şəhərində yerləşən 3 saylı İs.T-də müşahidə olunan saxlanılan şəxslərin sıxlığı və kameralara normadan artıq yerləşdirilmələri narahatlıq doğurur. PX-dən daxil olmuş məlumata əsasən, Bakı İs.T-in yeni korpuslarının yaxın zamanda istifadəyə verilməsi ilə bu problem aradan qaldırılacaqdır. Hesab edirik ki, inşa inşlərinin sürətləndirilməsi zəruridir.

Başçəkmələr zamanı həmçinin Həbsxanada da sıxlıq və ömürlük azadlıqdan məhrum edilmiş şəxslər saxlanılan bəzi kameraların mövcud standartların tələblərinə cavab vermədiyi, eləcə də birnəfərlik kameralardan zərurət olmadan istifadə edildiyi aşkar olunmuşdur. Bu barədə Müvəkkil tərəfindən PX-yə müraciət olunmuş və nəticədə həmin kameraların təbii işıqlandırması və havalandırılmasının normalara uyğunlaşdırılması məqsədilə pəncərələrin böyüdülməsi üçün qüsur aktı tərtib edilmiş və təmir işlərinə başlanılmışdır. İnşa olunan yeni həbsxananın istifadəyə verilməsi isə

göstərilən problemlərin tamamilə aradan qaldırılmasına imkan verəcək.

Həbsxanada həyata keçirilən başçəkmə zamanı söhbət aparılan məhkumlar müxtəlif xarakterli müraciətlər etmişlər. Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş Ş.R. söhbət zamanı saxlanma şəraitindən narazılığını ifadə etmiş, məhkumlara verilən çörəyin keyfiyyətsiz olduğunu söyləmişdir. Başçəkməni həyata keçirən MPM qrupu üzvləri qeyd olunmuş xüsusatı dərhal araşdırmış, Həbsxananın müvafiq hissələrinə baxış keçirmiş, məhkumlara verilən çörəyin çatdırılması qaydası ilə maraqlanmış, keyfiyyəti ilə yerindəcə tanış olmuş, habelə Həbsxanada saxlanılan digər məhkumlarla, eləcə də əməkdaşlarla söhbət aparmış, həmçinin başqa məhkumların kameralarında mövcud olan çörəklərə baxmışlar. Aparılan araşdırma zamanı məhkumlara verilən çörəyin keyfiyyətinin qənaətbəxş olduğu Ş.R.-nın şikayətinin əsassız olduğu və mövcud faktlarla təsdiqlənmədiyi müəyyən edilmişdir.

Həbsxanada cəza çəkən digər məhkum R.M. isə, başçəkmə zamanı xarici dil öyrənməsi üçün ona audiokasetli maqnitofon verilməsinə köməklik göstərilməsini xahiş etmişdir. Məhkuma göstərilən cihazın Həbsxanaya gətirilməsinə mövcud qanunvericiliyin tələblərinə əsasən icazə verilmədiyi izah olunmuşdur.

Həbsxanada həyata keçirilən başçəkmə zamanı bir neçə məhkum həmçinin televiziya verilişlərini izləmək üçün icazə verilən gündəlik 4 saat vaxtın daha da artırılmasını xahiş etmişdir. Bu barədə Müvəkkilin müvafiq qurumlara artıq müraciət etdiyi ərizəçilərin diqqətinə çatdırılmışdır.

Müvəkkilin ünvanına müxtəlif mənbələrdən daxil olmuş ərizə və şikayətlərin, müraciətlərin, bəzi QHT-lərin yayımladığı məlumatların təhlili nəticəsində, eləcə də əvvəlki baxışlar zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin araşdırılması məqsədilə PX-nin Həbsxanasında növbəti dəfə uzunmüddətli başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı əvvəlki başçəkmələr ilə müqayisədə müəyyən müsbət dəyişikliklərin müşahidə edilməsi ilə yanaşı, bir sıra pozuntular və çatışmazlıqlar da qeydə alınmışdır. Belə ki, söhbət zamanı məhkumların bəziləri müəssisə rəisi və əməkdaşları tərəfindən işgəncə və qeyri insani rəftara məruz qaldıqlarını, eləcə də müxtəlif ünvanlara yazdıqları müraciətlərin

göndərilmədiyini bildirmişlər. Başçəkmə zamanı həmçinin aşkar edilmişdir ki, Həbsxananın kameralarının ümumi ventilyasiyası yoxdur və havaların isti keçdiyi günlərdə bu olduqca əlverişsizdir. Həbsxanada aşkar olunmuş digər bir qüsur kimi, ərzağın saxlanıldığı yerin bu məqsəd üçün yararlı olmadığını göstərmək olar. Eləcə də bəzi hallarda çörəyin keyfiyyətinin yaxşı olmaması narahatlıq doğurur. Həbsxanadakı məhkumların sayına görə görüş yerlərinin azlığı məhkumların və onların yaxınlarının narahatlığına səbəb ola bilər. Həmçinin qeyd olunmalıdır ki, Həbsxananın qarşısında məhkumların ziyarətinə gəlmiş şəxslərin Həbsxanaya daxil olmazdan əvvəl gözləmələri üçün normal şərait yaradılmamışdır. Həbsxanada qeydə alınmış daha bir əhəmiyyətli çatışmazlıq kimi, burda göstərilən tibbi xidmətin təşkilinin aşağı səviyyədə olmasını göstərmək olar. Başçəkmə həyata keçirilən zaman tibb hissəsinin rəisinin baş idarədə olduğu, həmçinin MPM Qrupu aptekə və jurnallara baxış keçirmək istədikdə aptekin açarının və jurnalların tibb hissəsinin rəisində olduğu bildirilmişdir. İki gün davam edən başçəkmənin növbəti günü də tibb hissəsinin rəisinin həbsxanada olmadığı müəyyən edilmişdi. Bu səbəbdən, məhkumların tibb hissəsinin rəisi və tibbi yardım haqda qaldırdıqları məsələnin araşdırılması mümkün olmamışdır. Göstərilən hallarla bağlı Müvəkkil tərəfindən ƏN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda qeyd olunmuşdur ki, müraciətdə göstərilmiş hər bir hal üzrə PX tərəfindən əvvəllər araşdırma aparılmış və məhkumlarla davranış qaydalarında hər hansı pozuntu hallarına yol verilməsi, habelə ərizə və şikayətlərin aidiyyəti üzrə göndərilməməsi faktı öz təsdiqini tapmamışdır. Müraciətdə qaldırılan məsələlərin bir qismi üzrə həmçinin məhkəmə qərarlarının olduğu da diqqətə çatdırılmışdır. Daha sonra cavab məktubunda bildirilmişdir ki, məhkumların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Həbsxananın 4, 5 və 6-cı rejim korpusunda təbii ventilyasiyanın təmin edilməsi məqsədi ilə pəncərələrin ölçülərinin böyüdülməsi üçün təmir işləri aparılmış, uzun müddətli görüş sahəsində yeni istilik sistemi və gəzinti sahəsi yaradılmışdır. Eyni zamanda istifadəyə yararsız daxili su və kanalizasiya xətləri, həmçinin Həbsxananın qaz təchizatında yaranmış qəzalı vəziyyətin aradan qaldırılması üçün xarici qaz xətti dəyişdirilmişdir.

4, 5, və 6-cı rejim korpuslarında kamera tipli otaqlarda plastik qapı və

pəncərələr quraşdırılmış, yeni elektrik xətti çəkilmiş, divarlar və tavan rənglənmiş, divarlara kafel vurulmuş, döşəməyə metlax döşənilmiş və linoleum çəkilmişdir, Həmçinin yeni su və kanalizasiya xətləri çəkilmiş, unitaz, əl-üz yuyanlar, su kranları quraşdırılmışdır. Eyni zamanda rejim korpuslarının nəzarətçi otaqlarında təmir işləri aparılmışdır. Həbsxananın klub binasının, camaşırxananın və ərzaq anbarı binasının dam örtükləri təmir edilərək dəyişdirilmişdir. Maliyyə vəsaitindən asılı olaraq həbsxanada bu istiqamətdə cari təmir işlərinin aparılmasını gələcəkdə davam etdirilməsi nəzərdə tutulmuşdur.

Cavab məktubunda başçəkmə zamanı Tibb-sanitar hissəsinin rəisinin iş yerində olmaması onun həmin günlərdə ƏN Tibb baş idarəsində olması ilə, habelə bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıqda keçirilən vərəmə qarşı mübarizəyə həsr edilmiş tədbirdə iştirakı ilə bağlı olduğu qeyd edilmişdir. Həmçinin Həbsxanada tibbi xidməti gücləndirmək məqsədi ilə Tibb-sanitar hissəsinə 3 həkim – psixiatr, laborant, rentgenoloqun işə götürüldüyü, hazırda orada müxtəlif ixtisaslı 7 nəfər həkim və 1 nəfər feldşerin fəaliyyət göstərdiyi, tibbi xidmətin çevikliyini təmin etmək məqsədi ilə tibb işçilərinin rejim korpuslarına təhkim olunaraq məhkumlara gündəlik baş çəkmələr həyata keçirdikləri diqqətə çatdırılmışdır. Həbsxanada məhkumlara tibbi xidmət göstərilməsi zamanı mürəkkəb klnik və diaqnostik hallarda Ədliyyə və Səhiyyə nazirliklərinin tabeliyində olan tibb müəssisələrinin texniki və kadr imkanlarından da istifadə edildiyi, burada çalışan həkimlərin tibb mərkəzlərindən mütəxəssis dəvət etmək və xüsusi kontingentin müayinə və müalicə prosesində onların köməyindən istifadə etmək imkanına malik olduğu vurğulanmışdır.

Cavab məktubunda həmçinin bildirilmişdir ki, Həbsxanada cəza çəkən məhkumlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq ərzaq və digər tələbat malları ilə təmin olunurlar. Onlara çörək və hazırlanmış xörəklərlə yanaşı, normalar üzrə tərtib olunmuş cədvəllərlə vitamin, kərə yağı, şəkər tozu, hər 10 gündən bir siqaret, kibrit, həftə ərzində bir dəfə 2 ədəd yumurta paylanır. Hazırlanmış xörəklərlə yanaşı kök, çuğundur, kələm tərəvəz növlərindən hazırlanmış salatlar paylanır. Mütəmadi aparılmış yoxlamalar nəticəsində yeməkxana və mətbəxin, ərazidə yerləşən

köşkün normal sanitariya vəziyyətində olması, xörəklərin menyuya uyğun olaraq keyfiyyətlə hazırlanması müşahidə edilmişdir. Həbsxanada həyata keçiriləcək tədbirlərin tərkib hissəsi kimi anbar binasında, ərzaq məhsulları, geyim və yataq dəstləri saxlanılan otaqlarda müvafiq qaydada təmir-bərpa işlərinin aparılması, əlavə stellajların quraşdırılması nəzərdə tutulmuşdur.

Məktubda bildirilmişdir ki, Umbakı qəsəbəsində müasir standartlara müvafiq yeni həbsxana kompleksinin inşası ilə əlaqədar olaraq, hazırda həbsxanada yeni ərzaq anbarı binasının, əlavə görüş otaqlarının tikintisi və müəssisə xaricində gözləmə otaqlarının yaradılması ilə bağlı əsaslı tikinti işlərinin aparılması məqsədəmüvafiq hesab edilməmişdir.

PX-nin müvafiq müəssisələrində narahatlığa səbəb olan məsələlərdən biri kimi bəzi CÇM-lərdəki məhkum yataqxanalarının döşəməsinin hələ də betondan olmasıdır. 1, 2 və 17 saylı CÇM-də müşahidə olunmuş faktlara əsasən qeyd etmək olar ki, belə hal həmin otaqların isidilməsinə və məhkumların sağlamlığına mənfi təsir göstərir.

8 və 11 saylı CÇM-lərin cərimə təcridxanasının vəziyyəti də məqbul deyil və burada təmir işlərinin aparılmasını zəruri hesab edirik. 11 saylı CÇM-də həyata keçirilən başçəkmə zamanı 2-ci dəstənin yerləşdiyi korpusun ikinci mərtəbəsinin dam örtüyünün yararsız vəziyyətdə olması səbəbindən yağış yağarkən suyun məhkumların yatdıqları çarpayıların üzərinə axması müəyyən edilmişdir.

Yuxarıda göstərilən hər bir halla bağlı Müvəkkil tərəfindən ƏN-ə müraciətlər olunmuşdur.

Daxil olmuş cavab məktublarında təklif və tövsiyələrə ƏN-də baxıldığı qeyd olunmuşdur. Məlum olmuşdur ki, 1 saylı CÇM-in yataqxanalarının döşəmələrinin taxta ilə örtülməsi və tibbi-sanitariya hissəsinin yeni stomatoloji inventarla təchiz edilməsi məsələlərinə PX və ƏN Tibb baş idarəsi tərəfindən 2011-ci il ərzində baxılacaqdır.

2 saylı CÇM-də həyata keçirilmiş uzunmüddətli başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisəyə təbii qazın verilməməsi səbəbindən yataqxanaların və digər obyektlərin qızdırılması üçün qışda elektrik sobalarından istifadə edilir. Həmçinin əlil məhkumların ilkin əlillik dərəcəsi alması üçün aidiyyəti zona həkim ekspert komissiyaları tərəfindən çətinliklərin

yaradıldığı aşkar edilmişdir.

Məsələ ilə əlaqədar Müvəkkil ƏN-ə mürcaiət etmişdir. Daxil olmuş cavab məktubunda 2 saylı CÇM-in 4 yataqxanasında isə döşəmənin taxta örtüklə üzlənməsi işlərinə başlanılmışdır. Digər yataqxanalarda da bu iş maliyyə vəsaitindən asılı olaraq mərhələlərlə həyata keçiriləcəkdir. Adı çəkilən müəssisə əvvəllər Xəzər rayonu Qaz istismar sahəsi tərəfindən az miqdarda maye qazla təmin edilsə də, 2010-cu ilin iyun ayından müəssisənin yerləşdiyi Binə qəsəbəsinin yaşayış massivinin əksəriyyətinin, o cümlədən müəssisənin qaz təminatı dayandırılmışdır. Hazırda problemin aradan qaldırılması üçün müvafiq qurumlarla danışıqlar aparılır. Müəssisədə cəza çəkən bəzi məhkumların müvafiq əlillik dərəcələri almaları ilə əlaqədar qeyd olunmuşdur ki, araşdırma zamanı müvafiq əlillik dərəcəsinə ehtiyacı olan 54 məhkumun tələb olunan sənədlərinin təlimata uyğun olaraq ƏƏSMN-ə təqdim olunduğu müəyyən edilmişdir. Onlardan 47 məhkuma 3 saylı ərazi Tibbi Sosial Ekspert Komissiyasının qərarı ilə əlillik dərəcəsi təyin edilmişdir. Digər ilkin əlillik dərəcəsinə ehtiyacı olan 7 məhkum Komissiya əməkdaşları tərəfindən müayinədən keçirilmiş, lakin hələ də müayinənin nəticələri barədə CÇM-ə arayış təqdim edilməmişdir. Daha sonra, məsələyə aydınlıq gətirilməsi məqsədilə ƏN Tibb baş idarəsi tərəfindən ƏƏSMN-in 3 saylı ərazi Tibbi Sosial Ekspert Komissiyasına məktub ünvanlanmışdır.

6 saylı CÇM-də həyata keçirilən başçəkmə zamanı əvvəlki başçəkmlər ilə müqayisədə müəyyən müsbət dəyişikliklərin müşahidə edilməsi ilə yanaşı, burada cərimə təcridxanasının təmirə ehtiyacı olduğu, tibb hissəsində stomatoloji stolun yararsız olduğu, bir neçə məhkumun aidiyyəti qurum tərəfindən əlillik dərəcəsi ala bilməməsi problemi də qeyd edilmişdir.

Müvəkkilin ƏN-ə ünvanladığı müraciətə verilmiş cavab məktubunda müəssisənin cərimə təcridxanasının təmiri PX-nin 2011-ci il üçün cari və əsaslı tikinti-təmir işləri planına daxil edilmişdir, maliyyə vəsaitindən asılı olaraq həyata keçiriləcəkdir. Həmin müəssisənin tibb-sanitariya hissəsinin stomatoloji kabinetinin əsaslı təmir olunması ƏN Tibb Baş İdarəsinin 2010-cu ilin ikinci yarımili üçün iş planına daxil edilmiş, cari ilin sonuna kimi bu işlərin həyata keçirilməsi və hissənin müasir stomatoloji avadanlıqlarla tam təchizi nəzərdə tutulmuşdur. Adı çəkilən müəssisədə cəza çəkən bəzi

məhkumların müvafiq əlillik dərəcələri alması və protezlə təmin olunması məsələləri ƏN Tibb Baş İdarəsi tərəfindən daim nəzarətdə saxlanılır. Bu sahədə ƏN-nin aidiyyəti qurumlarından asılı olmayan mövcud çətinliklərin aradan qaldırılması məqsədilə müvafiq təşkilatlarla təkrar müzakirələr aparılmış və problem yaxın vaxtlarda öz həllini tapacaqdır. Müvəkkil də həmçinin ƏƏSMN-ə sözü gedən problemin tez bir zamanda aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini tövsiyə edir.

7 saylı CÇM-də də bu qəbildən olan problemlər qeydə alınmışdır. Belə ki, adı çəkilən müəssisənin məhkumlar üçün nəzərdə tutulmuş 8 yataqxanasının döşəməsi betondandır. Bundan başqa, CÇM-də məhkumlara göstərilən tibbi xidmət qənaətbəxş səviyyədə təşkil edilməmişdir. Bir çox məhkumla edilən söhbət zamanı onlar xəstəlikləri ilə bağlı tibb hissəsinə müraciət etdikdə süründürməçiliyə məruz qaldıqlarını, baş həkim tərəfindən onlara lazımi dərmanların verilməsində çətinliklərlə üzləşdiklərini bildirmişlər. Aparılan araşdırma zamanı məhkumlar üçün hazırlanan yeməyin yoxlanılması jurnalında həkim imzasının bir çox hallarda olmadığı da müəyyən edilmişdir. Tibb hissəsində 2 feldşer ştatının vakant olması, habelə 17 saylı CÇM-dən həftənin çərşənbə axşamı və cümə axşamı günləri 7 saylı CÇM-ə ezam olunmuş stomatoloqun başçəkmə həyata keçirilən gün (cümə axşamı) müəssisədə olmaması məhkumlara göstərilən tibbi xidmətin təşkilində müşahidə olunan çatışmazlıqları göstərir. Qeyd edilməlidir ki, müəssisədə Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər monitorinq həyata keçirən təşkilatlar tərəfindən də tibbi xidmətin aşağı olması ilə bağlı tövsiyələr verilsə də, bu nöqsanlar aradan qaldırılmamışdır.

Məsələ ilə əlaqədar Müvəkkil tərəfindən ƏN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, 7 saylı CÇM-də yataqxanaların döşəmələrinin taxta ilə örtülməsinə böyük həcmdə maliyyə vəsaiti tələb olunduğu üçün, bu işlər PX-nin 2011-2012-ci illərin cari təmir işləri siyahısına daxil edilmiş və maliyyə imkanlarından asılı olaraq öz həllini tapacaqdır. Cavab məktubunda həmçinin müəssisənin Tibb-sanitariya hissəsinin kifayət qədər dərman preparatları və sarğı materialları ilə təchiz edildiyinin, yalnız psixotrop dərmanların az olduğunun müəyyən edildiyi qeyd olumuşdur. Tibb-sanitariya hissəsində məhkumların qəbulunun keçirilməsi

öyrənilərkən müəyyən edilmişdir ki, bu zaman bəzi hallarda ambulator qəbul kitabında və tibb kitabçalarında tibbi yardımın nəticələri barədə müvafiq qeydlər aparılmamışdır. Məhkumların ambulator qəbulunu təşkil etmək məqsədilə, tibb-sanitariya hissəsində müəssisə rəhbərliyi ilə əvvəlcədən razılaşdırılmış cədvəl tərtib edilmədiyindən, məhkumlar tərəfindən müraciətlər kütləvi hal almışdır. Eyni zamanda, araşdırma zamanı müəyyən edilmişdir ki, bir çox hallarda məhkumlar üçün bişirilən yeməyin keyfiyyətinin yoxlanılmasının qeydiyyatı jurnalında həkimin imzası olmamışdır. Cavab məktubunda həmçinin Tibb-sanitariya hissəsində vakant olan 1 feldşer ştatına kadr təyinatı aparılması üçün müvafiq tədbirlərin görüldüyü bildirilmişdir.

Başçəkmə günü Tibb-sanitariya hissəsinin həkim-stomatoloqunun yerində olmamasına aydınlıq gətirilərək bildirilmişdir ki, o, həmin tarixdə günün birinci yarısında məhkumların qəbulunu həyata keçirmiş, günün ikinci yarısında isə Tibb-sanitariya hissəsinin rəisini məlumatlandırmaqla işlə əlaqədar digər CÇM-ə diş texnikinin yanına getmişdir.

Cavab məktubunda həmçinin bildirilmişdir ki, aşkar olunmuş nöqsan və çatışmazlıqlar barədə Tibb-sanitariya hissəsinin rəisi ciddi iradlar bildirilmiş, müvafiq tapşırıqlar verilmiş və icrası nəzarətə götürülmüşdür.

Cavab məktubuna əsasən, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər monitorinq həyata keçirən təşkilatlar tərəfindən qeyd olunan çatışmazlıqlar da ƏN Tibb baş idarəsi tərəfindən araşdırılmış və nəticələri barədə rəhbərliyə müvafiq məlumat verilmişdir.

10 saylı CÇM-in tibb-sanitariya hissəsinə baxış zamanı otaqlarda, mətbəx və sanitar qovşaqlarda sanitar-gigiyena qaydalarına riayət edilmədiyi və vəziyyətin qeyri-qənaətbəxş olduğu, xəstələr üçün qaynadılmış içməli suyun olmadığı qeydə alınmışdır. Məsələ ilə əlaqədar müvafiq tövsiyələrlə Müvəkkil ƏN-ə müraciət etmişdir və verilmiş cavabda qeyd olunmuşdur ki, tibbi-sanitariya hissəsinin binası köhnə tikilidə yerləşdiyi üçün ümumilikdə təmirə ehtiyacı vardır və hazırda palatalarda təmir işləri həyata keçirilir. Mətbəx və sanitar qovşaqların təmiri 2010-cu ilin 2-ci yarısında nəzərdə tutulub. Cavab məktubunda həmçinin tibbi-sanitariya hissəsində qaynadılmış suyun hər bir məhkuma əlçatanlığının təmin olunduğu, müəssisənin, o cümlədən Tibbi-sanitariya hissəsinin sanitar-gigiyenik vəziyyətini daim nəzarətdə saxlamaq

barədə aidiyyəti şəxslərə ciddi tapşırıqlar verildiyi diqqətə çatdırılmışdır.

14 saylı CÇM-də həyata keçirilən başçəkmələr zamanı müsbət dəyişikliklərlə yanaşı, yataqxanaların, tibb-sanitariya hissəsinin, eləcə də cərimə təcridxanasının döşəməsinin betondan olması, yataqxanalardan birinin pəncərəsi kiçik olduğundan normal təbii işıqla işıqlandırılmadığı, müəssisədə daimi stomatoloqun, ayrıca vəkil otağının olmaması, eləcə də müəssisənin inzibati binasının məhkumların yaşayış sahəsinin ortasında yerləşməsi kimi hallar mənfi hallar kimi qiymətləndirilmişdir.

Məsələ ilə əlaqədar Müvəkkilin ƏN-ə ünvanladığı müraciətə cavab olaraq bildirilmişdir ki, göstərilmiş nöqsan və çatışmazlıqlarla əlaqədar tibb-sanitariya hissəsində vakant olan həkim-stomatoloq vəzifəsinin komplektləşdirilməsi məqsədilə müvafiq ixtisasa malik namizəd ƏN Tibb baş idarəsində yaradılmış işə qəbul üzrə Müsabiqə komissiyasından keçmiş, barəsində təyinat aparılması məqsədilə ƏN-nin rəhbərliyi qarşısında vəsatət qaldırılmışdır.

Məhkum yataqxanalarında və cərimə təcridxanasında taxta döşəmələrin vurulması, bir yataqxana otağının pəncərəsinin genişləndirilməsi üzrə işlər maliyyə vəsaitindən asılı olaraq yaxın gələcəkdə həyata keçiriləcəkdir. Eyni zamanda müəssisənin tibbi-sanitariya hissəsinin döşəməsinin taxta ilə örtülməsi məsələsi ƏN Tibb baş idarəsinin 2011-ci il üçün büdcə layihəsinə daxil edilmişdir. Həmçinin müəssisənin cərimə təcridxanasının və rejim korpuslarından birinin dam örtüklərinin təmir olunması üçün qüsur aktları tərtib edilmiş və görüləcək işlərin həcmi müəyyənləşdirilmişdir. Yaxın vaxtlarda dam örtüklərinin cari təmiri işlərinə başlanacaqdır.

Məktubda həmçinin bildirilmişdir ki, CÇM-lərin quruluşuna dair müvafiq normativ-hüquqi aktlarda vəkil və ya hüquqi yardım göstərmək hüququna malik olan digər şəxslərlə məhkumların görüşlərinin keçirilməsi üçün ayrıca otaqların təşkili nəzərdə tutulmadığından bu məqsədlə qısa müddətli görüş və əməkdaşların xidməti otaqlarından istifadə olunur. Eyni zamanda respublikanın müxtəlif regionlarında hazırda inşa olunan yeni penitensiar müəssisələrin nəzdində məhkumların hüquqi yardım almaq hüququnun təmin olunması məqsədilə xüsusi otaqların təşkili nəzərdə tutulmuşdur. Müvəkkil hesab edir ki, göstərilən məsələnin normativ hüquqi tənzimlənməsi zəruridir.

Göstərilənlərdən əlavə, həmçinin bildirilmişdir ki, müəssisənin inzibati binası məhkumların yaşayış sahəsində yerləşdiyi nəzərə alınaraq işçi heyətinin təhlükəsizliyinin təmin olunması məqsədilə müvafiq binanın ətrafı digər ərazidən dəmir barmaqlıqlarla ayrılmışdır.

15 saylı CÇM-də aparılan başçəkmə zamanı da bəzi problemlərin hələ də həll olunmamış qaldığı aşkar olunmuşdur. Belə ki, müəssisənin məhkumlar üçün müəyyən olunmuş say limiti aşılmasa da, hər bir məhkuma düşən sahə ölçüsünə görə standartlara uyğun deyil.

Məsələ ilə bağlı Müvəkkilin ƏN-ə etdiyi müraciətə baxılaraq bildirilmişdir ki, məktubda göstərilmiş problemlər ƏN-nin və PX-nin rəhbərliyinin diqqətində olmuş və onların həlli ilə bağlı tədbirlər görülmüşdür. Belə ki, son vaxtlar ciddi rejimli CÇM-lərdə saxlanılan məhkumların sayının artması və belə müəssisələrdə yaranan müəyyən sıxlıqla bağlı təhlillər aparılmışdır. PX-nin böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər törətmiş məhkumların saxlanması üçün nəzərdə tutulmuş ümumi rejimli CÇM-lərində məhkumların sayının azalması nəzərə alınaraq, bu müəssisələrdən birinin ciddi rejimli CÇM-ə çevrilməsi məqsədəuyğun hesab edilmiş və bununla bağlı müvafiq təkliflər hazırlanmışdır.

16 saylı CÇM-də həyata keçirilən başçəkmə zamanı isə həmin müəssisədə qazın zəif olması, yataqxanaların isidilməsində problemlərin olması, eləcə də yataqxanalardan birinin normal təbii işıqla işıqlandırılmaması, cərimə təcridxanasının kameralarından birinin normalara cavab verməməsi, bəzi məhkumlara lazımi tibbi yardımın göstərilməməsi aşkar olunmuşdur. Müəssisəyə baş çəkmə yekunlaşdıqdan sonra müəssisə rəhbərliyi başçəkmənin nəticələri barədə məlumatlandırılmaqla müzakirə aparılmış, həmçinin müvafiq tövsiyələr verilmişdir. Növbəti gün müəssisə rəhbərliyi MPM Qrupu ilə əlaqə saxlayaraq, xəstə məhkumların ikisinin artıq MM-ə köçürüldüyünü, cərimə təcridxanasının standartlara cavab verməyən kamerasında isə təmir işlərinə başlanılması ilə bağlı qərar verildiyini bildirmişdir.

17 saylı CÇM-də həyata keçirilən başçəkmə zamanı təklikdə söhbət aparılan bir qrup məhkum MM-də lazımi, keyfiyyətli müalicə ala bilmədiklərini bildirmişlər. Məsələ ilə əlaqədar ƏN-ə müraciət olunmuşdur.

12 saylı CÇM-dəki mövcud vəziyyətin ciddi narahatlıq doğurduğunu

xüsusi vurğulamaq zəruridir. Belə ki, adı çəkilən müəssisədə həyata keçirilən növbəti uzunmüddətli başçəkmə zamanı hər hansı müsbət dəyişikliyin olmamasının müəyyən edilməsi ilə yanaşı, aşağıdakı neqativ hallar və qanun pozuntuları da aşkar olunmuşdur:

1. Sözü gedən CÇM Qaradağ rayon Puta qəsəbəsində yerləşir ki, bu yolun 3 kilometrlik hissəsi uzun illərdir bərbad vəziyyətdədir. Həmin ərazidə PX-nin 3 müəssisəsinin (8, 12 və 13 saylı CÇM-lər) yerləşdiyini və hər gün müəssisə əməkdaşları və məhkumların ziyarətçilərinin bu yoldan istifadə etmək məcburiyyətində qaldıqlarını nəzərə alsaq, müvafiq tədbirlərin görülməsi zəruridir;

2. Başçəkmə zamanı müəssisənin uzunmüddətli görüş otağına baxış keçirərkən məhkum A.M.-in həyat yoldaşı və 2 uşağı ilə 3 günlük görüşdə olduğu, onların cəmi 2 nəfərlik çarpayısı olan, təmirsiz, 3 saylı görüş otağında yerləşdirildikləri müəyyən edilmişdir. Araşdırma zamanı həmçinin müəyyən olunmuşdur ki, həmin uşaqlar birbaşa daş döşəmənin üstünə salınmış döşəkdə yatmaq məcburiyyəti qarşısında qalıblar. Bütün digər görüş otaqlarının boş olması, eləcə də 1 saylı görüş otağının yenicə təmirdən çıxması və orada lazımı şəraitin mövcudluğu nəzərə alınmaqla, ailənin bu cür şəraitdə yerləşdirilməsi məhkuma və onu ziyarət edən şəxslərə qarşı ayrı-seçkiliyə əsaslanan ləyaqəti alçaldan rəftar kimi qiymətləndirilə bilər.

3. Müəssisənin yeməkxanasına baxış zamanı burada qab yuyulan yerdə xlorun olmadığı, mətbəxdə çalışan aşpaz və çörək doğrayan məhkumun dırnaqlarının uzun və natəmiz olduğu, yeməyin keyfiyyətinin yoxlanılması barədə jurnalda müəssisənin həkiminin yalnız imza atdığı və yeməyin keyfiyyəti ilə bağlı hər hansı rəy yazmadığı müəyyən edilmişdir;

4. Müəssisənin Tibbi-sanitariya hissəsində aparılmış araşdırma zamanı baş həkimin MPM Qrupunun üzvlərinə məlumat verərkən səmimi olmamışdır. Belə ki, o, tibb hissəsinin 20 çarpayıdan ibarət olduğunu bildirsə də, burada faktiki 7 çarpayının mövcud olduğu, eləcə də 4 palatadan yalnız birinin döşəməsinin taxtadan olduğu (həmin taxta döşəmənin də vəziyyəti qeyri-kafidir), istifadə olunmuş birdəfəlik şprislərin məhv edilmədiyi (bu, həmin şprislərin təkrarən istifadə olunmasını güman etməyə imkan verir) müəyyən olunmuşdur.

5. Müəssisənin ümumi sahəsində məhkumlar üçün nəzərdə tutulmuş köşkə baxış zamanı burada natəmizliyin mövcudluğu, köşkdə işləyən mülki şəxsin məhkumlarla alış-verişi nağd pulla apardığı, satılan kökələrin üzərində istehsal və son istifadə tarixlərinin göstərilmədiyi, piştaxtalarda və tərəzidə tarakan ölülərinin olması müəyyən edilmişdir.

6. Məhkumlarla söhbət zamanı onlar köşkdən qanunla müəyyən olunmuş orqanlara (o cümlədən Müvəkkilə) senzuradan keçmədən müraciət etmələri üçün zərf əldə edə bilmədiklərini bildirmişlər.

7. Yataqxanalarda aparılmış araşdırma zamanı məhkumların təxminən yarısı üçün stullarının olmadığı, döşəklərin bəzilərinin istifadəyə yarasız vəziyyətdə olduğu, habelə döşəmələrin daşdan, bir neçə yataqxanada təbii işıqlanmanın zəif olduğu müəyyən edilmişdir.

8. Cərimə təcridxanasında aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, cərimə otağına və ya kamera tipli otaqlara yerləşdirilən məhkumların əksəriyyətinə yastıq və mələfə verilmir. Burada saxlanılan məhkumlar gündəlik gəzinti hüququndan, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulduğu kimi, 1 saat deyil, cəmi 20-30 dəqiqə istifadə edə bilirlər.

9. MPM Qrupunun üzvləri tərəfindən aparılmış təsadüfi seçim, eləcə də məhkumların özlərinin arzusu ilə 30-dək məhkum qəbul edilmiş və onlarla təkbətək, şahidsiz söhbət aparılmışdır. Söhbət zamanı məhkumlar 12 saylı CÇM-də baş verən qanun pozuntularından şikayət etmiş, yeməyin keyfiyyətsiz olduğunu, onlar üçün nəzərdə tutulmuş ərzağın köşkdə satıldığını, ümumi hamamın şəraiti pis olduğundan ondan istifadənin narahat olduğunu və fərdi duş kabinələrinin pulla satıldığını (yarım saat çimmək üçün hər bir məhkumdan 1 manat alındığını), aidiyyəti qurumlara, o cümlədən Müvəkkilə ünvanlanan müraciətlərin, qanunvericiliyin tələblərinə zidd olaraq, müəssisənin xüsusi hissəsinin əməkdaşları tərəfindən ünvan üzrə göndərilmədiyini, əcnəbi məhkumlar üçün yaxınları tərəfindən göndərilən pul vəsaitinə görə onlardan 10 manat pul alındığını, saçını qırxdırmaq istəməyən məhkumlardan bunun üçün ayda 5 manat alındığını bildirmişlər. Diqqət çəkən məqam ondan ibarətdir ki, sadalanan məsələlər yalnız bir məhkum tərəfindən deyil, əksər məhkumlar tərəfindən səsləndirilmişdir ki, bu da məlumatların

həqiqiliyinə inanmağa imkan verir.

10. Müvəkkilin ünvanına 2008-2010-cu illər ərzində məhkumlar və ya onların ailə üzvləri tərəfindən daxil olmuş şikayətlərdən, eləcə də MPM Qrupunun həyata keçirdiyi başçəkmələrdə 12 saylı CÇM haqqında toplanmış məlumatlara əsaslanaraq qeyd etmək olar ki, həmin müəssisədə məhkumların müəssisə rəhbərliyi və əməkdaşları tərəfindən zorakılığa məruz qalması halları ciddi narahatlıq doğurur. Həmçinin son başçəkmədə məhkumlarla edilən söhbət zamanı müəssisə rəisi tərəfindən həyatları üçün təhlükə törədiləcəyindən ehtiyat edərək adlarının açıqlanmamasını xahiş edən iki məhkum rəhbərlik tərəfindən qeyri-insani rəftara məruz qaldıqlarını bildirmişlər. Hər iki məhkumun bədəninə baxış zamanı rezin dəyənəyin izləri müşahidə olunmuş və MPM Qrupunun əməkdaşları bu barədə akt tərtib etmişlər. Daha sonra məhkumlara xüsusi vasitələrin tətbiqinin qeydiyyatı jurnalına baxış keçirilmiş və həmin məhkumlardan heç birinin adının jurnalda il ərzində barəsində xüsusi vasitənin tətbiq edildiyinin qeyd olunduğu cəmi 7 nəfər məhkumun siyahısında olmadığı aşkar edilmişdir. Digər bir məhkum söhbət zamanı bildirmişdir ki, beynəlxalq qurumun yerli nümayəndəliyinə öz məsələsi ilə bağlı müraciət etdiyi üçün müəssisə rəisi Aftandil Ağayev tərəfindən döyülərək dişi sındırılmışdır. Qeyd etmək lazımdır ki, bütün hallarda məhkumlar bu və ya digər formada müəssisənin rəisi Aftandil Ağayev və əməliyyat şöbəsinin Kərim adlı əməkdaşı tərəfindən döyülərək işgəncələrə məruz qaldıqlarını iddia etmişlər.

12 saylı CÇM haqqında göstərilən halların ciddi surətdə araşdırılması və təqsirkar şəxslər barəsində müvafiq məsuliyyət tədbirlərinin görülməsi xahişi ilə Müvəkkil ƏN-ə müraciət etmişdir.

MTCM-lərə başçəkmələr zamanı bu müəssisələrin bəzilərində əsaslı təmir işlərinin aparıldığı müşahidə olunsa da, əksər müəssisələrdəki şərait qeyri-məqbul qiymətləndirilmişdir və sözü gedən müəssisələrdə əsaslı təmir və yenidənqurma işlərinin aparılması zəruridir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, bu müəssisələrdən bəzilərinin PX-nin balansında olmaması müəyyən obyektiv problemlərin meydana çıxmasına gətirib çıxarır. Bu səbəbdən hesab edirik ki, MTCM-lərin yerləşdikləri binaların PX-nin balansına verilməsi daha məqsədəmüvafiqdir.

Qeyd etmək lazımdır ki, PX-nin əksər xüsusi müəssisələrində müşahidə olunmuş vəziyyət də narahatlıq doğurmaya bilməz. 1 saylı Xüsusi müəssisədə həyata keçirilən başçəkmə zamanı müəssisənin yerləşdiyi binanın ümumi vəziyyətinin qeyri-qənaətbəxş olduğu, müəssisədə hamam, mətbəx və kitabxananın olmadığı, eləcə də sanitar qovşağın həyətdə yerləşdiyi, habelə müəssisəni digər obyektlərdən təcrid edən hasarın mövcud olmadığı aşkar edilmişdir. Araşdırma aparılan zaman müəssisənin rəisi və xüsusi hissənin inspektoru müəssisədə olmadığından zəruri sənədlərlə tanış olmaq mümkün olmamışdır.

Analoji problemlər 5 saylı Xüsusi müəssisədə də qeydə alınmışdır. Belə ki, adı çəkilən müəssisədə sanitar qovşağın işləmədiyi, ümumi yaşayış sahələrinin yerləşdiyi 3 otağın yalnız 2-də normal şəraitin olduğu müəyyən edilmişdir.

Eləcə də 8 saylı Xüsusi müəssisədəki şərait də qənaətbəxş hesab oluna bilməz. Belə ki, müəssisəni digər mülki obyektlərdən təcrid edən hasar mövcud deyil, binaların ümumi vəziyyəti qeyri-qənaətbəxşdir. Məhkumların saxlandıqları 4 yataqxanadan isə ancaq 2-si istifadəyə yararlıdır. İstifadəyə yararlı olan yataqxanaların birində 20 nəfər, digərində isə 40 nəfər saxlanılması üçün çarpayılar mövcuddur. Yataqxanalardan birində qaz sobası quraşdırılsa da, temperaturun aşağı olmasına baxmayaraq müəssisə əməkdaşları həmin sobadan istifadə etməyə ehtiyac olmadığını bildirmişlər. İstifadədə olan hər iki yataqxanada məhkumlar üçün olan yataq dəstlərinin, eləcə də əl-üz dəsmallarının köhnə və natəmiz vəziyyətdə olduğu aşkar edilmişdir. Baxış zamanı həmçinin müəssisədə kitabxana, tibb otağı, hamam və digər xidmət otaqlarının mövcud olmadığı aşkar edilmişdir. Müəssisədəki tualet antisanitar vəziyyətdədir. kəskin qoxuya görə bura daxil olmaq mümkün deyil. Müəssisənin intizam təcridxanasının da qeyri-qənaətbəxş vəziyyətdə olduğu aşkar edilmişdir. Başçəkmə zamanı əməkdaşlar üçün nəzərdə tutulmuş inzibati otaqların vəziyyəti kafi qiymətləndirilmişdir.

13 saylı Xüsusi müəssisədə aparılan başçəkmə zamanı sözü gedən müəssisənin də vəziyyəti qeyri-qənaətbəxş kimi qiymətləndirilmişdir. Həmçinin qeyd etmək lazımdır ki, başçəkmə günü müəssisədə yalnız həmin müəssisənin aparıcı mütəxəssisi olmuşdur. Rəhbərlikdən və zabit heyətindən heç kəs iş yerində olmamışdır.

Göstərilənlərlə əlaqədar ƏN-ə müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, müraciətdə göstərilən nöqsan və qüsurların aradan qaldırılması məqsədilə tədbirlər görülməsi üçün PX-nin müvafiq qurumlarına tapşırıqlar verilmişdir. Cavab məktubundan həmçinin məlum olmuşdur ki, 1 saylı Xüsusi müəssisənin rəhbərliyi intizam məsuliyyətinə cəlb edilmişdir. Göstərilənlərlə yanaşı məktubda məlumat üçün qeyd olunmuşdur ki, azadlığın məhdudlaşdırılması cəzası icra edilməyə başlandıqdan təxminən on ilə yaxın vaxt keçməsinə baxmayaraq, xüsusi müəssisələrdə əməkdaşlar tərəfindən cəza çəkən şəxslərlə davranışda işgəncələrə, digər qeyri-insani hərəkətlərə və ya onların şəxsiyyətinin alçaldılması hallarına yol verilməsi ilə bağlı ƏN-ə, PX-yə, habelə digər dövlət və qeyri-hökumət təşkilatlarına müraciət və ya şikayət daxil olmamışdır.

PX-nin müəssisələrində aparılan başçəkmələr zamanı Müvəkkilə həmçinin cəzanın çəkilməsi ilə əlaqədar bir sıra digər xarakterli şikayətlər də ünvanlanmışdır. Bu şikayətlər əsasən tibbi yardımın göstərilməsi, MM-ə yerləşdirilmə, qısa müddətli və ya uzunmüddətli görüşlərin verilməsi, habelə sovqatların qəbulu ilə bağlı olmuşdur.

Qeyd olunmalıdır ki, müxtəlif mənbələrdən daxil olmuş məlumatlara əsasən, bəzi hallarda məhkumların MM-ə köçürülmələri ilə əlaqədar təkidli xahişləri onların səhhətləri ilə deyil, digər məsələlər ilə (digər məhkumlarla qanundankənar əlaqələr yaratmaq, rejim qaydalarından yayınmaq və s.) əlaqədar olur. Bu səbəbdən MM-də rejim qaydalarına əməl olunmasına nəzarətin artırılması olduqca aktualdır. Göstərilənlərə baxmayaraq, sözü gedən müraciətlərin hər biri üzrə Müvəkkil tərəfindən araşdırma aparılmış və həmin şəxslərin təkrarən müayinədən keçirilməsi və ehtiyac olduğu təqdirdə MM-ə yerləşdirilmələri üçün zəruri tədbirlər görülmüşdür.

11 saylı CÇM-də həyata keçirilən başçəkmə zamanı məhkum V.H. saxlanma şəraitindən narazılığının olmadığını bildirsə də, müəssisə rəisinin ona qarşı qərəzli münasibətindən şikayətlənmiş, xəstə olmasına baxmayaraq, MM-ə göndərilmədiyini qeyd etmişdir. CÇM-in rəhbərliyinə göstərilən məsələ ilə əlaqədar qanunvericilik çərçivəsində tədbirlər görməsi ilə bağlı tövsiyələr verilmişdir. Həmin CÇM-də cəza çəkən digər məhkum A.S-in də MM-ə keçirilməsi ilə bağlı müraciəti araşdırılmış, müəssisə rəhbərliyinə müvafiq

tövsiyə verilmişdir və məhkumun MM-ə köçürülməsi təmin edilmişdir.

Başçəkmələr zamanı müəssisələrdəki saxlanma şəraiti və cəza-icra qanunvericiliyinin tətbiqi ilə əlaqədar aşkar olunmuş faktların, habelə daxil olmuş müraciətlərin həlli istiqamətində görülmüş digər qəbildən olan tədbirlərə misal kimi, 3 saylı İs.T-də saxlanılan məhbus M.M.-ə gətirilmiş ərzağın çatdırılmasında yaranmış problemin aradan qaldırılmasını, 12, 14 və 17 saylı CÇM-də cəza çəkən məhkumlara arzu etdikləri qəzetlərin verilməsi ilə informasiya əldə etmək hüququnun bərpa olunmasını, 11 saylı CÇM-də cəza çəkən Səudiyyə Ərəbistanın vətəndaşının ailə üzvləri ilə görüşməsinə şərait yaradılmasını, habelə Həbsxanada cəza çəkən məhkum E.Ə.-nin yerləşdirildiyi kameranın təmir olunmasını və s. bu kimi halları göstərmək olar.

PX-nin müvafiq tabe müəssisələrində MPM Qrupu tərəfindən aparılan başçəkmələr zamanı bəzi məhbuslar tərəfindən Müvəkkilə istintaq zamanı məruz qaldıqları zorakılıq halları ilə əlaqədar şikayətlər də ünvanlanmışdır. Bakı İs.T-də saxlanılan təqsirləndirilən şəxs B.Ə. müraciətində İran İslam Respublikasından Azərbaycan Respublikasına qayıdarkən Astara Gömrük İdarəsində gömrük əməkdaşları tərəfindən tutulduğunu görüb əvvəlcədən gizlətdiyi 1,5 qram heroini udduğunu, buna görə idarənin yerləşdiyi binanın 3-cü mərtəbəsində gömrük işçisinin xidməti otağında 5-6 nəfər mülki geyimli şəxs tərəfindən döyüldüyünü və xeyli miqdarda narkotik vasitənin göstərilərək ona məxsus olması barədə əsassız ittiham olunduğunu, daha sonra Bakı şəhərində yerləşən Dövlət Gömrük Komitəsinin İstintaq İdarəsinə gətirildiyini, əllərinə əl qandalı vurularaq soyuq beton döşəmənin üstündə uzadıldığını, bir neçə saat belə vəziyyətə qaldıqdan sonra, əl qandalını açdığını, tualetə keçərək orada olan güzgünü sındırdığını və özünə xəsarət yetirdiyini, eyni zamanda daha 1,5 qram narkotik vasitəni gizlətdiyini və onun yerini yalnız prokurorluq orqanlarının əməkdaşlarına deyəcəyini bildirmişdir. MPM Qrupu tərəfindən B.Ə.-nin bədəninə baxış keçirilərkən bir sıra xəsarət əlamətləri aşkar olunmuşdur. Məsələ ilə əlaqədar Müvəkkil tərəfindən Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət olunmuşdur. Daxil olmuş cavab məktubunda narkotik vasitənin B.Ə-yə məxsus olmaması barədə müraciətdə göstərilənlərin həqiqətə uyğun olmadığı bildirilməklə yanaşı, həmçinin qeyd

olunmuşdur ki, onun özünə xəsarətlər yetirməsi faktı ilə əlaqədar Yasamal Rayon Prokurorluğunda araşdırma aparılır. Araşdırma zamanı B.Ə.-nin bədəni üzərində olan xəsarətlərin ağırlıq dərəcəsinin təyin olunması məqsədilə məhkəmə-tibb ekspertizası təyin edilmişdir, lakin ekspert rəyi hələ alınmamışdır. Müraciət üzrə araşdırma davam etdirilir, nəticəsindən asılı olaraq qanuna müvafiq qərarın qəbul olunması təmin ediləcək. Araşdırmanın gedişatı həmçinin Müvəkkil tərəfindən diqqət mərkəzində saxlanılır.

PX-nin müvafiq tabe müəssisələrindən danışdıqda xüsusi qeyd etmək lazımdır ki, bu müəssisələrdə məhkumlarla aparılan söhbətlər zamanı onların qaldırdıqları əsas məsələ məhkəmə hökmü ilə təyin olunmuş cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilmələri üçün məhkəməyə müraciət etmələrinə prokurorluq orqanları tərəfindən yaradılan maneələrlə bağlı olmuşdur. Bu məsələ həqiqətən də aktual olmaqla yanaşı, həmçinin Müvəkkilin ünvanına digər mənbələrdən daxil olmuş şikayət ərizələrində və digər məlumatlarda da dəfələrlə qabardılmışdır. Göstərilən məsələ ilə bağlı ƏN-ə müraciət olunmuşdur.

Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, məhkumların cəzadan vaxtından əvvəl azad olunması institutunun tətbiqi təcrübəsi Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən təhlil edilərək öyrənilmiş, ciddi qüsurlar müəyyən edilmiş və məsələ Ali Məhkəmənin Plenumunda ətraflı müzakirə olunmuşdur. Göstərilən sahədə nöqsanların aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsi ədliyyə nazirinin sədrliyi ilə nazirlikdə keçirilmiş müşavirədə müzakirə edilmişdir. Tədbirdə nazirliyin və PX-nin rəhbər heyəti, hakimlər, Məhkəmə-Hüquq Şurasının üzvləri və Baş Prokurorluğun rəhbər işçiləri iştirak etmişlər. Müşavirədə islah prosesinin səmərəli həyata keçirilməsində vacib əhəmiyyət kəsb edən cəzadan vaxtından əvvəl azad etmənin tətbiqində ciddi nöqsanlar, o cümlədən sənədləşdirmə işində qüsurlar, süründürməçilik halları, əsaslandırılmamış qərarların qəbul olunması kimi pozuntular, onları doğuran səbəblər ətraflı və prinsipial müzakirə olunmuşdur. Tədbirdə bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün ciddi addımların atılmasının vacibliyi qeyd edilərək, konkret vəzifələr müəyyən olunmuş, o cümlədən beynəlxalq təcrübə öyrənilməklə müvafiq prosedurun sadələşdirilməsi, şəffaflığın və obyektivliyin gücləndirilməsi üzrə

işin əlaqələndirilməsi üçün aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupunun yaradılması üzrə qərar qəbul edilmişdir.

### *3.1.3. Milli Təhlükəsizlik Nazirliyinin İstintaq təcridxanası*

MTN-nin şübhəli və təqsirləndirilən şəxslərin saxlanılması üçün nəzərdə tutulmuş İstintaq təcridxanası MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrdəndir.

2009-2010-cu illərdə MTN İs.T-də saxlama rejiminin və həbsdə saxlanılanların maddi, sosial-məişət və tibbi-sanitariya təminatının daha da yaxşılaşdırılması və onların hüquqlarının qorunması sahəsində əməli tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Tutulmuş və ya həbs edilmiş bütün şəxslər MTN İs.T-ə daxil olduqları vaxt təcridxananın tibbi-sanitar yardımı xidməti üzvləri tərəfindən gecikmədən müayinə olunurlar. Təcridxananın tibbi yardım xidmətinin işi ancaq xəstələri müalicə etməklə məhdudlaşmır, onlar həmçinin, sosial və profilaktik tədbirləri də həyata keçirirlər. Həbsdə saxlanılanların tibbi müayinəsində və müalicəsində zərurət yarandıqda MTN poliklinikasının bütün mütəxəssislərindən və ƏN-nin stasionar müalicə müəssisələrindən istifadə olunur və bu sahədə işlərin daha da yaxşılaşdırılması və xəstələrin pulsuz dərman ləvazimatları ilə təmin edilməsi üçün mütəmadi olaraq lazımi tədbirlər görülür.

Artıq qeyd olunduğu kimi, Müvəkkil tərəfindən MTN İs.T-də 2009 və 2010-cu illər ərzində cəmi 4 başçəkmə həyata keçirilmişdir.

Müvəkkil burada başçəkmə həyata keçirərkən, mövcud vəziyyətlə maraqlanmış, eləcə də orada saxlanılan təqsirləndirilən şəxslərlə görüşmüş və söhbət aparmışdır. Görüş zamanı həmin şəxslər istintaq təcridxanasında saxlanma şəraiti ilə əlaqədar şikayətlərinin olmadığını, təcridxanada onlara qarşı hər hansı qeyri-qanuni rəftara yol verilmədiyini qeyd etmiş, qidalanma və tibbi xidmətdən razı olduqlarını bildirmişlər. Saxlanılan şəxslərin bəzilərinin şikayətləri barələrində başlanmış cinayət işləri üzrə aparılan icraatın qeyri-obyektiv olmasından, istintaq zamanı təzyiqlərə məruz qalmalarından olmuşdur ki, bu şikayətlərin hər biri üzrə müvafiq qaydada araşdırma aparılmışdır.

2009 və 2010-cu illərdə MTN İs.T-in vəziyyəti, saxlama şəraiti, eləcə də məhbuslarla rəftar qənaətbəxş səviyyədə olmuşdur və mövcud standartların tələblərinə cavab verir.

### *3.1.4. Müdafiə Nazirliyinin müəssisələri*

MN-nin İntizam xarakterli hərbi hissəsi (N saylı hərbi hissə) və hauptvaxtları MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrdəndir (bax: Əlavə 1). 2009-cu ildə MN-nin göstərilən müəssisələri üzrə 2, 2010-cu ildə isə 3 başçəkmə həyata keçirilmişdir.

Lənkəran Hərbi Polisinin hauptvaxtında həyata keçirilmiş başçəkmə zamanı müəssisədə saxlanılan şəxslərin hər biri ilə fərdi söhbət aparılmışdır və onlar saxlama şəraiti və rəftara dair hər hansı şikayətlərinin olmadığını qeyd etmişlər. Başçəkmə zamanı həmçinin müəyyən olunmuşdur ki, Lənkəran Hərbi Polisi günün tələblərinə cavab verməyən, köhnə binada yerləşir. Başçəkməni həyata keçirən qrupa yeni binanın inşa olunduğu və yaxın vaxtlarda istifadəyə veriləcəyi bildirilmişdir.

İntizam xarakterli hərbi hissədə həyata keçirilmiş başçəkmə zamanı mövcud vəziyyət, cəza çəkən hərbi qulluqçuların saxlanma şəraiti, onlarla rəftar və profilaktik tədbirlərin aparılması səviyyəsi və s. məsələlər araşdırılmışdır. Başçəkmə zamanı həmçinin hərbi hissənin şəxsi heyətinin yaşayış və xidmət şəraiti, asudə vaxtın səmərəli təşkili üçün görülmüş işlər, hərbi qulluqçulara göstərilən tibbi xidmət, onların qidalanması, həmçinin nizamnamələrə müvafiq qaydada əsgər və zabitlər arasında rəftarın vəziyyəti diqqət mərkəzində saxlanılmışdır. MPM Qrupu hərbi hissənin ərazisinə, şəxsi heyətin yaşayış korpuslarına, kluba, asudə vaxtın səmərəli təşkili üçün müəyyən edilmiş yerlərə, yeməkxanaya və mətbəxə baxış keçirmiş, xəstəxanadakı müalicə şəraiti ilə tanış olmuşlar. Göstərilənlərlə yanaşı, şəxsi heyətlə və hərbi hissə komandiri ilə fərdi söhbətlər aparılmış, müvafiq tövsiyələr verilmişdir. Aparılan söhbətlər zamanı İntizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçular saxlanma şəraitindən narazı olmadıqlarını, onlara qarşı hər hansı qanunsuz rəftara yol verilmədiyini bildirmişlər.

Başçəkmələr zamanı məhkumlara olan münasibətin, saxlanma rejiminə

uyğun məhkum yataqxanalarında təbii işıqlanmanın və təmizliyin normal, məhkumların istifadəsində olan çarpayı və yataq dəstlərinin, hamam və tualetin təmiz və səliqəli və məhkumların sayına uyğun olduğu, həmçinin məhkumların asudə vaxtlarını keçirmələri üçün müvafiq şəraitin o, cümlədən futbol və voleybol meydançalarının və turnikin olduğu, mütaliə etmələri üçün müvafiq şəraitin yaradıldığı müəyyən edilmişdir. Məhkumlara bağlamaların, sovqatların, banderolların, qısa və uzun müddətli görüşlərin və telefon danışıqlarının verilməsi müvafiq qanunvericiliyin tələblərinə uyğun təşkil edilmişdir.

Hərbi hissənin tibb məntəqəsi, burada tikinti işlərinin aparılmasına baxmayaraq, mövcud olan dərman preparatları, digər tibb vəsaitlərin vasitələri ilə əsgərlərə təcili tibbi yardım göstərməyə hazır vəziyyətdədir.

İntizam xarakterli hərbi hissədə aparılan başçəkmələrdən birində məhkum əsgərlərdən biri sərbəst olaraq müraciət etmiş və barəsində olan cinayət işi üzrə istintaqın qeyri-obyektiv aparıldığını, bu səbəbdən məhkəmə tərəfindən qəbul olunmuş hökmdən narazı qaldığını bildirmişdir. Hökmün surəti ilə tanış olduqda müəyyən edilmişdir ki, onun apellyasiya instansiyası məhkəməsinə şikayətlə müraciət etməsi üçün cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş müddət keçməmişdir. MPM Qrupunun tövsiyəsi ilə əsgərin apellyasiya ərizəsinin təcili olaraq müvafiq məhkəməyə göndərilməsinə dair hərbi hissə komandiri tərəfindən göstəriş verilmişdir. Məsələnin diqqət mərkəzində saxlanılması, eləcə də həmin əsgərin ailə vəziyyətinin yerində öyrənməsinə dair həmçinin Müvəkkil tərəfindən Cəlilabad Regional Mərkəzinə tapşırıq verilmişdir.

İntizam xarakterli hərbi hissədə həyata keçirilmiş başçəkmələr zamanı, yuxarıda qeyd olunmuş müsbət cəhətlərlə yanaşı, bir sıra çatışmazlıqların mövcudluğu da aşkar olunmuşdur.

Belə ki, məhkumların yaşayış şəraiti öyrənilərkən məlum olmuşdur ki, qış aylarında məhkumlar üçün müəyyən olunmuş yataqxanalar və digər binalar, həmçinin hərbi hissə ümumilikdə dizel yanacağı ilə işləyən sobalar vasitəsi ilə saxlama şəraitinə və sağlamlığa təhlükə yarada biləcək qaydada qızdırılır.

Hərbi hissənin mətbəxinin, əsgər yeməkxanasının ərzaq anbarının dam örtüyünün yararsız olmaqla su sızdırdığı, ümumilikdə bu binaların əsaslı

təmirə, eləcə də yeni avadanlıqlarla və təbii qazla təmin olunmasına ehtiyacı olduğu da müəyyən edilmişdir.

Başçəkmələr zamanı həmçinin məhkumlar üçün ayrılmış uzunmüddətli görüş otağının ümumi vəziyyəti və lazımi əşyalarla təminatı səviyyəsi də qeyri-qənaətbəxş kimi qiymətləndirilmişdir.

Araşdırma zamanı məlum olmuşdur ki, adı çəkilən hərbi hissənin daimi tərkibində qadın hərbi qulluqçunun olmaması səbəbindən, məhkumlarla görüşə gəlmiş qadınların üzərinə axtarış yalnız vizual baxış və sorğu-sual əsasında həyata keçirilir.

Xüsusi qeyd etmək lazımdır ki, başçəkmələr zamanı müvafiq sənədlərlə tanış olduqda 5 hal üzrə eyni cinayət işi əsasında (hər iş üzrə iki nəfər olmaqla cəmi 10 nəfər) məhkum olunmuşların bir yerdə saxlanıldıqları müəyyən edilmişdir. Hesab edirik ki, bu, məhkumların şəxsi təhlükəsizlik hüququnun təminatı, eləcə də islah məqsədlərinin tələbləri ilə uyğun gəlmir.

Başçəkmələr zamanı həmçinin müəyyən edilmişdir ki, hərbi hissənin tərkibində təzə çağırılmış əsgərlərlə hərbi andın qəbul edilməsi üzrə məşğələlər keçirilir. Hesab edirik ki, intizam taboruna MN-nin Hərbi Polis İdarəsinin tabeliyində olan hərbi hissələri üçün çağırılmış gənc əsgərlərin hərbi anda hazırlığı üzrə tədbirlərin görülməsi intizam taborunun komandir heyətinin təyinatı üzrə məqsədyönlü fəaliyyətinə, o cümlədən təlim-tərbiyə işinin, məhkumlarla islah tədbirlərinin aparılmasına, mühafizənin və rejimin saxlanılmasına maneə törədə bilər. Zənnimizcə, gənc əsgərlərin hərbi anda hazırlanmasının digər hərbi hissələrdən birinə həvalə edilməsi daha məqsədəmüvafiqdir.

Başçəkmələr zamanı həmçinin müəyyən edilmişdir ki, məhkumlarla tərbiyə, islah işlərinin aparılması, onların maarifləndirilməsi üçün hərbi hissədə fəaliyyət göstərən "İdeoloji otağ"ın müvafiq hüquqi və tərbiyəvi ədəbiyyatla komplektləşdirilməsi zəruridir.

Yuxarıda göstərilən hallarla əlaqədar sözü gedən hərbi hissə komandirinə MPM Qrupu tərəfindən yerində müvafiq tövsiyələr verilməklə yanaşı, Müvəkkil tərəfindən MN-ə müraciət olunmuşdur.

MN-dən daxil olmuş cavab məktubunda başçəkmə zamanı aşkar olunmuş və Müvəkkilin müraciətində göstərilən çatışmazlıqlar aradan qaldırılmışdır.

Məktubda bildirilmişdir ki, hərbi hissənin mətbəxinin və anbarların dam örtüklərinin su sızdıran hissələri təmir edilmiş, məhkumlar üçün ayrılmış uzunmüddətli görüş otağı lazımi avadanlıqla təchiz edilmişdir. Ümumiyyətlə, qeyd olunan sahələrdə əsaslı təmir işlərinin aparılacağı planlaşdırılmışdır.

Bundan başqa, məhkumlarla görüşə gəlmiş qadınların üzərində axtarış aparılması hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuna həvalə edilmişdir.

Həmçinin qeyd olunmuşdur ki, məhkumların yaşadıqları yataqxanalar və digər binalar qış mövsümündə təyin olunmuş qaydada dizel yanacağı ilə qızdırılır. 2011-ci ildə hərbi hissənin təbii qazla təmin ediləcəyini nəzərə alaraq hazırkı qızdırılma qaydası müvəqqəti xarakter daşıyır.

Göstərilənlərlə yanaşı, həmçinin əlaqəli şəkildə aparılmış araşdırma ilə müəyyən olunmuşdur ki, İntizam xarakterli hərbi hissənin yerləşdiyi kənd ümumiyyətlə təbii qazla təmin olunmur. Bu səbəbdən Müvəkkil həmin kəndin tərkibində olduğu rayonun İcra Hakimiyyətinin başçısına sözü gedən kəndin və orada yerləşən hərbi hissənin təbii qazla təminatına dair nəzərdə tutulmuş tədbirlərin sürətləndirilməsində yardımçı olması barədə müraciət etmişdir.

İntizam xarakterli hərbi hissənin yerləşdiyi rayonun İcra Hakimiyyətindən daxil olmuş məktubda qeyd olunan məsələnin həlli ilə əlaqədar 2005-ci ildən başlayaraq müəyyən tədbirlər görüldüyü diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, həmin kənd ümumiyyətlə müstəqillikdən əvvəlki dövrdən qazlaşdırılmamışdır. Bununla əlaqədar müvafiq məktublarla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciətlər edilmiş, kəndin qazlaşdırılmasına köməklik göstərilməsi xahiş edilmişdir. Müraciətlərdən sonra "Azəriqaz" QSC-yə verilmiş tapşırıq əsasında Azərbaycan Elmi Tədqiqat Layihə Qaz institutu tərəfindən lazımi tədqiqat işləri aparılmış və layihə-smeta sənədləri hazırlanmışdır. Müraciətlərlə əlaqədar "Azəriqaz" QSC qeyd olunan işlərin icrasına rayon üzrə verilən təbii qazın ödənişindən daxil olan vəsaitin həcmi imkan vermədiyinə görə "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən tərtib olunmuş Tədbirlər Planı çərçivəsində 2009-2013-cü illər ərzində həyata keçiriləcəyini bildirmişdir.

### *3.1.5. Təhsil Nazirliyinin müəssisələri*

TN-nin MPM-in yurisdiksiyasının şamil olunduğu 41 müəssisəsi vardır. Bu müəssisələrə Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi, Quba xüsusi peşə məktəbi və digər internat müəssisələri və uşaq evləri aiddir (bax: Əlavə 1).

Artıq qeyd olunduğu kimi, MPM tərəfindən TN-nin müvafiq müəssisələrində 2009-cu ildə 6, 2010-cu ildə isə 4 başçəkmə həyata keçirilmişdir. Xüsusi diqqət göstərilməsini tələb edən Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi və Quba xüsusi peşə məktəbi ilə yanaşı digər internatlarda və uşaq evlərində də başçəkmələr həyata keçirilmiş, oradakı şərait, uşaqların təhsili, qidalanması, onlara göstərilən tibbi yardımın və asudə vaxtlarının təşkili vəziyyəti diqqət mərkəzində saxlanılmışdır.

Başçəkmələr zamanı toplanmış məlumatlar üzrə aparılmış ümumiləşdirməyə əsasən qeyd etmək olar ki, baxış keçirilmiş müəssisələrdəki ümumi vəziyyət, yaşayış şəraiti, eləcə də uşaqlarla rəftar qənaətbəxş səviyyədə təşkil olunmuşdur və ümumilikdə standartlara cavab verir.

Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində aparılan başçəkmə zamanı bir sıra nöqsanlar da aşkar edilmişdir.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisədəki uşaqların su içməsinin təmin olunması üçün məktəbdəki sinif otaqlarında su bakı və bütün sinfin istifadəsi üçün nəzərdə tutulmuş bir stəkan qoyulmuşdur ki, sinifdəki bütün uşaqlar həmin stəkan vasitəsilə su içirlər (bax: Əlavə 4, şəkil 32). Göstərilən halın qeyri-məqbul olması başçəkməni həyata keçirən qrup tərəfindən müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır və bu hal aradan qaldırılmışdır (birdəfəlik stəkanlardan istifadə olunması tövsiyə edilmişdir)

Sözü gedən müəssisədə aşkar olunmuş digər hal kimi, yeni hamamın istifadəyə tam hazır və yararlı olmasına baxmayaraq, uşaqların hələ də köhnə və qeyri-qənaətbəxş vəziyyətdə olan hamamda çimmələri olmuşdur (bax: Əlavə 4, şəkil 35-36). Müəssisə rəhbərliyi bunu yeni hamamın həddindən artıq sürüşkən olması ilə əlaqələndirmiş, lakin başçəkməni həyata keçirən əməkdaşların iradından sonra göstərilən halın aradan qaldırılacağını və köhnə hamamın ləğv ediləcəyini bildirmişdir.

### *3.1.6. Səhiyyə Nazirliyinin müəssisələri*

SN-nin MPM-in yurisdiksiyasının şamil olunduğu 22 müəssisəsi vardır. Bu müəssisələrə psixiatriya xəstəxanaları, ruhi-əsəb dispanserləri, Psixonevroloji uşaq evi və digər uşaq və körpə evləri aiddir (bax: Əlavə 1).

Artıq qeyd olunduğu kimi, MPM tərəfindən SN-nin müvafiq müəssisələrində 2009-cu ildə 4, 2010-cu ildə isə 11 başçəkmə həyata keçirilmişdir.

Psixonevroloji uşaq evində həyata keçirilmiş başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisə üçün Heydər Əliyev Fondu tərəfindən müasir standartlara uyğun yeni bina inşa edilmiş, tibbi, psixoloji, fizioloji kabinetlər və masaj otağı xəstə uşaqların ehtiyaclarına uyğun avadanlıqlarla, müasir mebellə və vəsaitlərlə təmin olunmuşdur. Mətbəx yüksək səviyyədə qurulmuş, müəssisənin ətrafında və həyətində yaşıl ot örtüyü salınmış, fontan quraşdırılmış, təmizlik, abadlıq yaradılmışdır. Başçəkmə zamanı həmçinin uşaqların reabilitasiyası üçün zəruri şəraitin yaradıldığı, ixtisaslaşmış mütəxəssislərin xəstə uşaqlara müvafiq tibbi və psixiatriya yardımı göstərdikləri, idman, xüsusi trenajor və peşə hazırlığı terapiyası ilə müalicə edildiyi müəyyən olunmuşdur. Başçəkmə qrupuna rəhbərlik edən Müvəkkil ruhi xəstə uşaqların qayğı və diqqətlə əhatə edilməsinin zəruriliyini, onların ünsiyyətə ehtiyacı olduğunu önə çəkmiş, tibb işçilərinə xəstələrə xoş rəftar göstərməyi, onlarla son dərəcə nəzakətlə davranmağı tövsiyə etmişdir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, Avropa standartlarına əsasən, uşaq evlərində hər 6-7 nəfər əqli qüsurlu uşağa bir dayənin, daha ciddi xəstəlikləri olan uşaqların isə hər 3 nəfərinə bir dayənin xidmət göstərməsinin nəzərdə tutulduğuna baxmayaraq, burada 18-20 belə uşağa bir xidmətçi təhkim edilmişdir. Bu səbəbdən, ilkin olaraq hər 7-10 nəfər belə uşaq üçün bir xidmətçinin nəzərdə tutulması və uşaq evləri və internat məktəblərində çalışanların iş şəraiti nəzərə alınaraq əmək haqlarının artırılması barədə Müvəkkil tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflər göndərilmişdir. Göstərilən məsələ Müvəkkil tərəfindən həmçinin dövlət büdcəsinin müzakirəsi zamanı da qabardılmışdır.

SN-nin müvafiq müəssisələrində həyata keçirilən başçəkmələr zamanı bir

sıra müsbət hallar, yeniliklər qeydə alınsa da, bəzi kobud qüsur və nöqsanlar, çatışmazlıqlar və qanun pozuntularına yol verilməsi halları da aşkar edilmişdir.

1 saylı Respublika Psixiatriya Xəstəxanasında və Məhkəmə-Psixiatrik Ekspertiza Mərkəzində həyata keçirilmiş başçəkmə zamanı mərkəzin binasının yeni istifadəyə verildiyi və şəraitinin müasir standartlara uyğun olduğu müəyyən edilmişdir. Mərkəzdə saxlanılan 17 nəfər şəxslə edilmiş söhbət zamanı onlar saxlama şəraitindən və mərkəzin əməkdaşları tərəfindən onlara qarşı münasibətdən narazı olmadıqlarını, işgəncə və pis rəftara məruz qalmadıqlarını bildirmişlər.

1 saylı Respublika Psixiatriya Xəstəxanasında aparılan başçəkmə zamanı, orada 1400-dək xəstənin olduğu, onlardan 187-i barəsində məhkəmə qərarı ilə tibbi xarakterli məcburi müalicə təyin olunduğu müəyyən edilmişdir. Təqdirəlayiq haldır ki, xəstəxanada yeməkxana, qazanxana, camaşırxana və hamam tikilib istifadəyə verilmiş və lazımi avadanlıqla təchiz edilmişdir.

Ümumi qaydada saxlanılan xəstələr üçün nəzərdə tutulmuş müxtəlif şöbələrə baxış zamanı korpuslarda xəstə sıxlığı, yaşayış və müalicə üçün qeyri-kafi şərait, antisanitariya, işıqlanma sisteminin zəif olması və havalandırmanın qeyri-qənaətbəxş olması müəyyən edilmişdir. Xəstəxananın 5-ci, 6-cı və yaşlılar üçün nəzərdə tutulmuş şöbələrində xəstələr dəhlizdə qoyulmuş çarpayılarda yatırlar. Sanitar qovşaqlar tamamilə yararsız vəziyyətdədir. Xəstələrin qida qəbul etməsi üçün nəzərdə tutulmuş yemək masalarının sayının azlığı, eləcə də müəssisədə müalicə alan şəxslərin asudə vaxtlarını keçirmələri üçün müvafiq şəraitin olmadığı diqqəti cəlb etmişdir. Daha acınacaqlı vəziyyət isə, həmin şöbələrin təcridetmə otaqlarında qeydə alınmışdır. Sözü gedən otaqlarda yalnız giriş qapısının mövcud olması və işıqlanma və ya havalandırma üçün pəncərələrin olmaması, habelə yüksək dərəcədə rütubətə malik olmaları qeydə alınmışdır.

5-ci şöbənin təcridetmə otağına baxış zamanı müəyyən edilmişdir ki, xəstələr A.İ. və S.K. birbaşa döşəmə üzərinə qoyulmuş, ayaqları olmayan çarpayıda yatırlar. Otağın divarları natəmiz, döşəməsi isə çürük və ya qırıq haldadır. Həmin xəstələr uzun müddət orada saxlanılmaqla təmiz havaya çıxarılmırlar. Həmçinin qeyd olunmalıdır ki, otaqda sanitar qovşağı mövcud

olmadığından xəstələr öz təbii ehtiyaclarını otağın bir küncündə qoyulmuş vedrədən istifadə etməklə təmin edirlər.

Məhkəmə tərəfindən tibbi xarakterli məcburi müalicə təyin olunmuş şəxslərin saxlanıldığı xüsusi şöbəyə baxış zamanı binanın 2-ci mərtəbəsinin yararsız halda olduğu üçün istifadə edilmədiyi müəyyən edilmişdir. Şöbənin ciddi rejimli bölməsində də saxlama şəraitinin qənaətbəxş olmadığı, bir neçə otaqda pəncərələrin ümumiyyətlə açılmaması səbəbindən hava çatışmazlığının, rütubətin, kəskin, xoşagəlməz qoxunun olduğu, təcridetmə otaqlarının isə yararsız olduğu aşkar edilmişdir. Xüsusi şöbənin digər ümumi bölməsində isə təmir işlərindən sonra nisbətən normal şəraitin olduğu müəyyən edilmişdir.

Beləliklə, araşdırma zamanı, xəstələrin göstərilən şəraitdə saxlanılmasının milli və beynəlxalq hüquq normalarının tələblərinə uyğun olmadığı müəyyən edilmişdir. Bu cür şərait onların qeyri-insani rəftara məruz qalmasına dəlalət edir. Başçəkmə zamanı həmçinin məlum olmuşdur ki, tibbi xarakterli məcburi tədbirlərə cəlb edilmiş şəxslərin xəstəxanada saxlanılması qaydalarını tənzimləyən xüsusi normativ akt mövcud deyil və bu səbəbdən həmin şəxslərin təcridetmə otağına salınması və orada saxlanılması müddəti, həmçinin, gəzintiyə çıxarılması, hamama aparılması və s. hüquqlardan istifadə imkanı həkimlərin subyektiv rəyi əsasında müəyyənləşdirilir. Məsələn, xüsusi şöbədə saxlanılan şəxslər həftənin yalnız 1, 3 və 5-ci günləri gəzintiyə çıxarılırlar.

Aşkar olunmuş faktlarla əlaqədar, psixi pozuntusu olan şəxslərin sanitariya-gigiyena tələblərinə cavab verən şəraitdə psixiatriya yardımı almaq hüququnun təmin edilməsi və minimum standartlara cavab verən şəraitdə saxlanılması məqsədi ilə, qanun pozuntularına yol verilmiş xəstəxanalarda şəraitin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsi, orada saxlanılan şəxslərin ləyaqətinin alçaldılmasına yol verilməməsinin təmin edilməsi və aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə Nazirliyinə müraciət ünvanlanmışdır.

Müraciət üzrə nazirlikdən daxil olmuş məlumata əsasən, 1 saylı Respublika Psixiatriya Xəstəxanasında böyük həcmdə tikinti və əsaslı təmir işləri həyata keçirilmiş, bir neçə şöbə, həmçinin xəstəxananın digər hissələri

müasir səviyyədə, əsaslı təmir olunmuşdur. Xəstəxananın qida bloku əsaslı təmir olunmuş, yeni müasir avadanlıqla təchiz olunaraq istifadəyə verilmişdir. Uzun illər ərzində bərbad və istifadəyə yarasız olan xəstəxananın ümumi hamamı tam bərpa olunaraq fəaliyyətə başlamış və gündəlik 200 nəfər xəstə buraxılış imkanına malikdir. Xəstəxananın camaşırxanası yenidən qurularaq tam gücü ilə işləməyə başlamışdır.

Xəstəxana SN tərəfindən 5 illik əsaslı təmir proqramına salınmışdır ki, bu proqrama əsasən yaxın gələcəkdə bir neçə binanın, o cümlədən məcburi müalicə təyin olunmuş şəxslərin saxlandığı şöbənin də əsaslı təmiri nəzərdə tutulmuşdur.

Xəstəxana ərazisi illərlə yığılıb-qalan tullantılardan, yabanı şəkildə bitən lazımsız ağac və kollardan, daş-kəsəkdən təmizlənmişdir. Ərazidə qısa müddət ərzində 4160 ədəd müxtəlif növ meyvə və dekorativ ağaclar əkilmişdir. Xəstəxananın giriş hissəsindən inzibati korpusadək olan yolun hər iki tərəfində çoxsaylı gül kolları əkilmişdir.

Xəstəxananın bütün ərazisində projektorlar quraşdırılmışdır ki, bu da ərazinin mühafizə problemlərini xeyli asanlaşdırmışdır. Ərazinin daş hasarlarının uçulub dağılan hissələri tikilərək bərpa olunmuş, asfalt örtüyünün yararsız hala düşmüş hissələri yeni asfaltla örtülmüşdür. Ərazidə zibilqəbuledici quraşdırılmışdır ki, bu da yığılıb qalmış zibil və tullantıların təmizlənərək daşınmasına xidmət edir. Xəstəxananın ərazisində xəstələrin istirahəti üçün həyətlərin abadlaşdırılması prosesi davam edir və yeni parkın bünövrəsi qoyulmuşdur.

Uzun illər ərzində xəstəxananın istər şöbələrinin, istərsə də təsərrüfat hissəsinin su təchizatında böyük problemlər mövcud olmuşdur. Xəstəxanaya daim kənardan su gətirilmişdir ki, bu da suya olan ehtiyacı tam şəkildə ödəməmişdir. Hazırda ərazidə bir neçə su çəni quraşdırılmışdır ki, artıq şöbələr su ilə təmin olunur, əkilən ağac və güllər suvarılır. Uzun illər ərzində şöbələrə cəmi 2 saat müddətində su verildiyi halda, hazırda şöbələrin su ilə təminatı daimidir. Son zamanlar xəstəxananın ərazisində atılmış və içi tullantılarla dolmuş bir neçə köhnə quyular tapılmış, onların içi təmizlənmiş, ətrafları tikilərək istifadəyə yararlı vəziyyətə gətirilmiş və quyuların ağzı dəmir qapı ilə örtülərək ətrafı elektrik lampaları ilə işıqlandırılmışdır. Yaxın

gələcəkdə bu quyuların da suyundan istifadə edilməsi nəzərdə tutulur.

Xəstəxananın kanalizasiya sisteminin bərpa olunması məqsədilə, ərazidə bir neçə şambo tipli kanalizasiya çalaları qazılmış, içəri tərəfdən tikilərək yeni borularla təmin edilir.

Uzun illər xəstəxananın şöbələri və inzibati hissə elektrik qızdırıcıları ilə isidilirdi ki, bu da bəzən arzuolunmaz hallara gətirib çıxarır, böyür elektrik enerjisi sərfinə səbəb olurdu. Son iki il ərzində xəstəxanada iki qazanxana tikilmişdir ki, hazırda bütün korpuslar onlar vasitəsilə istiliklə təmin olunmuşdur.

Xəstələrin dərman preparatları və ərzaq məhsulları ilə təminatı sahəsində xeyli işlər görülmüş, istər dərman preparatları ilə təminatda, istərsə də onların çeşidinin artırılmasında müsbət dəyişikliklər baş vermiş və hazırda bu sahədə heç bir problem yoxdur.

Xəstələrin ərzaq məhsulları ilə təminatında illərlə mövcud olan problemlər aradan qaldırılmış və xəstələr keyfiyyətli qida məhsulları ilə təmin olunmuşlar. Xəstələr həmçinin mövsümə uyğun olaraq xəstəxana paltarları və şəxsi gigiyena vasitələri ilə təmin olunmuşlar. Xəstələrin məişət problemlərinin həlli istiqamətində, hər şöbədə təklif və şikayətlərin qəbulu məqsədilə qutular asılmasını, eləcə də əksər şöbələrə radio və televizorların qoyulmasını da müsbət hal kimi göstərmək olar.

Mütəxəssislər tərəfindən, beynəlxalq standartlara uyğun olaraq, xəstəxanaya qəbul olunan xəstələr üçün müalicə məlumatlı razılıq forması, xəstəxanadan çıxarkən tam müalicənin alınması barədə məlumat forması və müalicənin könüllü dayandırılması barədə forma işlənib hazırlanmış və hazırda bu formalar xəstəxanada müvəffəqiyyətlə tətbiq olunur.

Həmçinin qeyd olunmalıdır ki, başçəkmə zamanı bir sıra şöbələrdə qeydə alınmış xəstələrin sıxlığının səbəbi, hər biri 80 çarpayılıq olan dörd şöbənin (9, 10, 11 və 12-ci) əsaslı təmirə bağlanması ilə əlaqədar idi. Hazırda təmir işləri başa çatmışdır və şöbələr istifadəyə verilmişdir.

Verilmiş təklif və tövsiyələrin həyata keçirilməsi vəziyyətinin və görülmüş işlərin yerində yoxlanılması məqsədilə SN-nin 1 saylı Respublika Psixiatriya Xəstəxanasında Müvəkkilin iştirakı ilə təkrar başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı xəstəxananın korpuslarına, o cümlədən yeni tikilmiş və

təmir olunmuş korpuslara baxış keçirilmiş, xəstələrin saxlanma şəraiti, müalicə prosesi öyrənilmiş, palatalarda xəstələrlə, eyni zamanda onlara baş çəkməyə gəlmiş yaxınları ilə söhbət aparılmış, müalicə, qidalanma, ərzaq və dərman preparatları ilə təminat məsələləri araşdırılmışdır. Araşdırma nəticəsində göstərilən istiqamətlər üzrə nəzərə çarpan dönüş yarandığı, əvvəlki vəziyyətlə müqayisədə xeyli müsbət dəyişikliklərin baş verdiyi müəyyən edilmişdir.

Müvəkkil görülmüş işlərin daha da təkmilləşdirilməsi məqsədilə SN-ə səhiyyə sahəsində həyata keçirilən islahatlar prosesində nəzərə alınması üçün müvafiq təklif və tövsiyələr ünvanlamışdır.

Qeyd olunmalıdır ki, Şəki Ruhi-Əsəb Dispanserində aparılan başçəmə zamanı da müəssisədəki şərait qeyri-kafi qiymətləndirilmişdir.

SN-dən verilmiş məlumata əsasən, Şəki Ruhi-Əsəb Dispanserində də bir sıra işlər görülmüşdür. Müəssisənin su təchizatı artezian tiplidir, tələbatı tam şəkildə ödəməsinə baxmayaraq, əlavə olaraq xəstəxananın həyətində 12 tonluq su çəni quraşdırılmışdır. Keçən müddət ərzində palataların işıqlandırılması əlavə işıqlandırma mənbələri hesabına gücləndirilmiş, xəstələrin şəxsi gigiyena qaydalarına tam şəkildə əməl etmələri məqsədilə, onların yuyunmaları üçün müvafiq şərait yaradılmış, həmin yerlərdə cari təmir işləri aparılmışdır. Şəxsi gigiyena vasitələri yeniləri ilə əvəz edilmiş və bu vasitələrin yerləşdirilməsi üçün müəssisə, Rayon Mərkəzi Xəstəxanası tərəfindən müvafiq mebellə təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir. Xəstələrin yataq dəstləri və xəstəxanadaxili geyimlərinin təzələnməsi məsələsi həll olunmuşdur. Xəstələrə verilən yeməyin çeşidinin artırılması və keyfiyyətinin yüksəldilməsi sahəsində də müəyyən işlər görülmüşdür.

Xəstəxanaya İşgəncələr Əleyhinə Avropa Komitəsinin tövsiyələri nəzərə alınaraq həmçinin diş həkimi işə götürülmüş, psixoterapiya kabineti yaradılmış, kiçik və orta tibb heyətinin maarifləndirilməsi və təlimatlandırılması məqsədilə “Ruhi xəstələrin xüsusiyyətləri və belə xəstələrlə davranış qaydaları” mövzusunda kiçik treninqlərin keçirilməsinə başlanılmışdır. Müəssisədə xəstələrin, onların valideynlərinin və qohumlarının şikayət və təkliflərinin qeydiyyatı işi nizama salınmışdır.

Cavab məktubunda həmçinin qeyd olunmuşdur ki, Şəki Ruhi-Əsəb

Dispanserinin yerləşdiyi bina XIX əsrin sonları – XX əsrin əvvəllərinə aid tikilidir. Dünya Bankının Krediti hesabına həyata keçirilən İslahatlar Layihəsi çərçivəsində Şəki rayonunda mərkəzi xəstəxana üçün yeni binanın tikintisi nəzərdə tutulmuşdur. Tikinti işləri tamamlandıqdan sonra Şəki Ruhi-Əsəb Dispanserinin mərkəzi xəstəxananın korpuslarından birinə köçürülməsi məsələsinə baxılacaqdır.

Gəncə şəhər Psixiatriya xəstəxanasında həyata keçirilmiş başçəkmə zamanı Müvəkkil tərəfindən aşkar olunan hallarla bağlı bir sıra təklif və tövsiyələr verilmişdir. Daha sonra tövsiyələrin icrası vəziyyətinin yoxlanılması məqsədilə adı çəkilən müəssisədə təkrar başçəkmə həyata keçirilmiş və vəziyyət araşdırılmışdır.

Xəstəxananın qadın şöbəsində beynəlxalq humanitar təşkilatın və SN-nin birgə dəstəyi ilə sanitar qovşaq yüksək səviyyədə təmir edildiyi, SN tərəfindən xəstəxanaya 18 ədəd təzə çarpayı, 40 ədəd döşək, 40 ədəd döşək ağı dəsti, 20 ədəd əl dəsmalı, 60 ədəd isti adyallar verildiyi məlum olmuşdur. Müəyyən edilmişdir ki, xəstəxananın ikinci şöbəsində istilik sistemi yenidən qurulmaqdadır və təmir işləri davam etdirilir.

Qazax rayonlararası Rubi-əsəb xəstəxanasına da başçəkmələr, o cümlədən təkrar başçəkmələr həyata keçirilmişdir. Sözü gedən müəssisədə də Müvəkklin tapşırıq və tövsiyələrinin icrası vəziyyəti araşdırılmış və müəyyən olunmuşdur ki, xəstəxananın ümumi vəziyyətinin yaxşılaşdırılması istiqamətində xəstəxanada daxili imkanlar hesabına mətbəxin foyesində hörgü işləri görülmüş, işıq sistemi dəyişdirilmiş, koridor və palatalarda, eləcə də tavanlarda rəngləmə işləri aparılmış, 6 ədəd qapı və 7 ədəd pəncərə yenisi ilə əvəz edilmiş, birinci və ikinci mərtəbələri birləşdirən pilləkən sürahi ilə təchiz edilmiş, döşəməyə metlax döşənmiş, tavanların örtüyü yenilənmiş və işıqlandırıcılar salınmışdır. Xəstəxananın dam örtüyünün əksər yerləri yenidən təmir olunmuş, yeni şiferlər döşənmişdir. 1-ci şöbənin təmir işləri başa çatdıqdan sonra, 2-ci şöbədə də təmir işlərinin görülməsinin nəzərdə tutulduğu bildirilmişdir.

MPM qrupu tərəfindən 2 saylı Kliniki psixiatriya xəstəxanasında həyata keçirilmiş başçəkmə zamanı bir sıra nöqsan və çatışmazlıqlar aşkar olunmuşdur. Belə ki, mövcud normativlərlə xəstələrin gündə bir dəfə gəzintiyə

çıxarılması nəzərdə tutulsa da, xəstəxananın həyəti olmadığından xəstələr qapalı şəraitdə saxlanılır. Bir neçə palatada hər xəstəyə aid şəxsi əşyalarını saxlamaq üçün dolab, psixososial reabilitasiya üçün əmək emalatxanası, operativ müalicəni təmin etmək üçün ginekoloq, stomatoloq yoxdur. Göstərilənlərlə yanaşı, həmçinin hesab edirik ki, xəstəxanada herontoloji şöbənin olması zəruridir. Eyni zamanda qeyd olunmalıdır ki, xəstələrin xəstəliklərin klinik və ağırlıq dərəcəsinə uyğun diferensiasiya aparılaraq yerləşdirilməsi məqsədəuyğundur.

Başçəkmə zamanı MPM Qrupunun üzvləri xəstəxananın sanitarının palatada çarpayıların arasında dar bir yerdə ibadət edən xəstənin qolundan tutaraq israrla ibadətdən ayrılmasını tələb etməsinin şahidi olmuşlar.

MPM Qrupu xəstələrin xəstəlik tarixçəsi ilə tanış olarkən aşkar etmişdir ki, 2 xəstə özünün razılıq ərizəsi olmadan hospitallaşdırılmışdır. Xəstəxana rəhbərliyinin bildirdiyinə görə, 48 saat ərzində qeyri-könüllü yerləşdirməni təmin etmək üçün məhkəmənin qərarını almaq çətinlik törədir.

Sadalananlarla bağlı Müvəkkil tərəfindən SN-ə müraciət ünvanlanmışdır.

Göstərilənlərlə yanaşı, hesab edirik ki, SN-nin sözü gedən müəssisələrində aşkar olunmuş bir sıra, təmirlə əlaqədar olmayan qüsurlar dərhal aradan qaldırılmalı, müəssisələrin fəaliyyətini tənzimləyən normativ baza formalaşdırılmalı və ya təkmilləşdirilməli, eləcə də bu fəaliyyətə nazirlik tərəfindən nəzarət artırılmalıdır.

### *3.1.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri*

ƏƏSMN-nin MPM-in yurisdiksiyasının şamil olunduğu 10 müəssisəsi vardır. Bu müəssisələrə ahıllar və əlillər üçün internat evləri və pansionatlar aiddir (bax: Əlavə 1).

Artıq qeyd olunduğu kimi, 2010-cu il ərzində ƏƏSMN-nin müvafiq müəssisələrində MPM tərəfindən 8 başçəkmə həyata keçirilmişdir.

3 saylı internat evində həyata keçirilən başçəkmə zamanı burada saxlanılan uşaqların saxlanma şəraiti, qida təminatı, yataq yerləri, məşğələ otaqları və digər obyektlər yoxlanılmış və məlumatlar toplanılmışdır. Danışa bilən uşaqlarla söhbət zamanı onlar saxlanılma şəraitindən şikayət etməmişlər.

Başçəkmə zamanı göstərilən müəssisədə ciddi pozuntu aşkar edilmişdir.

Belə ki, burada nəzərdə tutulmuş limitdən 2 dəfə çox uşağın saxlanıldığı, həmin uşaqların, yəni 24 uşağın 12 çarpayıda yatdığı müəyyən edilmişdir. Müəssisənin direktoru bunun səbəbinin müəssisədə aparılan təmir işləri və 7 saylı internat evindən olan uşaqların burada müvəqqəti yerləşdirilməsi ilə izah etmişdir.

Müvəkkil aşkar edilmiş pozuntunun dərhal aradan qaldırılması tələbi ilə ƏƏSMN-ə müraciət etmişdir.

Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, 3 və 7 saylı internat evlərində Heydər Əliyev Fondunun dəstəyi ilə təmir işləri həyata keçirildiyinə görə 7 saylı internat evinin bir qrup uşağı 3 saylı internat evinə köçürülmüşdür və bununla bağlı ilk iki həftə ərzində 3 saylı internat evində uşaqlara təşkil olunan şəraitdə bir sıra çətinliklər yaranmışdır. Həmin çətinliklərin aradan qaldırılması üçün 3 və 7 saylı internat evlərinin rəhbərləri tərəfindən müvafiq işlər həyata keçirilir.

ƏƏSMN tərəfindən məsələyə bu cür qeyri-adekvat yanaşılması təəssüf doğurur. Hesab edirik ki, heç bir təmir və ya köçürülmə uşaqların bir çarpayıda iki nəfər olmaqla yatmağa vadar edilməsinə bəraət qazandıra bilməz. Köçürülmə və ya müvəqqəti yerləşdirilmə zamanı göstərilən hallar əvvəlcədən nəzərə alınmalı, çarpayılar da buraya daşınaraq zəruri şərait yaradılmalı idi. Sözü gedən məsələlərə məsul olan şəxslər, gələcəkdə bu kimi hallara yol verməsinin qarşısının alınması məqsədilə, müvafiq məsuliyyətə cəlb olunmalıdırlar.

MPM Qrupu tərəfindən ƏƏSMN-nin Müharibə və əmək əlilləri üçün pansionatına da başçəkmə həyata keçirilmişdir. Baxış zamanı buradakı şəxslərin saxlanma şəraiti araşdırılmış, eləcə də pansionatın sakinləri olan ahıllar və əlillərlə təkbətək söhbətlər aparılmışdır.

Qeyd etmək lazımdır ki, başçəkmə zamanı sözü gedən müəssisənin rəhbərliyi tərəfindən MPM Qrupu üçün zəruri şərait yaradılmamış, baxış keçirilməsi nəzərdə tutulan bəzi obyektlərin qapılarının açılmasından, açarın tapılmaması bəhanəsi ilə boyun qaçırılmış, MPM Qrupu heç bir ehtiyac olmadan gözlədilməklə izafi vaxt itkisinə yol verməyə vadar edilmiş, habelə sakinlərlə baş tibb bacısının otağında aparılan təkbətək söhbətlərə müəssisə rəhbərliyi tərəfindən, dəfələrlə otağa daxil olaraq şərhlər verməklə müdaxilələr

edilmişdir.

Göstərilən hallar yolverilməzdir və gələcəkdə bu kimi halların təkrarlanmasının qarşısının alınması məqsədilə müvafiq məsuliyyət tədbirlərinin tətbiq olunması zəruridir.

Başçəkmə zamanı pansionatın sakini E.A. MPM Qrupuna müraciət edərək, 6 aydır ki, pansionatda yaşadığını, müəssisənin baş tibb bacısı Z.Zeynalova tərəfindən ona qarşı pis rəftara yol verildiyini, onu tibb məntəqəsinə buraxmadığını bildirmişdir. Bu zaman MPM Qrupunun üzvləri E.A.-nın sözü gedən baş tibb bacısı tərəfindən kobudluğa və nəzakətsiz davranışa məruz qaldığının şahidi olmuşlar. Belə ki, Z.Zeynalova MPM Qrupuna məhəl qoymadan, peşə etikasına yaraşmayan ifadələrlə E.A.-nı susdurmağa çalışmış, çoxillik əmək stajını əsas gətirərək heç kəsdən qorxmadığını israrla bildirmişdir. MPM Qrupunun üzvləri həm E.A., həm də baş tibb bacısı ilə sonuncunun xidməti otağında ayrı-ayrılıqda, təklikdə söhbət etmiş, müvafiq tövsiyələr vermişlər. Qeyd etmək lazımdır ki, baş tibb bacısı Z.Zeynalovanın otağının antisanitar vəziyyətdə, qəbul edilən şəxslərin uzanması üçün nəzərdə tutulan koykanın toz içində, habelə onun üstündə çoxsaylı milçək ölülərinin olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı həmçinin məlum olmuşdur ki, müəssisədəki sakinlər arasında tez-tez konfliktlər baş verir. Bu, pansionatda psixoloji işin düzgün qurulmadığından xəbər verir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, adı çəkilən pansionatın sakinləri gün ərzində pansionatın ərazisini tərk etmələri üçün icazə almalıdırlar.

Sakinlərin yaşayış şəraiti araşdırılarkən aşkar olunmuşdur ki, müəssisənin yerləşdiyi binaların əsaslı təmirə ehtiyacı var.

Başçəkmə zamanı həmçinin məlum olmuşdur ki, pansionatda əlillərin istifadəsi üçün nəzərdə tutulmuş tualetlər və vanna otağı, eləcə də əlçatan taksofonlar yoxdur. Əlil, köməyə ehtiyacı olan insanlar sağlam insanlarla bir otaqda yerləşdirilirlər ki, sonuncuların könüllü köməyindən istifadə olunsun. Bu, tibb personalının, sanitarların çatışmazlığı ilə izah olunur.

Otaqlara baxış keçirilərkən məlum olmuşdur ki, bəzi otaqlarda gigiyenik normalara riayət edilmir. Xadimə və sanitarların məvaciblərinin azlığı xəstələrə qulluq etmək istəyən işçilərin işə qəbulunda seçim etmək imkanını

məhdudlaşdırır. Başçəkmə zamanı pansionatda ümumiyyətlə işçi heyətin sayının adekvat nəzərdə tutulmadığı müəyyən edilmişdir.

Aparılan söhbətlər zamanı sakinlər tərəfindən qidalanma məsələsində problemin olmadığı bildirilmişdir. Onların sözlərinə görə, hər gün tərkibində ət olan xörəklər verilir. Lakin müəssisədə diyetoloqun olmaması xəstələrin, o cümlədən şəkər xəstəliyindən əziyyət çəkənlərin pəhriz yeməkləri ilə qidalanmasını qeyri-mümkün edir.

Göstərilənlərlə yanaşı qeyd olunmalıdır ki, sözü gedən pansionatın sakinlərinin cəmiyyətlə təmaslarının təkmilləşdirilməsi, psixoloji dəstəyin gücləndirilməsi, habelə onların mümkün hallarda yaxınları ilə əlaqələrinin bərpa olunması və ailələrinə qayıtmaları üçün müvafiq sistematik tədbirlərin həyata keçirilməsi zəruridir.

Başçəkmənin sonunda aşkar olunmuş nöqsan və çatışmazlıqlarla əlaqədar irad və tövsiyələr müəssisənin direktoruna bildirilmiş, həmçinin müvafiq milli və beynəlxalq sənədlərin tələbləri ilə tanış olması, eləcə də tabeliyində olan işçilər arasında hüquqi-maarifləndirmə işlərini aparması tövsiyə edilmişdir.

ƏƏSMN-nin əsasən ahıllar evi kimi fəaliyyət göstərən Müharibə və əmək əlilləri üçün pansionatının vəziyyəti qarşıdan gələn dövrdə də Müvəkkil tərəfindən diqqət mərkəzində saxlanılacaq.

### *3.2. Müraciət və məlumatların araşdırılması*

Ünvanına daxil olmuş müraciət və digər məlumatların bilavasitə yerində və yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması Müvəkkilin işgəncələrlə mübarizə sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. Belə ki, Müvəkkilin poçt və elektron poçt ünvanına, qaynar xətlərinə daxil olmuş, eləcə də həyata keçirilən qəbul və başçəkmələr zamanı verilmiş müxtəlif ərizə və şikayətlərin, o cümlədən Müvəkkilin aparatına və regional mərkəzlərinə daxil olmuş müvafiq məlumatların, KİV-də dərc olunmuş aidiyyəti materialların araşdırılması həyata keçirilmişdir.

2009-2010-cu illər ərzində Müvəkkilin ünvanına işgəncələrlə bağlı daxil olmuş ərizə və şikayətlərin, eləcə də digər məlumatların araşdırılmasının təhlili onu deməyə əsas verir ki, araşdırma formasından asılı olmayaraq, bəzi

hallarda zorakılıq əlamətlərinin müəyyən edilməsinə baxmayaraq, bu halın tam sübuta yetirilməsi, dəlillərin azlığı və ya yoxluğu səbəbindən mümkün olmur. Əyani misalı nəzərdən keçirək.

İctimai təşkilatlardan birindən daxil olmuş məlumatda R.P. Sumqayıt ŞPİ-nin əməkdaşları tərəfindən 5 mart 2010-cu il tarixdə tutulduğu, bunun yalnız 2 gündən sonra, yəni 7 mart 2010-cu il tarixdə rəsmiləşdirildiyi, göstərilən müddət ərzində onun və onunla birgə tutulan digər iki şəxsin ŞPİ-də qeyri-qanuni saxlanıldığı, törətmədikləri cinayəti etiraf etmələrinə nail olmaq məqsədi ilə işgəncələr verildiyi və nəticədə etirafedici ifadələrin alındığı, habelə həmin şəxslər barəsində Sumqayıt Şəhər Məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilərkən R.P.-nin bədənində xəsarət izləri olduğu aşkar edildiyindən, prosesdə iştirak edən Sumqayıt şəhər prokurorunun müavini işgəncə faktlarının araşdırılacağını bildirsə də hər hansı araşdırma aparılmadığı, eləcə də təqsirləndirilən şəxslərin ekspertizadan keçirilməsi ilə bağlı verilmiş vəsatətin nəticəsiz qaldığı bildirilmişdir.

R.P. və onunla birlikdə ittiham olunan digər təqsirləndirilən şəxslər saxlanıldıqları PX 3 saylı İs.T-də başçəkmə həyata keçirən MPM Qrupunun üzvləri tərəfindən təklikdə qəbul olunmuşlar. Söhbət zamanı R.P. və İ.F. ŞPİ-də polis əməkdaşları tərəfindən xidməti otaqlarda döyüldüklərini, bədənlərinə elektrik cərəyanı yeridildiyini və məruz qaldıqları işgəncələr nəticəsində özlərinə və bir-birinə qarşı ittihamedici ifadələr verməyə məcbur olduqlarını bildirmişlər.

R.P.-nin bədən səthinə baxış zamanı sağ əlinin bilək nahiyəsində dairəvi yaranın, sol əlinin bilək nahiyəsində isə 2 ədəd yanıq izinin olduğu müəyyən edilmişdir. O bildirmişdir ki, sağ əlindəki xəsarət əl qandalının tətbiqi zamanı yaranmışdır, digər xəsarətlər isə elektrik cərəyanının izləridir və hər iki yara polis idarəsində saxlanılarkən verilən işgəncələr nəticəsində meydana gəlmişdir.

R.P.-nin sənədləri ilə tanış olduqda müəyyən edilmişdir ki, 07 mart 2010-cu il tarixdə Sumqayıt ŞPİ MST-yə qəbul edilərkən MST əməkdaşlarının tərtib etdikləri aktda R.P.-nin üzərinə baxış zamanı bədənində çoxlu sayda yaraların, həmçinin qarnının sağ və sol nahiyəsində qızartıların aşkar olunduğu və özünün dediyinə görə, bu yaraların polisə gətirilməmişdən əvvəl aldığı barədə

qeyd edilmişdir. PX 3 saylı İs.T.-ə qəbul edilərkən ƏN Tibb baş idarəsinin əməkdaşlarının R.P barəsində tərtib etdikləri Məhkumun Tibb Kitabçasında isə "sol qolunda dəri ləkəsi aşkar olundu. Dediyinə görə polis şöbəsində siqaretlə qolunu yandırmışlar" göstərilmişdir.

Məsələ ilə əlaqədar göstərilən halların tam və hərtərəfli araşdırılması, faktla bağlı müvafiq tədbirlərin görülməsi, məhkəmə-tibb ekspertizasının keçirilməsi, təqsirkar şəxslərin müvafiq məsuliyyətə cəlb olunmasının təmin olunması barədə Müvəkkil tərəfindən Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət ünvanlanmışdır.

Müraciətə verilmiş cavab məktubunda bildirilmişdir ki, R.P.-ya işgəncə verilməsi və s. qanunsuzluqlar barədə Sumqayıt şəhər prokurorluğunda ayrıca icraatda araşdırma aparılmış və nəticədə göstərilən xüsusatlar öz təsdiqini tapmamışdır. Polis əməkdaşlarının hərəkətlərində cinayət tərkibi olmadığından toplanmış material üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilmişdir. Cavab məktubunda həmçinin bildirilmişdir ki, Sumqayıt ŞPİ-nin müvafiq əməkdaşlarının fəaliyyətində aşkar olunmuş nöqsanlarla əlaqədar intizam məsuliyyətinə cəlb olunmaları barədə Sumqayıt şəhər prokuroru tərəfindən təqdimat verilmişdir.

Müvəkkil məsələnin sonrakı inkişafını da diqqət mərkəzində saxlamışdır. Bir neçə gündən sonra Sumqayıt Şəhər Məhkəməsi R.P.-nin vəkilinin cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən verdiyi şikayətə baxarkən (vəkil öz şikayətində həmçinin məsələ ilə bağlı Müvəkkilə də müraciət etməsinə, hüquqlarını müdafiə etdiyi şəxsin MPM Qrupu üzvləri tərəfindən qəbul olunmasına, habelə Müvəkkilin məsələnin araşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət ünvanlamasına, göstərilənlər barədə Aparatın yayımladığı mətbuat xülasəsinə də istinad etmişdir), ekspert rəylərini də nəzərə alaraq qəbul etdiyi qərarda R.P.-nin istintaq zamanı işgəncəyə və zorakı rəftara məruz qalması faktının mövcud olduğu qənaətinə gələrək faktın araşdırılmasını Sumqayıt şəhər prokurorluğuna həvalə etmişdir. Qərardan narazı qalan Sumqayıt şəhər prokurorluğunun verdiyi apellyasiya protestinə aidiyyəti üzrə Sumqayıt Apellyasiya Məhkəməsində baxılmış və birinci instansiya məhkəməsinin R.P.-nin istintaq zamanı işgəncəyə və zorakı rəftara məruz qalması faktının

müəyyən edilməsinə dair qərarı dəyişdirilmədən qüvvədə saxlanılmışdır (eyni zamanda qeyd olunmalıdır ki, Sumqayıt Şəhər Məhkəməsinin R.P. barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılmasına dair Sumqayıt şəhər prokurorunun təqdimatının təmin edilməməsi barədə digər qərarı da Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən dəyişdirilmədən qüvvədə saxlanılmış və o, həbsdən azad olunmuşdur).

Sumqayıt Apellyasiya Məhkəməsinin qərarının göstərilən məsələ üzrə qəti qərar hesab olunduğu nəzərə alınaraq, Sumqayıt şəhər prokurorluğuna həvalə olunmuş araşdırmanın nəticələri barədə məlumat təqdim olunmasından ötrü Müvəkkil tərəfindən həmin prokurorluğa sorğu göndərilmişdir. Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, R.P.-nin Sumqayıt ŞPİ-də polis əməkdaşları tərəfindən işgəncə və zorakılığa məruz qalması barədə şikayətlə əlaqədar DİN-də xidməti təhqiqatla araşdırma aparılmış, göstərilən hallar öz təsdiqini tapmamışdır. Cavab məktubunda həmçinin bildirilmişdir ki, qeyd olunan xüsusat üzrə Sumqayıt şəhər prokurorluğunda aparılan araşdırma zamanı R.P.-nin Sumqayıt ŞPİ MST-yə qəbul edilərkən bədəni üzərində aşkar olunmuş sıyrıq və zədələrin Sumqayıt ŞPİ-nin polis əməkdaşları tərəfindən törədildiyi sübuta yetməmiş və həmin zədələrin MST-yə gətirilənə qədər aldığı müəyyən edildiyi üçün toplanmış material üzrə cinayət işi başlanması rədd edilmişdir.

Uzun müddət həm beynəlxalq qurumlar, həm də yerli hüquq müdafiəçiləri tərəfindən problem kimi qabardılan heç kəsin işgəncəyə yol verməyə görə məsuliyyətə cəlb olunmaması məsələsi həqiqətən də narahatlıq doğurur. Göstərilənlərlə bağlı Müvəkkil tərəfindən aidiyyəti qurumlarla məsləhətləşmələr, müzakirələr aparılmış, vəziyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsinin zəruriliyi ön plana çəkilmişdir. Müvəkkil qeyd olunanlarla bağlı, həmçinin obyektiv araşdırıldığı şübhə doğuran halların təkrarən hərtərəfli, tam və obyektiv araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət etmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğundan bildirilmişdir ki, BMT-nin İşgəncələrə qarşı Komitəsinin 43-cü sessiyasında “İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya” üzrə Azərbaycan Respublikasının 3-cü dövri hesabatının

müzakirəsi zamanı adı çəkilən Komitə üzvləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 133-cü maddəsində müəyyən edilmiş işgəncə vermənin anlayışının sözü gedən konvensiyanın 1-ci maddəsinə tam uyğun olmadığını nümayəndə heyətimizin nəzərinə çatdırmışlar. Belə ki, Konvensiyanın 1-ci maddəsindən fərqli olaraq, işgəncənin mövcud olan motivlərindən birini səciyyələndirən "hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hansısa səbəbə görə" sözlərinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 133.3-cü maddəsinin dispozisiyasında əks olunmaması Komitə üzvləri tərəfindən Konvensiya tələblərinin tətbiqində çətinliklər yaradan amil kimi dəyərləndirilərək, nümayəndə heyətimizə 133.3-cü maddənin dispozisiyasının həmin tələblərə uyğunlaşdırılması tövsiyə edilmişdir. Cinayətin subyekti qismində vəzifəli şəxsi və ya onun təhriki ilə hərəkət edən şəxsi nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 133.3-cü maddəsinin "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın müddəalarına tam uyğunlaşdırılması zərurəti nəzərə alınaraq həmin maddənin daha çox məişət zorakılığına aid olan 133.1 və 133.2-ci maddələrdən fərqləndirilməsi, yəni ayrıca norma kimi təsbit edilməsinin məqsədəmüvafiqliyi barədə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən müvafiq təkliflər hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

Həmçinin bildirilmişdir ki, hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 133.3-cü maddəsində göstərilən əməllərin işgəncə cinayəti kimi qiymətləndirilməsi üçün bu cür hərəkətlər mütəmadi xarakter daşımalı olduğundan, həmin maddə ilə konkret şəxs cinayət məsuliyyətinə cəlb olunmamışdır. Amma bu heç də o demək deyildir ki, insan hüquq və azadlıqlarını kobud surətdə pozan, döymə, təhqir, digər qeyri-insani rəftara yol verən hüquq-mühafizə orqanları əməkdaşları ümumiyyətlə məsuliyyətdən kənarda qalırlar. Hazırda belə əməllər vəzifə səlahiyyətlərini aşma və ya vəzifədən sui-istifadə etmə nəticəsində fiziki və ya hüquqi şəxsin hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurma kimi tövsif olunaraq həmin şəxslərin məsuliyyətə cəlb olunması təmin olunur.

Yuxarıda təklif olunan dəyişikliklər Azərbaycan Respublikası Cinayət Məcəlləsində öz əksini tapdıqdan sonra göstərilən şəxslərin qeyd olunan

maddə ilə cinayət məsuliyyətinə cəlb olunmaları təmin ediləcəkdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğundan həmçinin müvafiq qaydada aparılmış təkrar araşdırmalar və nəticələri barədə də ətraflı məlumat verilmişdir. Məlum olmuşdur ki, bəzi hallarda cinayət işinin rədd edilməsi barədə əvvəllər yerlərdə qəbul olunmuş qərarlar ləğv edilərək təkrar araşdırma aparılmasına başlanılmış, bəzi hallarda isə cinayət işi başlanaraq istintaq aparılması barədə qərarlar qəbul edilmişdir.

Araşdırmaların nəticələri Azərbaycan Respublikasının Baş Prokurorluğu, DİN və MTN-nin aidiyyəti qurumlarının iştirakı ilə geniş müzakirə olunmuş, BMT-nin "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyası"nın tələblərinə dönmədən əməl edilməsinin zəruriliyi xüsusi vurğulanmaqla, işgəncə və qeyri-insani rəftarla müşayiət olunan təzyiqlərin tətbiq edilməsi barədə hər bir müraciətin təxirə salınmadan araşdırılması, təsdiq olunduğu halda həmin fakt üzrə cinayət işi başlanıb istintaq aparılması, belə hərəkətlərə yol vermiş vəzifəli şəxslər barəsində qanunla nəzərdə tutulmuş ən ciddi təsir tədbirlərinin görülməsi qərara alınmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun məsələyə bu cür diqqətli yanaşma nümayiş etdirməsi təqdirəlayiq hal kimi xüsusi qiymətləndirilməlidir.

Müvəkkilin MPM qismində fəaliyyət göstərməsinə yaxından dəstək verən və onunla sıx, konstruktiv əməkdaşlıq edən, eləcə də qanunvericiliyə uyğun zəruri şəraitin yaradılmasını, habelə müvafiq araşdırmaların, həmçinin təkrar araşdırmaların aparılmasını təmin edən qurum kimi həmçinin DİN-i vurğulamaq lazımdır. Belə ki, ötən dövr ərzində DİN-ə ünvanlanmış hər bir müraciətə diqqətli yanaşmaqla müvafiq tədbirlərin görülməsi təmin edilmişdir. Bu əməkdaşlıq 2010-cu ildə daha da təkmilləşdirilmişdir.

DİN tərəfindən təqdim olunmuş məlumata əsasən, 2009-cu il ərzində daxili işlər orqanlarının əməkdaşları tərəfindən insan hüquq və azadlıqlarının pozulması ilə bağlı 151 fakt müəyyən olunmuşdur ki, onlardan 55-ni vətəndaşlarla kobud rəftar, 38-ni əsassız saxlama, 29-nu polisə əsassız gətirmə, 1-ni əsassız cinayət məsuliyyətinə cəlb etmə, 1-ni döymə, 27-ni digər faktlar təşkil etmişdir. Bu cür neqativ hərəkətlərə yol vermiş 247 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 13 nəfəri daxili işlər orqanlarında

xidmətdən xaric edilmiş, 26 əməkdaş tutduğu vəzifədən azad edilmiş, 208 əməkdaş barəsində isə digər intizam tədbirləri görülmüşdür.

2010-cu il ərzində isə daxili işlər orqanlarının əməkdaşları tərəfindən insan hüquq və azadlıqlarının pozulması ilə bağlı 174 fakt qeydə alınmışdır ki, onlardan 51-ni vətəndaşlarla kobud rəftar, 38-ni əsassız saxlama, 46-nı polisə əsassız gətirmə, 5-ni əsassız cinayət məsuliyyətinə cəlb etmə, 3-nü əcnəbi və vətəndaşlığı olmayanların hüquqlarının pozulması, 31-ni digər faktlar təşkil etmişdir. Bu cür neqativ hərəkətlərə yol vermiş 276 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 18 nəfəri daxili işlər orqanlarında xidmətdən xaric edilmiş, 20 əməkdaş tutduğu vəzifədən azad edilmiş, 238 əməkdaş barəsində isə digər intizam tədbirləri görülmüşdür.

2010-cu il ərzində Müvəkkil tərəfindən DİN-ə ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalarla 14 fakt üzrə polis əməkdaşları tərəfindən qanunvericiliyin, DİN-in aidiyyəti normativ-hüquqi aktlarının tələblərinin pozulması müəyyən edildiyindən nazirliyin müvafiq əmrləri ilə 41 əməkdaş intizam məsuliyyətinə cəlb edilmişdir. Onlardan 2-si daxili işlər orqanlarında xidmətdən xaric olunmuş, 6-sı tutduqları vəzifədən azad edilmiş, 33 nəfərinə isə başqa növ intizam tənbehləri verilmişdir.

İntizam məsuliyyətinə cəlb edilənlərdən 12 nəfəri cinayət-axtarış, 13 nəfəri ictimai təhlükəsizlik, 4 nəfəri istintaq və təhqiqat, 3 nəfəri yol-patrul, 9 nəfəri digər xidmət sahələrinin əməkdaşları olmuşlar.

İşgəncə və qeyri-insani rəftar halları ilə bağlı Müvəkkil tərəfindən daxil olmuş 34 müraciətlə əlaqədar aparılmış xidməti təhqiqatlarla qeyd edilən faktlar təsdiqlənməsə də, vətəndaşları əsassız polisə gətirdiklərinə, onlara qarşı kobudluğa və digər qəbahətlərə yol verdiklərinə görə 10 xidməti təhqiqat materialı üzrə 30 əməkdaş intizam məsuliyyətinə cəlb edilmişdir. Onlardan 2 nəfəri daxili işlər orqanlarında xidmətdən xaric olunmuş, 4 nəfər tutduğu vəzifədən azad olunmuş, 2 nəfərə "xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq", 10 əməkdaşa "şiddətli töhmət", 12 əməkdaşa "töhmət" elan edilmişdir.

Tabelikdəki əməkdaşların xidməti fəaliyyətinə nəzarət və tələbkarlığı zəiflətmələri insan hüquq və azadlıqlarının pozulması ilə müşayiət olunan qanunazidd hallar ilə nəticələndiyinə görə rəhbər vəzifəli 7 əməkdaş ciddi

intizam məsuliyyətinə cəlb edilmişdir.

### *3.3. Elmi-analitik iş*

Həyata keçirilən fəaliyyət nəticəsində toplanmış empirik materialların və daxil olmuş digər məlumatların nəzəri-təcrübi təhlili, mövcud qanunvericilik aktlarına əlavə və dəyişiklər edilməsi barədə təkliflərin hazırlanması və aidiyyəti üzrə göndərilməsi Müvəkkilin işgəncələrlə mübarizə işinin əsas elementlərindən birdir.

Müvəkkil tərəfindən, mütəmadi olaraq, əhalinin rastlaşdığı problemlərə, qanun və hüquq pozuntularına dövlət qurumlarının diqqətini cəlb etmək, insan hüquqlarının pozulmasının qarşısını almaq, bu hüquqları etibarlı təmin etmək, pozulduğu halda isə qanun çərçivəsində bərpa etmək məqsədi ilə müvafiq təkliflər paketi hazırlanıb səlahiyyətli orqanlara təqdim olunur. Həmçinin qeyd olunmalıdır ki, Müvəkkilin yanında işgəncələr üzrə ixtisaslaşmış müşavir, o cümlədən məhbusların hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış müşavir fəaliyyət göstərir. İxtisaslaşmış müşavirlər tərəfindən mütəmadi olaraq müvafiq sahələr üzrə milli qanunvericilik və beynəlxalq-hüquqi aktlar, bu sahədə ölkədəki vəziyyət, daxil olmuş şikayət və müraciətlərin elmi-analitik təhlili aparılır, ayrı-ayrı istiqamətlər üzrə tədbirlər planı hazırlanaraq həyata keçirilir, müvafiq qurumlara təklif və tövsiyələr göndərilməsi üçün müvəkkilə layihələr təqdim olunur.

Müvəkkil bu və ya digər istiqamətdə olan fəaliyyətini daim təkmilləşdirməyə çalışır. Aparatda məhbusların hüquqlarının qorunmasının daha etibarlı təmin olunması məqsədi ilə beynəlxalq təcrübə, müxtəlif ölkələrin (Rusiya, Polşa, Rumıniya, Ukrayna, Gürcüstan və s.) cəza-icra qanunvericiliyi, həmçinin baxışların həyata keçirilməsi metodikası öyrənilir, milli cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi üçün yeni təkliflər hazırlanır və aidiyyəti üzrə göndərilir.

İndiyə qədər Müvəkkilin illik məruzələrində və digər çıxışlarında qeyd olunmuş bir çox mütərəqqi təklif və tövsiyələr həm qanunvericilik, həm də təşkilati baxımdan öz müsbət həllini tapmışdır. Belə faktlara misal kimi, 2006-cı ildə ölkə yurisdiksiyası altında olan bütün əhali qruplarının hüquqlarının daha etibarlı müdafiəsini təsbit edən MFP-nin təsdiq edilməsini, ƏN

tərəfindən Azərbaycan Respublikasının ədliyyə naziri yanında Məhkumların islah olunmasında ictimaiyyətin iştirakını təmin edən və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarəti həyata keçirən İctimai Komitənin yaradılmasını, Azərbaycan Respublikasının 24 iyun 2008-ci il tarixli Qanunu ilə Cəzaların İcrası Məcəlləsinə humanizm mövqeyindən çıxış edən əlavə və dəyişiklikləri və s. göstərmək olar.

"A" statusuna malik təsisat kimi Müvəkkil həmçinin Azərbaycan Respublikası tərəfindən müxtəlif beynəlxalq konvensiyalara, protokollara qoşulma, onları ratifikasiya etmə işinin də sürətləndirilməsi üçün töhfələrini vermişdir. Bu əsnada Müvəkkilin FP-nin ratifikasiya edilməsinin sürətləndirilməsi üçün aidiyyəti üzrə verdiyi təklifi, eləcə də sazış qurumlarına ölkə hesabatlarına əlavə hesabatların hazırlanaraq göndərilməsini göstərmək olar.

Müvəkkil MPM qismində müəyyən olunduqdan sonra, işgəncələrlə mübarizə üzrə fəaliyyətin digər istiqamətlərində olduğu kimi, elmi-analitik işin də təkmilləşdirilməsinə ehtiyac duyulmuş və bunun üçün müvafiq addımlar atılmışdır. Qeyd olunan sahədə təsisatın qarşısında ilk növbədə aşağıdakı vəzifələr durmuşdur:

- Müvəkkilin mandatının FP-nin tələbləri prizmasından təhlili;
- MPM-in tam məhsuldar fəaliyyət göstərməsinin təmin olunması məqsədilə qanunvericilik və təşkilati səviyyədə islahatların aparılması üçün təkliflərin işlənib hazırlanması;
- Konstitusiya Qanununa, eləcə də İXM-ə əlavə və dəyişiklər edilməsinə dair Azərbaycan Respublikasının Milli Məclisinə göndərilən müvafiq təkliflərin işlənib hazırlanması;
- İşgəncələrin qarşısının alınmasının daha etibarlı təmin edilməsi məqsədi ilə mövcud normativ-hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr kontekstində təhlili;
- İşgəncə halları, həmçinin digər qanun pozuntularının qarşısının alınması, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq qurumlar, yaxud vəzifəli şəxslərə verilməsi üçün təklif və tövsiyələrin işlənib hazırlanması;

- Ölkədə işgəncələrin aşkar olunması, araşdırılması və qarşısının alınması sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi və əlaqələndirilməsi üçün təklif və tövsiyələrin işlənib hazırlanması;

- Xarici ölkələrdə işgəncələrin qarşısının alınması sahəsində fəaliyyət göstərən qurumların təcrübəsinin öyrənilməsi və qabaqcıl, müsbət təcrübənin tətbiqi üzrə təkliflərin işlənib hazırlanması və həyata keçirilməsi;

- Azərbaycan Respublikası tərəfindən BMT-nin İşgəncələr Əleyhinə Komitəsinə təqdim olunacaq hesabatın hazırlanmasında iştirak edilməsi;

- İşgəncələrin qarşısının alınması sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə əlaqədar daxil olmuş təkliflərin öyrənilməsi və ümumiləşdirilməsi;

- Müxtəlif xarakterli sorğuların həyata keçirilməsi və nəticələrinin təhlili;

- Müvəkkil tərəfindən işgəncələrin qarşısının alınması sahəsində həyata keçirilmiş fəaliyyətin təşkili vəziyyətinin və təcrübənin öyrənilməsi, fəaliyyət nəticəsində əldə olunmuş nəticələrin ümumiləşdirilməsi, statistik göstəricilərin təhlil edilməsi və müvafiq təklifləri ehtiva edən məruzənin hazırlanması.

Göstərilən vəzifələrin həyata keçirilməsinə nail olmaq məqsədi ilə Aparatda qısa zaman kəsiyində həcmli fəaliyyət həyata keçirilmişdir. Belə ki, ilk növbədə aparılan çoxsaylı müzakirələr və müxtəlif mənbələrdən daxil olmuş təklif və tövsiyələrin ümumiləşdirilməsi, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi nəticəsində MPM-in tam məhsuldar fəaliyyət göstərməsinin təmin olunması üçün Aparatda yeni struktur vahidinin formalaşdırılması təklifi irəli sürülmüş və müvafiq sənədlərin layihəsi işlənib hazırlanmışdır. Paralel olaraq Müvəkkilin mandatının FP-nin prizmasından təhlili də aparılmış, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün, bu sahədə mövcud olan beynəlxalq təcrübəyə, eləcə də Polşa, Moldova və Gürcüstan respublikalarının sözü gedən istiqamətdə təcrübəsinin təhlili nəticəsində əldə olunmuş məlumatlara söykənərək, Konstitusiya Qanununa edilməsi təklif olunan əlavə və dəyişikliklərin layihəsi, habelə İXM-ə dəyişiklərin edilməsi üzrə təkliflər işlənib hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

Bundan başqa, işgəncələrlə mübarizə məsələlərinin qanunvericilikdə təsbitinin beynəlxalq və milli aspektləri, işgəncənin BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə"

Konvensiyasının müddəalarına uyğun anlayışı, indikatorları üzrə təhlillər, eləcə də Azərbaycan Respublikasının Baş Prokurorluğu, DİN və digər aidiyyəti qurumlarla məsləhətləşmələr aparılmış, məqsədyönlü təkliflər irəli sürülmüşdür. Əvvəlki bölmələrdə qeyd olunduğu kimi, müvafiq layihə artıq Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aidiyyəti üzrə göndərilmişdir.

Göstərilənlərlə yanaşı, həmçinin qeyd olunmalıdır ki, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının 19 aprel 2002-ci il tarixli Qanunu BMT Baş Məclisinin 46/119 saylı, 17 dekabr 1991-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının təkmilləşdirilməsinə dair Prinsiplər" nəzərə alınmaqla ilkin təhlili nəticəsində 23 istiqamət üzrə əlavə və dəyişikliklərin edilməsinə dair təkliflər işlənib hazırlanmışdır. Müvafiq məsləhətləşmələrdən sonra təkliflərin aidiyyəti üzrə göndərilməsi nəzərdə tutulur.

Müvəkkilin qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar verdiyi təklif və tövsiyələrdən danışdıqda həmçinin şübhəli və təqsirləndirilən şəxslərin saxlanmalarının qanunvericilik səviyyəsində hüquqi tənzimini nəzərdə tutan qanunun qəbulu prosesinin sürətləndirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisinə etdiyi müraciəti də göstərmək lazımdır. Müvəkkil müraciətində qeyd etmişdir ki, xeyli müddət keçməsinə baxmayaraq, hələ də qanunvericilik səviyyəsində öz təsbitini tapmamış zəruri məsələlər qalmaqdadır. Belə ki, şübhəli və təqsirləndirilən şəxslərin saxlanıldıqları müəssisələrin fəaliyyəti, orada saxlanılan şəxslərin saxlanılması qaydası, hüquqları və vəzifələri, qanuni mənafeləri hələ də müvafiq nazirliklər tərəfindən təsdiq olunmuş əsasnamələr (o cümlədən müvəqqəti əsasnamə) ilə tənzimlənir. Bu da öz növbəsində əməli təcrübədə müəyyən problemlərin meydana çıxmasına səbəb olmaqla yanaşı, həbsdə saxlanılan şəxslərin, eləcə də onların yaxınlarının insan hüquqlarının təmini vəziyyətinin yüksəldilməsinə mane olur. Qeyd olunan hallar həm MPM qismində həyata keçirilən fəaliyyət, həm də Müvəkkil təsisatının təşkil etdiyi müxtəlif səpgili tədbirlərin nəticələrinin təhlili və ümumiləşdirilməsi zamanı qeydə alınmışdır.

MPM qismində aparılan elmi-analitik işdən danışdıqda həmçinin qeyd olunmalıdır ki, başçəkmələr və ya Aparatda bu və ya digər ərizə və şikayətin araşdırılması zamanı aşkar olunmuş qanun pozuntularının qarşısının alınması,

onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədi ilə mütəmadi olaraq təklif və tövsiyələr işlənib hazırlanmış və həyata keçirilməsinin nəticəsi barədə məlumat verilməsi tələbi ilə müvafiq təşkilatın yuxarı rəhbər qurumuna göndərilmişdir.

Müxtəlif mənbələrdən Müvəkkilin MPM qismində fəaliyyətinə dair daxil olmuş çoxsaylı sorğuların ətraflı cavablandırılması ilə yanaşı, həmçinin BMT-nin İşgəncə Əleyhinə Komitəsinin 43-cü sessiyasında Azərbaycanın üçüncü dövri məruzəsi zamanı baxılacaq suallar siyahısı üzrə də müvafiq arayışın hazırlanması və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilməsi təşkil olunmuşdur.

MPM qismində aparılan elmi-analitik işin yekunu işgəncələrin qarşısının alınması sahəsində həyata keçirilmiş fəaliyyətin təşkili vəziyyətinin və təcrübənin təhlilini, fəaliyyət nəticəsində əldə olunmuş nəticələrin ümumiləşdirilməsini, müvafiq statistikanı, təklif və tövsiyələri ehtiva edən hazırkı məruzənin hazırlanması olmuşdur. Məruzənin hazırlanması zamanı 2009-2010-cu ildə MPM-in ünvanına daxil olmuş şikayət ərizələrinin və digər məlumatların təhlili, Aparatda xüsusi struktur vahidinin olmaması səbəbindən çətinliklər törətmişdir.

### *3.4. Hüquqi-maarifləndirmə işi*

Müvəkkil insan hüquqlarının təmin olunması üçün ilk növbədə bu hüquqların tədrisinin və qavranılmasının, hüquq mədəniyyətinin və hüquq düşüncəsinin formalaşmasının əhəmiyyətli rol oynadığını nəzərə alaraq, öz fəaliyyətində daim geniş hüquqi-maarifləndirmə işinin təşkilinə xüsusi diqqət göstərmişdir. İşgəncələrə məruz qalmamaq hüququnun təmini üçün, təbii ki, bu işin əhali, xüsusilə əhalinin həssas qrupları, habelə hüquq-mühafizə orqanlarının əməkdaşları arasında aparılması zəruri olmuşdur.

Göstərilən məqsədlə Müvəkkilin tapşırığı və rəhbərliyi ilə Aparatda həm məhbuslar, həm də hüquq-mühafizə orqanları, o cümlədən penitensiar müəssisələrin əməkdaşları üçün çoxsaylı buklet, liflet, broşur və kitablar, həmçinin plakatlar hazırlanaraq böyük tirajlarla nəşr etdirilmiş və pulsuz paylanılması təşkil olunmuşdur. Belə nəşrlərə misal olaraq "Tutulduğun zaman nələri bilməlisən", "Həbs edən zaman nələri unutmamalısan", "Şübhəli

şəxsin hüquqi vəziyyəti", "Təqsirləndirilən şəxsin hüquqi vəziyyəti", "Məhkumların hüquqi vəziyyəti", "İşgəncəyə yox", "Çevik araşdırma qrupu ilə əməkdaşlığa hazırsanmı?", "Polis və insan hüquqları" və s. çoxsaylı çap məhsullarını aid etmək olar.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, Müvəkkil ilə ATƏT-in Bakı Ofisi arasında 2009-cu ilin oktyabr ayında əldə olunmuş razılığa əsasən, həm MPM Qrupunun üzvləri, həm Aparatın və regional mərkəzlərin, eləcə də hüquq-mühafizə orqanları əməkdaşları üçün faydalı vəsait olacaq İşgəncələrin qarşısının alınması üzrə Assosiasiyanın "Azadlıqdan məhrumetmə yerlərinin monitorinqi" adlı praktiki soraq kitabının azərbaycan dilinə tərcümə etdirilməsi və nəşr olunması ATƏT-in Bakı Ofisinin dəstəyi ilə təşkil olunmuşdur. 25 may 2010-cu il tarixdə MPM Qrupunun üzvləri, Aparatın və regional mərkəzlərin, eləcə də hüquq-mühafizə orqanları əməkdaşlarının, Azərbaycan Respublikasının ədliyyə naziri yanında Məhkumların islah olunmasında ictimaiyyətin iştirakını təmin edən və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarəti həyata keçirən İctimai Komitənin üzvləri və digər yerli QHT təmsilçiləri, habelə ATƏT-in Bakı Ofisi, ATƏT DTİHB, o cümlədən İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın nümayəndələrinin iştirakı ilə sözü gedən kitabın təqdimatı həyata keçirilmişdir.

Müvəkkil tərəfindən, PX-nin iştirakı ilə, CÇM-lərdə və yetkinlik yaşına çatmayan məhkumlar üçün Tərbiyə müəssisəsində silsilə görüş-seminarlar təşkil olunur. Görüş-seminarlar zamanı Müvəkkil və Aparatın əməkdaşları məhkumların hüquqlarının daha səmərəli müdafiəsinin təşkilinin təmin olunması və qanunlara hörmət ruhunun aşılanması məqsədilə məhkumlar və müəssisə əməkdaşları qarşısında insan hüquqlarının qorunması üzrə milli, regional və beynəlxalq sənədlərin şərhinə yönəlmiş, ümumi insan hüquqlarına, habelə məhbuslarla rəftara dair Avropa minimal standartlarına dair silsilə çıxışlar etmiş, məhkumların müxtəlif məsələlərlə əlaqədar suallarını cavablandırmışlar. Tədbirlər zamanı məhkumlarla qruplarda interaktiv müzakirələr aparılmış, həmçinin onlarla təkbətək görüşlər keçirilmişdir. Belə tədbirlər müntəzəm olaraq davam etdirilir, tədbirlərin yekununda, cəzanın icrası işinin və saxlanma şəraitinin təkmilləşdirilməsi üçün müvafiq təkliflər

hazırlamaq məqsədi ilə tərtib olunmuş sorğu anketləri görüş-seminarda iştirak edən məhkumlar arasında paylanılır, könüllülüyə əsaslanmaq şərti ilə, anonim sorğular keçirilir. Sorğuların nəticələri Aparatda ümumiləşdirilib sistemləşdirilərək konkret, faydalı təkliflər vəziyyətində aidiyyəti orqanlara göndərilir.

Aparatın iki nəfər əməkdaşı yetkinlik yaşına çatmayan məhkumlar üçün nəzərdə tutulmuş Tərbiyə müəssisəsinin nəzdində fəaliyyət göstərən məhkum uşaqların hüquq və azadlıqlarının təmin olunmasında, habelə onların islah olunmasında yardımçı rolunu oynayan Himayəçilik Şurasının üzvüdür. Şuranın xətti ilə müxtəlif səpgili maarifləndirmə tədbirləri həyata keçirilir. Yeri gəlmişkən qeyd edilməlidir ki, Himayəçilik Şurasının fəaliyyətinin daha da təkmilləşdirilməsi üzrə Müvəkkilin təşəbbüsü ilə iş aparılır.

Ümumiyyətlə Müvəkkil tərəfindən yetkinlik yaşına çatmayan məhkumlara, inkişaflarının həssas dönəmində olduqları nəzərə alınaraq, xüsusi diqqətlə yanaşılır, onlar üçün xüsusi xarakterli tədbirlər təşkil olunur. Belə tədbirlərə misal olaraq, müəssisədə hər il "Açıq qapı günü" adı altında təşkil olunan mədəni-kütləvi tədbirləri göstərmək olar. Adı çəkilən əlamətdar günlər, bayramlara həsr olunmuş tədbirlər zamanı, hüquqi-maarifləndirmə yönümlü çıxışlarla yanaşı, müxtəlif teatr və uşaq kollektivlərinin məhkumlar qarşısında konsert-tamaşalarla çıxış etməsi də təmin edilir. Tədbirlərdə həmçinin məhkum uşaqların valideynlərinin və yaxın qohumlarının müəssisəyə heç bir məhdudiyyət qoyulmadan daxil olması və bütün gün ərzində məhkumlarla ünsiyyətdə olması üçün zəruri şərait yaradılır. Məhkum uşaqların islah olunmasında böyük əhəmiyyəti olan bu tədbirlərdə nüfuzlu ictimaiyyət nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri, habelə KİV nümayəndələrinin iştirakı da təmin edilir.

Göstərilən ənənəvi tədbirlərlə yanaşı, "20 noyabr – Ümumdünya Uşaqlar günü" ərəfəsində Müvəkkil tərəfindən BMT-nin İctimai İnformasiya Departamentinin Bakı Ofisi ilə birlikdə PX-nin Tərbiyə müəssisəsində uşaq hüquqlarına həsr olunmuş görüş-seminar keçirilmişdir. Tədbirdə beynəlxalq sənədlərlə bağlı təqdimatlar edilmiş, mövzu üzrə interaktiv müzakirələr aparılmışdır. Bu cür tədbirlər hər il keçirilir.

Müvəkkil həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən

məhrum olmuş uşaqların saxlanıldığı müəssisələrdə də müvafiq hüquqi-maarifləndirmə işlərinin aparılmasına diqqət göstərmişdir. Belə tədbirlərə misal olaraq, BMT-nin İctimai İnformasiya Departamentinin Bakı Ofisi ilə “SOS Uşaq Kəndi”ndə “İnsan hüquqları” mövzusunda təşkil olunmuş tədbiri göstərmək olar. Tədbir zamanı Aparatın əməkdaşları tərəfindən müvafiq milli, regional və beynəlxalq sənədlərə aydınlıq gətirilmiş, həmçinin zorakılıq halları ilə mübarizə və qarşısının alınması üçün tövsiyələr verilmişdir.

Müvəkkil həmçinin YUNİSEF-in Azərbaycan nümayəndəliyi ilə birlikdə ölkənin müxtəlif şəhər və rayonlarında “Uşaq hüquqlarının təbliği və müdafiəsi” mövzusunda seminarlar təşkil etmişdir. Seminarların əsas məqsədi uşaq hüquqlarının təşviqi, uşaqların zorakılıqdan mühafizəsi, uşaq hüquqlarının müdafiəsi mexanizmləri və s. haqda məlumatlılığı artırmaq, həmin regionlarda uşaq hüquqları sahəsində vəziyyəti müzakirə etmək olmuşdur.

Artıq qeyd olunduğu kimi, işgəncələrin qarşısının alınması üçün hüquq-mühafizə orqanları əməkdaşları arasında Müvəkkil tərəfindən geniş hüquqi-maarifləndirmə tədbirləri həyata keçirilir. Müvəkkil həmçinin bu və ya digər müəssisəyə başçəkmə həyata keçirərkən şəxsi heyətlə görüşür, onlar qarşısında çıxış edərək yeni qanunvericilik aktlarının və ölkənin qoşulduğu beynəlxalq sənədlərin tələbləri, eləcə də MPM-in hüquq və vəzifələri barədə məlumat verir.

Qanunla münaqişədə olan, cinayət törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən, habelə cinayətin qurbanı olmuş şəxslərin ilk növbədə polis əməkdaşları ilə təmasda olması nəzərə alınaraq, polisin insan hüquqları, məhbuslarla rəftar, eləcə də uşaq hüquqları və yuvenal ədliyyə sahəsindəki biliklərinin artırılması məqsədi ilə, regionlar da daxil olmaqla, çoxsaylı treninqlər həyata keçirilmişdir.

2009-cu ilin noyabr-dekabr aylarında, bələdiyyə seçkiləri ərəfəsində, DİN və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ilə birlikdə, respublikanın müxtəlif şəhər və rayonlarının polis idarə və şöbələrinin rəhbər vəzifəli əməkdaşları üçün “Seçki prosesində polisin hüquq və vəzifələri” mövzusunda keçirilən silsilə zona seminar-müşavirələrinin təşkilində də iştirak etmişdir. Ümumilikdə ölkənin 58 rayon və şəhərini əhatə etməklə həyata

keçirilən tədbirlərdə həmçinin FP-nin tələbləri barədə geniş məlumat verilməklə diskussiyalar aparılmış, polisin işgəncə hallarına yol verməməsi və belə halların qarşısının alınması üçün fəaliyyətində ciddi surətdə və dönmədən riayət etməli olduğu milli və beynəlxalq normalar bir daha iştirakçıların diqqətinə çatdırılmışdır. Sözü gedən tədbirlərdə əksər polis əməkdaşlarının FP-nin tələbləri barədə az və səthi məlumata malik olduqları aşkara çıxmışdır. Bu səbəbdən, hüquq-mühafizə orqanları əməkdaşlarının FP, onun ratifikasiyası, Azərbaycanda MPM-in təşəkkülü və səlahiyyətləri barədə geniş məlumatlandırılmaları zəruridir.

MN-nin intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum olunmuş şəxslərin saxlanıldıqları N saylı hərbi hissəsində də hüquqi-maarifləndirmə tədbirləri təşkil olunmuşdur. Belə görüşlərdə MPM Qrupunun üzvləri hərbi qulluqçular qarşısında çıxış edərək, müvafiq milli və beynəlxalq normaların tələbləri, habelə FP-nin mahiyyəti və qarşıda duran vəzifələr barədə məlumat vermiş, onlara ünvanlanmış sualları cavablandırmışlar.

Müvəkkil MPM kimi həyata keçirdiyi hüquqi-maarifləndirmə tədbirləri zamanı həmçinin Aparatın əməkdaşlarının, xüsusilə MPM qrupunun üzvlərinin də bu sahədə olan nəzəri və təcrübi biliklərinin artırılmasına xüsusi önəm vermişdir. 25-26 noyabr 2009-cu il tarixdə ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birlikdə Müvəkkilin Aparatının və regional mərkəzlərinin əməkdaşları üçün FP-nin Azərbaycan Respublikasında tətbiqi və MPM-in yaradılmasına dair təşkil olunmuş ikigünlük seminar da bu məqsədə xidmət etmişdir. Seminara dövlət qurumları, QHT-lər və beynəlxalq təşkilatların nümayəndələri, habelə nüfuzlu beynəlxalq ekspertlər və KİV təmsilçiləri qatılmışlar. Tədbirdə müzakirəyə çıxarılmış məsələlər üzrə aparılan fikir mübadilələri zamanı bir sıra məhsuldar təkliflər irəli sürülmüş, beynəlxalq təcrübəyə əsaslanaraq dəyərli tövsiyələr verilmişdir.

Sözü gedən beynəlxalq təşkilatların dəstəyi ilə bu qəbildən olan növbəti tədbir kimi 25-26 may 2010-cu il tarixdə MPM Qrupunun üzvləri üçün azadlıqdan məhrumetmə yerlərinin monitorinqi üzrə metodik təlim keçirilmişdir. Təlimə həmçinin Müvəkkilin regional mərkəzlərinin, habelə hüquq-mühafizə orqanlarının əməkdaşları, Azərbaycan Respublikasının ədliyyə naziri yanında Məhkumların islah olunmasında ictimaiyyətin iştirakını

təmin edən və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarəti həyata keçirən İctimai Komitənin üzvləri və digər yerli QHT təmsilçiləri də cəlb edilmişlər.

Təlimdə İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin sabiq üzvü, monitorinq üzrə beynəlxalq ekspert E.Svanidze “Azadlıqdan məhrumetmə yerlərinin monitorinqinin konsepsiyası” və “Monitorinq səfəri təcrübədə”, həmin komitənin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə müdiri L.Hüseynov “Azadlıqdan məhrumetməyə dair beynəlxalq və milli standartlar”, Bristol Universitetinin professoru E.Şteynerte “MPM-lərin preventiv təbiəti”, MPM Qrupunun üzvləri V.Məhərrəmov və R.T.Səmədov müvafiq olaraq “Azərbaycan Ombudsmanının azadlıqdan məhrumetmə yerlərinin monitorinqi üzrə təcrübəsi” və “Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanlar: saxlama şəraiti və əsas hüquqlar”, mövzularında çıxışlar etmiş, təlim iştirakçıları arasında fikir mübadiləsi aparmışlar.

Həyata keçirilmiş tədbirlər sırasında Müvəkkil təsisatı, Azərbaycan Respublikasının Milli Məclisi, ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB-nin birgə təşkilatçılığı ilə 24 may 2010-cu il tarixdə ölkə parlamentinin binasında keçirilmiş “Müvəkkilin Azərbaycanda milli preventiv mexanizm kimi rolunun gücləndirilməsi” mövzusunda konfransı xüsusi vurğulamaq lazımdır. Konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatları, dövlət qurumları, QHT-lər, beynəlxalq təşkilatların nümayəndələri, nüfuzlu beynəlxalq ekspertlər, eləcə də BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Altkomitəsinin, İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın nümayəndələri, habelə KİV təmsilçiləri qatılmışlar.

Konfransda “Azərbaycanda MPM-in fəaliyyətinin ilk ili: nailiyyətlər, problemlər, perspektivlər” mövzusunda məruzə ilə çıxış edən Müvəkkil E.Süleymanova təsisatın MPM qismində müəyyən olunmasından sonra keçən qısa müddət ərzində görülmüş işlər, əldə olunmuş uğurlar, eləcə də mövcud çətinliklər barədə konfrans iştirakçılarına qısa məlumat vermişdir.

Tədbirdə həmçinin Azərbaycan Respublikası Milli Məclisinin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Ə.Hüseynov və ATƏT-nin Bakı Ofisinin rəhbəri, səfir B.Cankorel çıxış edərək insan hüquq və

azadlıqlarının müdafiəsinin hər bir dövlətin başlıca vəzifələrindən biri olmasını, bu sahədə Azərbaycanda mühüm işlər görüldüyünü və bu prosesin davam etdirildiyini, eləcə də Müvəkkilin fəaliyyətinin yüksək səviyyədə təşkil edildiyini və səmərəli olduğunu bildirmiş, onunla qarşılıqlı əməkdaşlığa önəm verdiklərini qeyd etmişlər.

Öz işini sessiyalarda davam etdirən Konfransın "İşgəncələrin qarşısının alınmasına dair beynəlxalq və milli mexanizmlər" mövzusunda birinci sessiyasında Müvəkkil E.Süleymanova, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə müdiri L.Hüseynov, BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Altkomitəsinin üzvü Z.Lasosik, İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın nümayəndəsi M.Prinql Azərbaycanda MPM-in fəaliyyəti, işgəncələrin qarşısının alınmasında aidiyyəti beynəlxalq qurumların rolu, MPM prinsiplərinin qısa xülasəsi, beynəlxalq, regional və yerli səviyyədə müvafiq qurumlar arasında əməkdaşlıq, birgə səfərlər barədə məruzələr etmişlər. "Azərbaycanda MPM-in potensialının gücləndirilməsi – qanunvericilik bazası, vətəndaş cəmiyyətinin iştirakı, hesabat və tövsiyələrin hazırlanması və ardıcıl nəzarət" mövzusunda ikinci sessiyada Bristol Universitetinin professoru E.Şteynerte, İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın nümayəndəsi M.Prinql, MPM Qrupunun üzvü R.T.Səmədov FP çərçivəsində öhdəliklərin xülasəsi, digər ölkələrin müsbət təcrübəsi, MPM-ə dair milli qanunvericiliyin təkmilləşdirilməsi mövzuları üzrə məruzələr etmişlər.

Konfransda həmçinin Azərbaycanda tətbiq olunacaq MPM modeli müzakirə olunmuş, mülahizələr və tövsiyələr səsləndirilmişdir. Konfransda aparılan fikir mübadilələri zamanı Müvəkkil E.Süleymanova, eləcə də MPM Qrupunun üzvləri, həmçinin beynəlxalq və milli ekspertlər iştirakçıların çoxsaylı suallarını cavablandırmışlar.

Konfransın yekununda Azərbaycan Respublikası Milli Məclisinin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Ə.Hüseynov Müvəkkilin təkliflərinin nəzərə alınmaqla, MPM-in fəaliyyəti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə tədbirlər görüləcəyini diqqətə çatdırmışdır.

Müvəkkil təsisatı, ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB-nin birgə

əməkdaşlığının növbəti töhfəsi kimi 2010-cu ilin oktyabr ayında ATƏT DTİHB-nin təcrübəli eksperti L.Adlerin iştirakı ilə Müvəkkil təsisatının, xüsusilə onun yanında yaradılmış MPM Qrupunun üzvlərinin zəruri nəzəri və təcrübi biliklərinin artırılmasına yönəlmiş dörd günlük təlim-seminarın təşkil olunması çıxış etmişdir. Təlim-seminarda Müvəkkilin MPM qismində fəaliyyəti müzakirə olunmuş, mövcud vəziyyət təhlil edilərək qarşılıqlı fikir mübadiləsi aparılmış, təklif və tövsiyələr səsləndirilmişdir.

Tədbir çərçivəsində sözü gedən ekspertin MPM-in işi ilə daha yaxından tanış olması üçün MPM qrupunun apardığı sənədləşmə, məlumat bazası və digər materialları nəzərdən keçirməsinə şərait yaradılmışdır. L.Adler həmçinin MPM Qrupunun üzlərinin PX 6 saylı CÇM-də və Nərimanov RPİ MST-də həyata keçirdikləri başçəkmələrdə iştirak etmişdir.

Tədbirin yekununda L.Adler Azərbaycan Ombudsmanının MPM qismində fəaliyyətini müsbət qiymətləndirərək, MPM qrupunun işinin hərtərəfli, beynəlxalq normaların tələblərinə cavab verən şəkildə qurulduğunu qeyd etmiş və bunu yüksək peşəkarlıq nümunəsi kimi dəyərləndirmişdir.

İşgəncələrlə mübarizə üzrə hüquqi-maarifləndirmə işinin nəticələrinin təhlili və ümumiləşdirilməsi Müvəkkil tərəfindən təşkil olunan müxtəlif səpgili hüquqi-maarifləndirmə tədbirlərində parlament üzvlərinin, hüquq-mühafizə orqanlarının əməkdaşlarının iştirakının, xüsusilə bu qəbildən olan tədbirlərin müvafiq dövlət qurumları ilə birlikdə, yüksək səviyyədə təşkilinin daha effektiv və daha faydalı olduğunu və arzu olunan nəticələr göstərdiyini deməyə əsas verir. Bu səbəbdən, göstərilən istiqamət üzrə dövlət qurumları, güc strukturları, eləcə də QHT-lərin Müvəkkillə birgə əməkdaşlığı davam etdirməsi və təkmilləşdirməsi zəruridir.

### *3.5. Beynəlxalq əməkdaşlıq*

Müvəkkil, fəaliyyət istiqamətlərinə uyğun olaraq müxtəlif beynəlxalq təşkilatlarla, o cümlədən BMT, onun saziş qurumları, ölkə nümayəndəlikləri, Avropa Şurası, ATƏT, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər nüfuzlu təşkilatlarla, səfirliklərlə, habelə xarici ölkələrdəki həmkarları ilə müstəqil surətdə əlaqələr yaradır və sıx əməkdaşlıq edir. Qeyd olunmalıdır ki, müxtəlif ölkələrin ombudsmanları ilə qarşılıqlı əməkdaşlıq haqqında bu günədək 10 ikitərəfli saziş imzalanmışdır. Sazişlərin əsas məqsədi təsisatların öz

yurisdiksiyasına daxil olan ərazidə müqavilənin digər tərəfi olan təsisatın mənsub olduğu ölkənin vətəndaşlarının hüquq və azadlıqlarının pozulması halları barədə bir-birini vaxtında məlumatlandırması və bu hüquqların təxirə salınmadan bərpa edilməsinə səlahiyyətləri çərçivəsində yardım göstərilməsini təşkil etməsidir.

Müvəkkil Avropa Ombudsmanlar İnstitutuna, Beynəlxalq Ombudsmanlar İnstitutuna və Asiya Ombudsmanlar Assosiasiyasına üzv seçilmiş və həmin qurumlar daxilində uğurla fəaliyyət göstərməkdədir. Müvəkkil və Aparatın nümayəndələri həmçinin təşkil olunan müvafiq beynəlxalq tədbirlərdə iştirak edirlər.

Müvəkkilin beynəlxalq əlaqələri və əməkdaşlığı onun MPM kimi işinin qurulmasına dəyərli töhfələr vermişdir. Belə ki, hələ MPM qismində müəyyən olunanadək beynəlxalq müstəvidə aparılan fikir və təcrübə mübadilələri gələcək perspektivlərin təyin olunmasında faydalı olmuşdur.

MPM qismində müəyyən olunduqdan sonra Müvəkkil beynəlxalq əməkdaşlığın qurulması işinin təkmilləşdirilməsinə xüsusi əhəmiyyət vermişdir. Göstərilən məqsədlə MPM qismində müəyyən olunduqdan dərhal sonra Müvəkkil tərəfindən aidiyyəti beynəlxalq qurumlara, o cümlədən BMT-nin İşgəncələr Əleyhinə Komitəsinə, Qarşısını Alma üzrə Altkomitəsinə, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinə, eləcə də İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyaya bu barədə məlumat verilmiş, təklif və tövsiyələrin göndərilməsi xahiş olunmuşdur. Daxil olmuş təkliflər müvafiq qaydada ümumiləşdirilərək Müvəkkilin MPM kimi fəaliyyətində və bu və ya digər layihənin hazırlanmasında adekvat istifadə olunmuşdur. Sadalananlarla yanaşı, həmçinin qeyd etmək lazımdır ki, müxtəlif beynəlxalq təşkilatlardan, işgəncələrlə mübarizə işinin təşkili sahəsində nüfuzlu ekspertlərdən Müvəkkilin MPM qismində fəaliyyətinə dair daxil olmuş çoxsaylı sorğular ətraflı cavablandırılmışdır.

Müvəkkilin MPM qismində beynəlxalq əməkdaşlığından danışdıqda xüsusilə vurğulanmalıdır ki, Müvəkkil artıq Avropa Şurasının İnsan hüquqları və hüquqi məsələlər Baş Direktorluğu və İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya tərəfindən təşkil olunan Avropa MPM-lər Şəbəkəsinin üzvüdür. Şəbəkə Avropa Şurasının Avropa MPM-lərinin işlək şəbəkəsinin

yaradılması və Avropa Şurasına üzv olan ölkələrdə işgəncələrlə mübarizə məsələlərinin təkmilləşdirilməsi, habelə MPM-lərin müvafiq beynəlxalq qurumlarla fəal əməkdaşlığının qurulması məqsədlərinə xidmət edən layihəsi çərçivəsində təsis olunmuşdur. Şəbəkənin xətti ilə MPM-lərin işinin daha yüksək səviyyədə qurulmasının təmin edilməsinə xidmət edəcək silsilə tədbirlərin təşkil olunması nəzərdə tutulur.

05 noyabr 2009-cu il tarixdə Avropa Şurasının İnsan hüquqları və hüquqi məsələlər Baş Direktorluğu və İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya tərəfindən Fransa Respublikasının Strasburq şəhərində təşkil olunmuş, MPM Qrupunun üzvləri V.Məhərrəmov və R.T.Səmədovun da qatıldığı "Avropa MPM-ləri Şəbəkəsinin İlk Görüşü"ndə MPM-lərin təşəkkülü, inkişafı, problemlər və perspektivlər, illik hesabatların hazırlanması və hesabatlara daxil edilməsi zəruri olan məlumatlar, habelə şəbəkənin yaradılmasının məqsədləri və qarşılıqlı əməkdaşlığın qurulması istiqamətində atılmalı addımlar müzakirə olunmuşdur.

Daha sonra Müvəkkilin qərarına əsasən MPM qrupunun üzvü R.T.Səmədov həmin şəbəkə üzrə əlaqələndirici şəxs qismində təyin olunmuşdur və o, adı çəkilən Şəbəkənin əlaqələndirici şəxslərinin 27-28 yanvar 2010-cu il tarixdə İtaliya Respublikasının Padua şəhərində keçirilən ilk görüşündə iştirak etmişdir.

Digər Avropa ölkələrinin MPM-lərinin müvafiq əlaqələndirici şəxslərinin iştirakı ilə baş tutan, eləcə də Avropa Şurası, Avropa Komissiyası, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi, BMT-nin Qarşısını Alma üzrə Altkomitəsi, İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya, habelə Padua Universitetinin İnsan hüquqları və xalqların hüquqları üzrə departamentlərarası Mərkəzinin nümayəndələrinin də qatıldığı görüşdə preventiv monitorinq konsepsiyası, onun şikayətlər əsasında həyata keçirilən başçəkmələrdən fərqi, preventiv baxışlar zamanı verilmiş şikayətlər üzrə həyata keçirilməli tədbirlər, baxışların prinsipləri, BMT-nin Qarşısını Alma üzrə Altkomitəsi, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi və MPM-lərin rolu, eləcə də Gürcüstan və Estoniya MPM-lərinin təcrübəsi mövzularında təqdimatlar dinlənilmiş və fikir mübadiləsi aparılmış, habelə Şəbəkənin gələcək fəaliyyətinin qurulması, təşkil ediləcək seminarların

mövzuları, habelə yeri və vaxtı, eləcə də həyata keçiriləcək təcrübə mübadilələri, o cümlədən MPM rəhbərlərinin illik, əlaqələndirici şəxslərin növbəti görüşləri, habelə Şəbəkə üzrə informasiya mübadiləsinin aparılmasının təmin edilməsinə xidmət edəcək dövri hesabat məktubları barədə müvafiq müzakirələr və razılaşmalar aparılmışdır.

Görüşdə çıxış edən R.T.Səmədov Müvəkkilin MPM qismində fəaliyyəti barədə məlumat vermiş, həmçinin qarşıdan gələn illər ərzinə təşkil olunması nəzərdə tutulan seminarların mövzusu üçün Azərbaycan MPM-i tərəfindən irəli sürülən təklifləri səsləndirmiş, digər ölkələrdən olan həmkarlarının təqdim etdikləri təkliflərə rəyini bildirmişdir. R.T.Səmədov həmçinin Müvəkkilin planlaşdırılan seminarlardan birinin Bakı şəhərində keçirilməsi istəyində olduğunu tədbir iştirakçılarının və layihə rəhbərlərinin nəzərinə çatdırmışdır. Müvafiq müzakirələrdən sonra bu qəbildən olan beynəlxalq seminarlardan birinin 2011-ci ilin oktyabr ayında Bakı şəhərində keçirilməsi qərara alınmışdır.

Sözü gedən Şəbəkənin silsilə tədbirləri arasında ilk seminar 24-25 mart 2010-cu il tarixdə "Psixiatriya müəssisələrində pis rəftar hallarının qarşısının alınmasında MPM-lərin rolu" mövzusunda İtaliya Respublikasının Padua şəhərində keçirilmişdir. MPM Qrupunun üzvləri Y.Cəfərova və R.T.Səmədovun qatıldıqları seminarda psixiatriya müəssisələrində əqli sağlamlıq hüququnun qorunması; əqli sağlamlıq və sosial qayğı üzrə yerləşdirməyə dair xüsusi hüquqlar və təminatlar; əqli sağlamlıq müəssisələrində maddi şərait və işçi heyət; həssas qrupların hüquqlarının təmin olunması; psixiatriya müəssisələrinə başçəkmələrin elementləri: tibbi yanaşma və monitorinq metodologiyası və s. mövzularda təqdimatlar dinlənilmiş, müzakirələr aparılmışdır.

Bu qəbildən olan növbəti seminar isə Polis tərəfindən azadlıqdan məhrum etmə hallarında fərdlərin əsas hüquqlarının qorunmasında milli preventiv mexanizmlərin rolu" 09-10 iyun 2010-cu il tarixdə Albaniya Respublikasının Tirana şəhərində təşkil edilmişdir. Sözü gedən tədbirdə Müvəkkil təsisatından MPM Qrupunun üzvü R.T.Səmədovla yanaşı Müvəkkilin Gəncə regional mərkəzinin əməkdaşı S.Abbasov da iştirak etmişdir. Seminarda polis tərəfindən azadlıqdan məhrum etmə hallarında fərdlərin əsas hüquqları, bu

sahədə beynəlxalq standartlar, eləcə də bu standartların milli səviyyədə təcrübədə tətbiqi perspektivləri, sağlamlıq hüququnun qorunmasına yönəlmiş əsas tibbi məsələlər, həmçinin müvafiq müəssisələrdə monitorinq aparmaq metodologiyası, başçəkməyə hazırlıq, suallar siyahısının hazırlanması və səfərin həyata keçirilməsi məsələləri, habelə həssas qrupların – qadınların və uşaqların xüsusi hüquqları, onların saxlanılmasına, saxlanma şəraitinə dair tələblər və s. mövzularda təqdimatlar dinlənilmiş, müzakirələr aparılmışdır.

Şəbəkənin növbəti tədbiri 2010-cu ilin sonunda MPM rəhbərləri və əlaqələndirici şəxslərinin növbəti görüşünün təşkil olunması olmuşdur. 01-02 dekabr 2010-cu il tarixdə Fransa Respublikasının Strasburq şəhərində həyata keçirilmiş görüşlərdə MPM Qrupunun üzvləri V.Məhərrəmov və R.T.Səmədov iştirak etmişlər. Görüşlərdə təxminən bir il öncə Avropa MPM-lər Şəbəkəsi layihəsi əsasında yaradılmış şəbəkənin ilk il ərzində əldə etdiyi nailiyyətlər, görülmüş işlər, təşkil olunmuş tədbirlər, habelə qarşıya çıxan çətinliklər və problemlər müzakirə edilmiş, eləcə də prioritet istiqamətlər müəyyən edilərək 2011-2012-ci illərin fəaliyyət planı üzərində iş aparılmışdır. Tədbirdə həmçinin MPM-lər tərəfindən mandatlarının tətbiqi: idarəetmə və strateji məsələlər, layihə çərçivəsində Estoniya, Polşa, Gürcüstan və İspaniyada MPM-lər tərəfindən İşgəncələr Əleyhinə Avropa Komitəsi, BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsi və İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın ekspertlərinin birgə iştirakı ilə həyata keçirilmiş baxışların nəticələri, mənfi və müsbət cəhətləri, o cümlədən İşgəncələr Əleyhinə Avropa Komitəsinin və BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsinin sözü gedən layihəyə verdiyi və verə biləcəyi töhfələr, eləcə də Şəbəkənin informasiya bülleteninin inkişafı istiqamətində atılmalı olan addımlar müzakirə olunmuş, təklif və tövsiyələr səsləndirilmişdir.

Tədbirlər çərçivəsində həmçinin aparılmış müzakirələrin nəticələrinin təhlili və ümumiləşdirilməsi, növbəti ilin fəaliyyət planının detallarının işlənib hazırlanması, habelə müxtəlif Avropa ölkələrində keçirilməsi nəzərdə tutulmuş seminarların mövzu və planının müzakirəsi, eləcə də layihə çərçivəsində yeni, digər formatda olan tədbirlərin təşkil olunması perspektivləri müzakirə olunmuş, müxtəlif məsələlər üzrə açıq səsvermə

keçirilmiş, sadə səs çoxluğu ilə müxtəlif səpgili qərarlar qəbul olunmuşdur.

Azərbaycan MPM-nin sözü gedən Şəbəkədə aktiv fəaliyyəti uğurla davam etdirilir.

Müvəkkil və Aparatın əməkdaşları işgəncələrlə mübarizə məsələlərinə həsr olunmuş və ya bu qəbildən olan problemlərin müzakirəsi keçirilən bir neçə bir neçə digər beynəlxalq tədbirdə də iştirak etmişlər.

Belə tədbirlərə bariz nümunə kimi 1-2 oktyabr 2009-cu il tarixdə Tbilisi şəhərində Beynəlxalq Həbsxana İslahatı təşkilatı tərəfindən "Cənubi Qafqazda işgəncələrin qarşısının alınması" mövzusunda keçirilən beynəlxalq konfransı göstərmək olar. Konfransda Müvəkkil E.Süleymanova və MPM qrupunun üzvü R.T.Səmədov iştirak etmişlər. Tədbirdə işgəncə anlayışı, FP-yə əsasən, milli preventiv mexanizmlərin mandatı, işgəncə və digər pis rəftar hallarının qarşısının alınması üzrə müsbət nəticələrə dair dünya ölkələrinin təcrübəsi, bu sahədəki müxtəlif konsepsiyalar və s. bu qəbildən olan məsələlər müzakirə olunmuş, işgəncələrlə mübarizə üzrə Cənubi Qafqaz ölkələrindəki mövcud vəziyyət təhlil olunmuş, o cümlədən beynəlxalq ekspertlərin müvafiq tövsiyələri səslənmişdir. Konfransda həmçinin polis şöbələrində, istintaq təcridxanalarında, cəzaçəkmə müəssisələrində, hərbi hissələrdə, psixiatriya xəstəxanalarında, ahıllar evlərində və uşaq evlərində və başqa müəssisələrdə saxlanılan azadlıqdan məhrum edilmiş şəxslərə qarşı işgəncələrin qarşısının alınması üzrə Gürcüstan Xalq Müdafiəçisi (Ombudsman) təsisatının fəaliyyəti, mövcud vəziyyət, problemlərin həlli üzrə təcrübəsinə dair məruzələr və ekspert rəyləri dinlənilmişdir. E.Süleymanova konfransda "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin işgəncələrin qarşısının alınması üzrə MPM kimi fəaliyyəti" mövzusunda məruzə ilə çıxış etmişdir. O, çıxışında işgəncələr əleyhinə mübarizə məsələsinin Müvəkkilin fəaliyyətində mühüm yer tutduğunu və bu sahədə indiyə qədər həyata keçirilmiş preventiv tədbirlər, MPM qismində müəyyən olunduqdan sonra görülmüş işlər, həmçinin qarşıda duran vəzifələr, nəzərdə tutulan tədbirlər barədə məlumat vermişdir.

MPM qrupunun digər üzvü A.Hacıyev 27-31 yanvar 2009-cu il tarixdə Rusiya Federasiyasının Lipetsk şəhərində "Ombudsman institutunun inkişafında dövlət orqanları və vətəndaş cəmiyyətinin rolu" mövzusunda təşkil olunmuş

beynəlxalq konfransda iştirak edərkən "İşgəncələrə qarşı mübarizə" mövzusuna həsr olunmuş qrup iclasının işinə qatılmış, təklif və tövsiyələr vermiş, habelə müvafiq fikir mübadiləsi apararaq digər ölkələrin bu sahədəki təcrübəsi ilə yaxından tanış olmuşdur.

14-21 iyul 2009-cu il tarixdə Qırğızıstan Respublikasının Bişkek şəhərində təşkil olunmuş III İssıkkul Beynəlxalq İnsan Hüquqları Forumunda Aparatın rəhbəri A.Səfixanlının iştirakı və "İşgəncələrə qarşı mübarizə üzrə MPM-lərin tətbiqi sahəsində beynəlxalq təcrübə" mövzusuna həsr olunmuş sessiyanın işinə qatılması da kifayət qədər faydalı olmuşdur.

MPM qrupunun üzvü, psixoloq Y.Cəfərova və Ş.Qəmbərovanın 15-16 sentyabr 2009-cu il tarixdə Macarıstan Respublikasının Budapeşt şəhərində iştirak etdikləri, ahılların yaşadıqları müəssisələrdə işgəncə hallarının qarşısının alınması və bu məqsədlə sistemli monitorinqlərin həyata keçirilməsi kimi aktual məsələlərin də müzakirə olunduğu və əməli tövsiyələrin irəli sürüldüyü "Yaşlıların hüquqlarının təşviqi və müdafiəsində milli insan hüquqları strukturlarının rolu" mövzusunda beynəlxalq seminar da bu qəbildən olan tədbirlərə aid edilə bilər.

28 sentyabr-04 oktyabr 2009-cu il tarixdə Polşanın Varşava şəhərində ATƏT-in İnsan Ölçüsü Tətbiqi Görüşünün işgəncələrə qarşı mübarizə mövzusuna həsr olunmuş dördüncü işçi iclasında Aparatın rəhbəri A.Səfixanlının, həmçinin həmin şəhərdə 21-26 oktyabr 2009-cu il tarixdə Polşa və Fransa Respublikası Ombudsman təsisatları tərəfindən Şərqi Avropa tərəfdaşlığı çərçivəsində birgə təşkil olunmuş işgəncələrə qarşı mübarizə məsələlərinin də müzakirə olunduğu seminarda A.Eyvazov, Z.Vəliməmmədli və A.Novruzovanın iştirak etmələri də səmərəli olmuşdur.

Aparatın MPM məsələləri ilə bilavasitə məşğul olan əməkdaşları V.Məhərrəmov və R.T.Səmədovun 06 noyabr 2009-cu il tarixdə Fransa Respublikasının Strasburq şəhərində təşkil edilmiş İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin 20 illiyinə həsr olunmuş "Avropada işgəncələrin qarşısının alınması sahəsində yeni əməkdaşlıq" mövzusunda konfransda iştirakları da uğurlu olmuşdur. Tədbirdə MPM-lər arasında informasiya mübadiləsi, beynəlxalq standartların implementasiyası və preventiv mexanizmlərin tövsiyələrinin tətbiqinə dair məruzələr dinlənilmiş və

geniş, məhsuldar müzakirələr aparılmışdır.

MPM qrupunun üzvü A.Hacıyev 17-20 dekabr 2009-cu il tarixdə Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Yekaterinburq şəhərində təcrübə mübadiləsində olarkən vilayət ombudsmanının aparatında, həmçinin Yekaterinburq Humanitar Universitetinin Hüquq fakültəsində tələbə və professor-müəllim heyəti ilə keçirilən görüşlərdə Müvəkkilin MPM qismində fəaliyyəti barədə məlumat verərək məhsuldar fikir mübadiləsi aparmışdır.

17-21 dekabr 2009-cu il tarixdə MPM qrupunun üzvü R.T.Səmədov da Özbəkistan Respublikasının Daşkənd, Buxara və Səmərqənd şəhərlərində təcrübə mübadiləsində olarkən Özbəkistan Respublikasının Oliy Məclisinin İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının, regional nümayəndəliklərinin əməkdaşları, həmçinin Daşkənd Dövlət Hüquq İnstitutunun tələbə, professor-müəllim heyəti ilə keçirilən görüşlərdə işgəncələrlə mübarizə məsələlərini müzakirə etmiş, həmçinin Müvəkkilin MPM qismində fəaliyyəti barədə məlumat vermişdir.

Avropa Şurası və Avropa İttifaqının birgə proqramı olan "Cənubi Qafqazda, Moldova və Ukraynada pis rəftar və cəzasızlıq " birgə proqramının reallaşdırılması ilə bağlı Komitənin 06 oktyabr 2010-cu il tarixdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində keçirilən iclasında, eləcə də həmin proqram çərçivəsində 02-03 noyabr 2010-cu il tarixdə "MPM-lər, pis rəftar və bu kimi halların araşdırılması" mövzusunda Ukrayna Respublikasının Odessa şəhərində təşkil olunmuş şərqi Avropa ölkələrinin 3-cü konfransında MPM Qrupunun üzvü V.Məhərrəmovun iştirakı təsisat üçün faydalı olmuşdur.

17-18 noyabr 2010-cu il tarixdə İspaniya Krallığının Bilbao şəhərində Avropa Şurasının İnsan hüquqları və hüquqi məsələlər Baş Direktorluğu tərəfindən "Psixi pozuntusu olan şəxslərin hüquqlarının təmin edilməsində və onlara yardım göstərilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən seminarda MPM Qrupunun üzvü A.Əliyevin iştirakı da əhəmiyyətli olmuşdur. Sözü gedən tədbirdə Avropada psixi pozuntusu olan şəxslərin hüquqlarının müdafiəsi: normalar və faktlar; psixi pozuntusu olan şəxslərin hüquqlarının müdafiəsinə münasibətdə əsas çətinliklər, psixi pozuntusu olan şəxslərin hüquqlarının praktikada müdafiəsi yolları, beynəlxalq təcrübə; habelə, milli insan hüquqları təsisatları tərəfindən həyata

keçirilən fəaliyyət, psixi pozuntusu olan şəxslərin hüquqlarının həyata keçirilməsinə yardım göstərilməsi; psixi pozuntusu olan şəxslərin hüquqlarına münasibətdə milli insan hüquqları təsisatlarının yardım vasitələri, eləcə də psixi pozuntusu olan şəxslərin hüquqlarının həyata keçirilməsinə yardım göstərilməsi mövzuları üzrə məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır.

Müvəkkilin MPM qismində 2009-2010-cu illər ərzində həyata keçirdiyi fəaliyyət, əldə olunmuş uğurlar MPM Qrupunun üzvü R.T.Səmədovun qatıldığı 20-21 yanvar 2011-ci il tarixdə "Əqli Əlillərin Müdafiəsi Mərkəzi" beynəlxalq qeyri-hökumət təşkilatı tərəfindən Estoniya Ədliyyə Kansleri ilə birlikdə, Beynəlxalq Həbsxana İslahatı və Zennström Philanthropies təşkilatının dəstəyi ilə Estoniya Respublikasının Tallin şəhərində təşkil olunmuş "Azadlıqdan məhrumetmə yerlərinin monitorinqində xidmət istifadəçilərinin və məhbusların iştirakı" mövzusunda beynəlxalq seminarda da müzakirə olunaraq yüksək qiymətləndirilmişdir. Belə ki, seminar iştirakçıları Müvəkkilinin sözü gedən sahədəki fəaliyyətini, iş üslubunu, metodikasını, həmçinin başçəkmələrlə yanaşı analitik fəaliyyətlə məşğul olaraq qanunvericiliyi təhlil edib təklif və tövsiyələr irəli sürməsini yüksək qiymətləndirmiş, ötən il Müvəkkilin, eləcə də müvafiq beynəlxalq qurumların təklif və tövsiyələri də nəzərə alınmaqla, Konstitusiya Qanununa onun səlahiyyət dairəsinin genişləndirilməsinə, eləcə də müstəqillik göstəricilərinin artırılmasına xidmət edən əlavələr və dəyişikliklərin birinci səsvermədə qəbul edilməsini təqdirə layiq hal kimi dəyərləndirmişlər.

Müvəkkil tərəfindən qısa müddət ərzində MPM-in işinin təşkili və əməli fəaliyyətin həyata keçirilməsi baxımımdan görülmüş işlər barədə yuxarıda sadalanan və digər beynəlxalq tədbirlərdə verilmiş məlumatlar beynəlxalq təşkilatların nümayəndələri, nüfuzlu ekspertlər, habelə Müvəkkilin xarici ölkələrdəki həmkarları tərəfindən təqdirəlayiq hal kimi qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Müvəkkilin qurduğu və uğurla davam etdirdiyi beynəlxalq əlaqələri, xarici ölkələrdəki həmkarları ilə qarşılıqlı, sıx əməkdaşlığı ona ölkədən xaricdə azadlıqdan məhrum edilmiş Azərbaycan vətəndaşlarının saxlanma şəraiti, onlarla rəftar, hüquq və azadlıqlarına riayət olunması məsələlərinin də diqqətdə saxlanılmasına imkan verir. Təsadüfi deyil ki, 25 iyun-1 iyul 2009-cu il tarixdə Müvəkkil E.Süleymanova Rusiya Federasiyasının Moskva şəhərində

işgüzar səfərdə olarkən rusiyalı həmkarından Rusiya Federasiyası ərazisində yaşayan, həmçinin müxtəlif səbəblərdən bu ərazidə qeydiyyat qaydalarını pozduqlarına görə saxlanılan Azərbaycan vətəndaşlarının vəziyyətinə diqqət yetirməyi və azərbaycanlı miqrantların saxlanıldıqları təqdirdə səlahiyyətləri çərçivəsində onlara yardımçı olmağı xahiş etmişdir. Səfər çərçivəsində E.Süleymanova həmçinin Rusiya Federal Ombudsmanının köməyi ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Moskva şəhəri üzrə Baş İdarəsinin Əcnəbi vətəndaşlar üçün saxlama mərkəzində olmuş, orada saxlanılan Azərbaycan vətəndaşlarının saxlanılmasının hüquqi əsasları ilə maraqlanmış, müvafiq sənədlərlə tanış olmuş, həmin şəxslərin hər biri ilə görüşmüş, söhbət etmiş və müvafiq hüquqi məsləhət vermişdir. Müvəkkil həmçinin saxlanılanlarla rəftar, saxlanma şəraiti, tibbi yardım və başqa xidmətlərin göstərilməsi, qidalanma vəziyyəti ilə də yaxından tanış olmuşdur. Saxlanılan şəxslər söhbət zamanı Müvəkkilə müəssisə əməkdaşlarının hərəkətlərindən hər hansı şikayətlərinin olmadığını bildirilmişlər.

Ölkədən kənarda azadlıqdan məhrum edilmiş vətəndaşların vəziyyəti ilə, Müvəkkilin tapşırığına əsasən, həmçinin Aparatın əməkdaşları da yaxından maraqlanır və müvafiq addımlar atırlar. 2009-cu ilin fevral ayında Aparatın əməkdaşları A.Hacıyev və O.Kərimov Rusiya Federasiyasının Lipetsk şəhərində olarkən Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Lipetsk vilayəti idarəsinin Lipetsk şəhər İstintaq Təcridxanasında və Lipetsk şəhər ümumi rejimli Koloniyasında olmuş, orada saxlanılan Azərbaycan vətəndaşları ilə görüşmüşlər. Həmçinin MPM qrupunun üzvü R.T.Səmədov 01-03 aprel 2009-cu il tarixdə Qazaxıstan Respublikasının Almatı şəhərində olarkən, həmin şəhərdə tutulmuş və Almatı istintaq təcridxanasında saxlanılan Azərbaycan Respublikasının vətəndaşının vəziyyəti ilə maraqlanmış və onun gecikdirilmədən Azərbaycan Respublikasına ekstradisiya edilməsinin təmin olunması barədə Müvəkkilin müraciətini Qazaxıstanın səlahiyyətli dövlət orqanlarına çatdırmışdır.

Müvəkkil səmərəli şəkildə qurulmuş və inkişaf etdirilmiş beynəlxalq əlaqələrindən istifadə edərək, 13 may 2009-cu il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinə cəbhənin təmas xəttində Ermənistan Respublikasının hərbi qüvvələri tərəfindən əsir götürülmüş Azərbaycan Silahlı Qüvvələrinin çavuşu ilə əlaqədar müraciət edərək, onun

əsirlikdə olduğu müddətdə işgəncə və ya hər-hansı zorakılığa məruz qalmamasının təmin edilməsində və vəziyyətinin nəzarətdə saxlanılmasında, habelə mümkün qədər qısa müddət ərzində Azərbaycan tərəfinə qaytarılmasında yardım olunmasını xahiş etmişdir.

Müvəkkil həmçinin bu qəbildən olan daha bir neçə hal üzrə müraciətini 2010-cu ilin mart ayında Cenevrədə işgüzar səfərdə olarkən Beynəlxalq Qızıl Xaç Komitəsinin səlahiyyətli əməkdaşı ilə görüşərək diqqətə çatdırmışdır.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, Müvəkkilin beynəlxalq əməkdaşlığı onun tərəfindən ölkə daxilində müxtəlif xarakterli silsilə tədbirlərin təşkil olunması işinə də əhəmiyyətli töhfələr vermişdir.

Müvəkkilin MPM qismində müəyyən olunmasından sonra təkmilləşdirdiyi beynəlxalq əlaqələrindən bəhs etdikdə həmçinin onun beynəlxalq ictimaiyyətə ünvanlanmış çoxsaylı bəyanatlarını vurğulamaq zəruridir. Qeyd etmək lazımdır ki, 25 iyun 2009-cu il tarixdə, İşgəncə Qurbanlarına Beynəlxalq Dəstək Günü ərəfəsində Müvəkkil tərəfindən dünya ictimaiyyətini işgəncələrlə mübarizəyə və ədalətli sülh naminə birgə əməkdaşlığa səsləyən bəyanat qəbul edilmiş və BMT-nin Baş Katibi, Baş katibin müavini, Uşaqlar və silahlı münaqişələr problemi üzrə xüsusi nümayəndəsi, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı, ATƏT, Avropa Şurası, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası, Beynəlxalq Sülh Bürosu, Universal Sülh Federasiyası, müxtəlif ölkələrin ombudsmanları, Azərbaycan Respublikasının xarici ölkələrdəki, xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirlikləri və Azərbaycanın diaspor təşkilatlarına göndərilmişdir.

Müvəkkilin işgəncələrlə mübarizə sahəsində, o cümlədən MPM qismində fəaliyyəti, həmçinin onun təkmilləşdirilməsi işi davam etdirilir.

## Təklif və tövsiyələr

Azərbaycanda yeni yaranmış MPM-in fəaliyyətinin təhlili nəticəsində qeyd etmək olar ki, qısa zaman kəsiyində dinamik iş aparılmış, müsbət təcrübə əldə olunmuş, o cümlədən ölkədə işgəncələrin araşdırılması məsələsinə yanaşmada ciddi dönüş yaranmışdır. Belə ki, sözü gedən fəaliyyət nəticəsində aşağıdakı

nailiyyətlər qeydə alınmışdır:

- polis əməkdaşlarının, eləcə də penitensiar xidmət əməkdaşlarının məsələyə yanaşmasında, həmçinin davranışında müsbət dəyişikliklər;
- MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrdə şəraitin, rəftarın və xidmət səviyyəsinin yüksəldilməsi;
- mütəmadi yayımlanan mətbuat xülasələri və digər informasiyalar vasitəsilə vətəndaş cəmiyyətinin, QHT-lərin, eləcə də azadlıqdan məhrum edilmiş şəxslərin məlumatlandırılması;
- müvafiq qurumlarda şəffaflığın, eləcə də zorakılığa yol vermiş əməkdaşlarının cinayət və ya inzibati məsuliyyətə cəlb etmək yolu ilə cəzalandırılmalarının artırılması.

Müvəkkil MPM qismində müəyyən olunduqdan sonra həyata keçirilən fəaliyyət, başçəkmələr, ünvanına daxil olmuş ərizə və şikayətlərə baxılması, aparılmış çoxsaylı müzakirələr, məsləhətləşmələr, müxtəlif dövlət qurumlarından, həmçinin beynəlxalq təşkilatlardan daxil olmuş təkliflərin ümumiləşdirilməsi, o cümlədən bu sahədə mövcud olan beynəlxalq təcrübənin öyrənilməsi yolu ilə aparılmış kompleks elmi-analitik təhlil nəticəsində ölkədə işgəncələrin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların aşkar olunması, araşdırılması və qarşısının alınması sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi və əlaqələndirilməsi, habelə MPM-in işinin daha səmərəli təşkili üçün aşağıdakı təklif və tövsiyələr irəli sürülür:

**A) Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində**

1) İXM-də Müvəkkilin qanuni fəaliyyətinə mane olmağa görə nəzərdə tutulmuş sanksiyanın sərtləşdirilməsi, habelə Müvəkkilin milli preventiv qrupun qanuni fəaliyyətinə mane olmaya görə məsuliyyətin təsbit olunması;

2) Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə işgəncə əməlinin anlayışının BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi;

3) Həbsdə saxlama yerləri haqqında qanunun qəbul olunmasının tezləşdirilməsi;

4) "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının 19 aprel

2002-ci il tarixli Qanununu BMT Baş Məclisinin 46/119 saylı, 17 dekabr 1991-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının təkmilləşdirilməsinə dair Prinsiplər"i nəzərə alınmaqla təkmilləşdirilməsi;

**B) Təşkilati məsələlərin həlli istiqamətində**

1) Müvəkkilin MPM qismində fəaliyyətini təşkil edəcək və həyata keçirəcək xüsusi struktur vahidinin yaradılmasının təmin edilməsi üçün müvafiq maliyyə vəsaitinin ayrılması və digər təşkilatı tədbirlərin görülməsi;

2) Müvəkkilin illik məruzələrinin, eləcə də MPM qismində fəaliyyətinin nəticələrini əks etdirən məruzələrinin dərc olunması üçün müvafiq maliyyə vəsaitinin ayrılması;

3) DİN-in müvəqqəti saxlama yerlərində inzibati qaydada saxlanılan şəxslərin, habelə şübhəli və ya təqsirləndirilən şəxslərin qeydiyyatı və uçotunun aparılması işinin təkmilləşdirilməsi və bu işə nəzarətin həyata keçirilməsi işinin gücləndirilməsi;

4) DİN-in Qəbələ və Qobustan RPŞ-lərinin MST-lərində inzibati qaydada saxlanılan şəxslərin məcburi əməyə cəlb edilməsi hallarının aradan qaldırılması;

5) DİN-in saxlama şəraiti mövcud standartların tələblərinə cavab verməyən müəssisələrində təmir və bərpa işlərinin aparılmasının sürətləndirilməsi;

6) Azadlıqdan məhrumetmə yerlərində çalışan əməkdaşların qanunları düzgün tətbiq etməsinin təmin edilməsi üçün nəzarətin artırılması;

7) Müvafiq prokurorlar tərəfindən müvəqqəti saxlama yerlərinə nəzarətin həyata keçirilməsi işinin təkmilləşdirilməsi;

8) PX 3 saylı İs.T-də saxlanılan şəxslərin sıxlığı və kameralara normadan artıq yerləşdirilmələri kimi neqativ halların təxirə salınmadan aradan qaldırılması üçün əməli tədbirlərin görülməsi və Bakı İs.T-in yeni korpuslarının inşasının sürətləndirilməsi;

9) PX-nin Həbsxanasında saxlanma şəraiti mövcud standartların tələblərinə cavab verməyən kameraların müvafiq qaydada təmir olunması;

10) PX-nin Həbsxanasında rəhbərliyin məhkumlarla münasibətinin

yumşaldılması;

11) PX-nin Həbsxanasında və CÇM-lərdə tibbi-sanitar hissələrin işinin təkmilləşdirilməsi;

12) PX-nin yataqxanalarının döşəməsi betondan olan müəssisələrində (məsələn, 17 saylı CÇM), həmçinin cərimə təcridxanasında və bəzi yataqxanalarındakı saxlanma şəraiti mövcud standartların tələblərinə cavab verməyən müəssisələrində (məsələn, 8 və 11 saylı CÇM-lər) müvafiq təmir işlərinin aparılması;

13) İnşa edilməkdə olan CÇM-lərdə məhkumların hüquqi yardım almaq hüququnun təmin olunması məqsədilə xüsusi otaqların təşkilinin nəzərdə tutulması; məsələnin normativ hüquqi tənzimlənməsi;

14) PX-nin saxlanma şəraiti mövcud standartların tələblərinə cavab verməyən MTCM-lərində və xüsusi müəssisələrində əsaslı və cari təmir işlərinin aparılması;

15) PX-nin MTCM-lərinin yerləşdikləri binaların PX-nin balansına verilməsi;

16) MM-də rejim qaydalarına əməl olunmasına nəzarətin artırılması və göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi istiqamətində əməli tədbirlərin görülməsi;

17) Vərəmə yoluxmuş məhbuslar, həmçinin onların saxlanıldıqları müəssisələrdə çalışan əməkdaşlar üçün mütəmadi olaraq geniş maarifləndirmə işlərinin aparılması; bu qəbildən olan məhbuslara siqaret və narkotiklərdən istifadənin zərərinin, xəstəliyin daha da ağırlaşmasına səbəb olmasının izah edilməsi, habelə həm məhbuslar, həm də onlarla təmasda olan şəxslərdə ünsiyyətə mane ola biləcək stiqmanın aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi.

18) PX-nin Tərbiyə müəssisəsinin nəzdində fəaliyyət göstərən Himayəçilik Şurasının işinin təkmilləşdirilməsi;

19) SN-nin 1 saylı Respublika Psixiatriya Xəstəxanasının bəzi şöbələrində, Şəki və Qazax Ruhi-Əsəb Dispanserində təmir-tikinti işlərinin sürətləndirilməsi, təmirlə əlaqədar olmayan qüsurların aradan qaldırılması, həmin müəssisələrin fəaliyyətini tənzimləyən normativ bazanın formalaşdırılması və ya təkmilləşdirilməsi;

20) SN-nin psixiatriya xəstəxanalarında həm xəstələrin hüquqlarının müdafiəsi baxımından, həm də ibadətin inanclı xəstələrə müsbət təsirini nəzərə alaraq, ibadət otaqlarını, həmçinin dərman müalicəsi ilə yanaşı psixoloji yardım xidmətinin təşkil olunması;

21) SN-nin psixiatriya xəstəxanalarında xəstələrin sosial təminatının yaxşılaşdırılması, onların əqli və fiziki imkanlarına uyğun səmərəli məşğulluğunun təmin edilməsi, öz səhhəti və imkanlarına görə əməyə cəlb olunması;

22) SN-nin psixiatriya xəstəxanalarında xəstələrin asudə vaxtlarını səmərəli keçirməsi üçün lazımi şəraitin yaradılması;

23) SN-nin psixiatriya xəstəxanalarında yerləşdirilmənin hərtərəfli yoxlanılması və qanuniliyinin təmin olunması;

24) SN-nin psixiatriya xəstəxanalarının tibb personalının psixonevroloji xəstələrə xoş rəftar göstərilməsini, onlarla nəzakətlə davranmağının təkmilləşdirilməsi, işin ağırlığı və gərginliyi nəzərə alınmaqla məvaciblərinin artırılması;

25) SN-nin psixiatriya xəstəxanalarında yardımçı işçilərin diqqətlə seçilməsi, onlar üçün təlim və ixtisasartırma kurslarının təşkil edilməsi;

26) SN-nin psixiatriya xəstəxanalarında xəstələrin müxtəlif sahələrdə bacarıqlarının inkişaf etdirilməsi, təhsilə cəlb olunması, onların cəmiyyətə inteqrasiya olunmalarına hazırlanmasının təşkil edilməsi;

27) SN-nin psixiatriya xəstəxanalarında xəstələrin ailə üzvləri ilə iş aparılması və onların vəziyyətini nəzərə alaraq bəzilərinin ailəyə qaytarılması üçün həvəsləndirilməsi;

28) SN-nin psixiatriya xəstəxanalarında xəstələrin cəmiyyətlə əlaqələrinin artırılması.

29) SN-nin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin ekspertlərinin işinin təkmilləşdirilməsi;

30) ƏƏSMN tərəfindən məhkumlara əlillik dərəcəsinin verilməsində meydana şıxan süni problemlərin aradan qaldırılması istiqamətində səy göstərilməsi;

31) ƏƏSMN-nin aidiyyəti müəssisələrində psixoloji işin təşkili vəziyyətinin təkmilləşdirilməsi, müvafiq ştat cədvəlinə psixoloq ştatının əlavə

olunması;

32) Tabelik formasından asılı olmayaraq, azadlıqdan məhrumetmə yerləri üzrə bütün müəssisələrdə aşkar olunmuş qüsur və çatışmazlıqların tez bir zamanda aradan qaldırılması, qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi və azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin daha da təkmilləşdirilməsi üçün təxirə salınmaz tədbirlərin görülməsi;

33) İşgəncə hallarının aşkar edilməsi, araşdırılması və qarşısının alınması üçün hüquq-mühafizə orqanlarında aparılan araşdırmaların ciddiləşdirilməsi, hüquq pozuntularına yol vermiş şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi və bu fəaliyyətə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən nəzarətin artırılması;

**C) Digər məsələlərin həlli istiqamətində**

1) İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza anlayışının Azərbaycan qanunvericiliyində təsbitinə və bunun üçün nəzərdə tutulmuş sanksiyaya yenidən baxılması üçün hüquq-mühafizə orqanları və MPM-in iştirakı ilə geniş müzakirələrin aparılması;

2) Müvəkkilin MPM qismində fəaliyyət göstərməsi ilə əlaqədar əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində verilən təkliflərə ƏƏSMN tərəfindən konstruktiv yanaşılması və müvafiq tədbirlərin görülməsi;

3) Azərbaycan Respublikasının Baş Prokurorluğu, DİN, ƏN, MTN, MN, TN, SN və ƏƏSMN tərəfindən həmin nazirliklərin müvafiq tabe qurumlarının və əməkdaşlarının BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının, FP-nin, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 02 dekabr 2008-ci il tarixli, 724-IIIQ nömrəli Qanununun, həmçinin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli, 112 nömrəli Sərəncamının tələbləri ilə tanış edilməsinin təmin olunması;

4) Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, DİN, ƏN, MTN, MN, TN, SN və ƏƏSMN tərəfindən Müvəkkil ilə birlikdə müxtəlif səpgili hüquqi-maarifləndirmə tədbirlərinin – əməkdaşlar, həmçinin məhbuslar üçün insan hüquqları, eləcə də işgəncələrə məruz qalmamaq hüququna həsr olunmuş silsilə görüş-seminarların, mühazirələrin, eləcə də zona müşavirələrinin, dəyirmi masaların, habelə konfransların təşkilinə təşəbbüs göstərilməsi və ya dəstək verilməsi;

5) BMT-nin İşgəncələr Əleyhinə Komitəsi, Qarşısını Alma üzrə Altkomitəsi, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi, eləcə də İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya ilə əməkdaşlığın təkmilləşdirilməsi;

6) MPM qrupu üzvləri üçün treyninq, seminar və digər maarifləndirmə xarakterli tədbirlərin təşkil olunması;

7) Təcrübə mübadiləsinin həyata keçirilməsi üçün təlim səfərlərinin, eləcə də bu sahədə ixtisaslaşmış ekspertlərin dəvət olunmasının təşkil edilməsi.

*Əlavə 1*

## MPM-in yurisdiksiyasının şamil olunduğu müəssisələrin siyahısı

| Müəssisə | Sayı |
|---|---|
| **Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin müəssisələri** | 119 |
| *onlardan,* | |
| İnsan Alverinə Qarşı Mübarizə İdarəsi | 1 |
| Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi | 1 |
| Nəqliyyatda Baş Polis İdarəsi | 1 |
| Bakı şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlanılma məntəqəsi | 1 |
| Bakı şəhər Baş Polis İdarəsinin Yetkinlik yaşına çatmayanların təcridetmə mərkəzi | 1 |
| Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin Araşdırma Mərkəzi | 1 |
| Rayon polis idarələri | 6 |
| Polis bölmələri | 43 |
| Müvəqqəti saxlama təcridxanaları | 64 |
| **Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələri** | 50 |
| *onlardan,* | |
| Həbsxana | 1 |
| İxtisaslaşdırılmış müalicə müəssisəsi | 1 |
| Müalicə müəssisəsi | 1 |
| Tərbiyə müəssisəsi | 1 |
| İstintaq təcridxanaları | 3 |
| Cəzaçəkmə müəssisələri | 16 |
| Məntəqə tipli cəzaçəkmə müəssisələri | 14 |
| Xüsusi müəssisələr | 13 |

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanası** | 1 |
| **Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin müəssisələri** | 11 |
| *onlardan,* | |
| İntizam xarakterli hərbi hissə (N saylı hərbi hissə) | 1 |
| Hauptvaxtlar | 10 |
| **Azərbaycan Respublikasının Təhsil Nazirliyinin müəssisələri** | 41 |
| *onlardan,* | |
| Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi | 1 |
| Quba xüsusi peşə məktəbi | 1 |
| Digər internat müəssisələri və uşaq evləri | 39 |
| **Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müəssisələri** | 22 |
| *onlardan,* | |
| Psixiatriya xəstəxanaları | 8 |
| Ruhi-əsəb dispanserləri | 11 |
| Psixonevroloji uşaq evi və digər uşaq və körpə evləri | 3 |
| **Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ahıllar və əlillər üçün internat evləri və pansionatları** | 10 |
| **CƏMİ:** | **254 müəssisə** |

*Əlavə 2*

# İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın FAKÜLTATİV PROTOKOLU[3]

## Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati,

---

[3] Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli, 724-IIIQ nömrəli qanunla ratifikasiya edilmişdir. Həmin qanunun dərcindən – 15 yanvar 2009-cu il tarixdən Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I hissə

## ÜMUMİ PRİNSİPLƏR

**Maddə 1**

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

**Maddə 2**

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum

edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

**Maddə 3**

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

**Maddə 4**

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II hissə

# QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

**Maddə 5**

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

**Maddə 6**

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

**Maddə 7**

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən

irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

**Maddə 8**

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

**Maddə 9**

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

**Maddə 10**

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə

seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III hissə

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMITƏNİN MANDATI

**Maddə 11**

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, belə mexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar,

qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının
aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

**Maddə 12**

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

**Maddə 13**

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş

mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

**Maddə 14**

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti

məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

**Maddə 15**

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

**Maddə 16**

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün

tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV hissə

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

**Maddə 17**

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

**Maddə 18**

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

**Maddə 19**

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

**Maddə 20**

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

**Maddə 21**

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

**Maddə 22**

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

**Maddə 23**

Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V hissə

## BƏYANAT

**Maddə 24**

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

# VI hissə

# MALİYYƏ MÜDDƏALARI

**Maddə 25**

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

**Maddə 26**

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

# VII hissə

# YEKUN MÜDDƏALAR

**Maddə 27**

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

**Maddə 28**

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

**Maddə 29**

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

**Maddə 30**

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

**Maddə 31**

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

**Maddə 32**

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

**Maddə 33**

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

**Maddə 34**

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə

konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

**Maddə 35**

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

**Maddə 36**

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

**Maddə 37**

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər

olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.

## "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokoluna dair Azərbaycan Respublikasının

## BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

*Əlavə 3*

**“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Konstitusiya Qanunu**[4]

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 3, maddə 115; 2004-cü il, № 9, maddə 665; 2006-cı il, № 3, maddə 207, № 11, maddə 909; 2007-ci il, № 10, maddə 928; 2009-cu il, № 12, maddə 944) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 1.1-ci maddədə “edilməsi” sözündən sonra “və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması” sözləri əlavə edilsin.

2. 1.2-1.7-ci maddələr müvafiq olaraq 1.5-1.10-cu maddələr hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci, 1.3-cü və 1.4-cü maddələr əlavə edilsin:

“1.2. Müvəkkil “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir.

1.3. Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya vəzifəli şəxslərin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir.

1.4. Müvəkkil fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və

---

[4] Qanunu yalnız birinci səsvermədə qəbul edilmişdir, birinci səsvermədən 6 ay sonra təkrar səsvermədən keçdikdə və ölkə prezidenti tərəfindən imzalandıqda qüvvəyə minəcəkdir.

beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.” .

3. II fəslin adı aşağıdakı redaksiyada verilsin:

“İnsan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi”.

4. 12-ci maddədə:

4.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

“İnsan hüquqlarının pozulmasına dair şikayətə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi qaydası”;

4.2. 12.2-ci maddədə “araşdırılması” sözündən sonra “və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi” sözləri əlavə edilsin;

4.3. 12.2.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“12.2.1. istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, habelə polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslərlə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq; səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq;”;

4.4. 12.2.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

“12.2.7. dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, polis bölmələrinin, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, qarnizon hauptvaxtlarının, psixiatriya müəssisələrinin və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərin rəhbərliyi

tərəfindən təxirə salınmadan qəbul edilmək.”;

4.5. 12.3-12.5-ci maddələr müvafiq olaraq 12.4-12.6-cı maddələr hesab edilsin, aşağıdakı məzmunda 12.3-cü maddə əlavə edilsin:

“12.3. Müvəkkilə məlumat verilməsinə görə hər hansı şəxsə və ya təşkilata təzyiq göstərilməsi, yaxud şəxsin və ya təşkilatın təqib edilməsi yolverilməzdir.”;

5. Aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

“Maddə 13-1. İnformasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə
baxılmasının xüsusiyyətləri

13-1.1. Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətdə əks olunmuş halları 10 iş günü ərzində araşdırır. Əgər şikayət dəqiqləşdirmə tələb edirsə və ya şikayəti araşdırmaq üçün əlavə izahat və sənədlər toplamaq lazımdırsa, Müvəkkil bu barədə şikayətçiyə yazılı məlumat verməklə şikayətə baxılması müddətini əlavə olaraq 10 iş gününə qədər uzada bilər.

13-1.2. Müvəkkil aşağıdakı hallarda şikayətə baxmır:

13-1.2.1. şikayət anonim olduqda;

13-1.2.2. şikayət konkret informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin fəaliyyəti barəsində olmadıqda;

13-1.2.3. şikayət təkrar, əsassız və ya qərəzli olduqda;

13-1.2.4. həmin iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

13-1.2.5. ərizəçi informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin informasiya əldə etmək üçün yaratdığı imkanlardan kifayət qədər səmərəli istifadə etmədikdə.

13-1.3. Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətdə əks olunmuş halların araşdırılması zamanı informasiya sahibi olan dövlət orqanı, yerli özünüidarə orqanı və ya vəzifəli şəxs tərəfindən “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun aşağıdakı tələblərinə riayət edilib-edilmədiyini aydınlaşdırır:

13-1.3.1. informasiya əldə etmək üçün müraciətin (bundan sonra – informasiya sorğusunun) qeydiyyata alınması;

13-1.3.2. informasiya sorğusunun qanunla nəzərdə tutulmuş qaydada, müddətdə və üsulla təmin edilməsi;

13-1.3.3. informasiya sorğusunun icrasından imtinanın qanunun tələblərinə uyğun olması;
13-1.3.4. ictimai informasiyanın açıqlanması vəzifəsinin dəqiq və tam həcmdə yerinə yetirilməsi;
13-1.3.5. İnternet informasiya ehtiyatının yaradılması vəzifəsinin yerinə yetirilməsi.
13-1.4. Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətlə bağlı informasiya sahibi olan dövlət orqanından, yerli özünüidarə orqanından və ya vəzifəli şəxsdən pozuntuların aradan qaldırılmasını tələb edə bilər.
13-1.5. İnformasiya sahibi olan dövlət orqanı, yerli özünüidarə orqanı və ya vəzifəli şəxs görülən tədbirlər barəsində Müvəkkilə 10 gün müddətində yazılı məlumat verməlidir. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri yerinə yetirilmədiyi hallarda Müvəkkil müvafiq yuxarı orqana müraciət edə bilər.

6. Aşağıdakı məzmunda 18-1-ci maddə əlavə edilsin:

“Maddə 18-1. Milli preventiv qrup

18-1.1. Bu Qanunun 1.2-ci maddəsində nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədi ilə Müvəkkilin aparatında Milli preventiv qrup yaradılır. Yaşı 25-dən aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxs Milli preventiv qrupun üzvü təyin oluna bilər. Milli preventiv qrupun üzvləri Müvəkkil tərəfindən 3 il müddətinə şəffaf prosedurlar əsasında təyin olunurlar.

18-1.2. Milli preventiv qrupun aşağıdakı hüquqları vardır:

18-1.2.1. istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslərlə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq;

18-1.2.2. polis bölmələrinin, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, psixiatriya müəssisələrinin və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək.

18-1.3. Milli preventiv qrupun üzvü öz funksiyalarını həyata keçirərkən ona məlum olmuş faktlar barəsində ifadə verməyə və ya hər hansı digər üsulla bu faktları açıqlamağa məcbur edilə bilməz. Bu təminat Milli preventiv qrupun üzvü qrupun tərkibindən çıxdıqdan sonra da qüvvədə qalır.

18-1.4. Milli preventiv qrupun üzvü saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə öz funksiyalarını həyata keçirərkən tutula və ya saxlanıla bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Milli preventiv qrupun üzvünün poçt, teleqraf və digər göndərişlərinin üzərinə həbs qoyulmasına, onların yoxlanılmasına və ya götürülməsinə yol verilmir.”.

7. Aşağıdakı məzmunda 20-ci maddə əlavə edilsin:

“Maddə 20. Müvəkkilin fəaliyyətinə maneə törədilməsinə görə məsuliyyət

Müvəkkilin fəaliyyətinə maneə törədilməsində təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyəti daşıyırlar.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2010-cu il
№ 22-IVKQD

# FOTOŞƏKİLLƏR

*Əlavə 2*



***Şəkil 1.*** *Müvəkkil E.Süleymanova PX 4 saylı CÇM-də (qadınlar üçün) hüquqi maarifləndirmə tədbirində (17.11.2009).*



***Şəkil 2.*** *Müvəkkil təsisatının DİN-lə birgə polis idarə və şöbələrinin rəhbər vəzifəli əməkdaşları üçün təşkil etdiyi silsilə zona seminar-müşavirəsi. Bakı şəhəri, Nərimanov RPİ. (05.12.2009).*



***Şəkil 3.*** *Müvəkkil E.Süleymanova Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Moskva şəhəri üzrə Baş İdarəsinin Əcnəbi vətəndaşlar üçün saxlama mərkəzində saxlanılan Azərbaycan vətəndaşlarının saxlanılmasının hüquqi əsasları və saxlanma şəraiti ilə yerində tanış olur (30.06.2009).*




***Şəkil 4.*** *Müvəkkil təsisatının ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi "FP-nin Azərbaycan Respublikasında tətbiqi və MPM-in yaradılması" mövzusunda seminar (25-26.11.2009).*



***Şəkil 5.*** *Müvəkkil təsisatının ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi "FP-nin Azərbaycan Respublikasında tətbiqi və MPM-in yaradılması" mövzusunda seminar (25-26.11.2009).*



***Şəkil 6.*** *Müvəkkil təsisatının Azərbaycan Respublikasının Milli Məclisi, ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi "Müvəkkilin Azərbaycanda milli preventiv mexanizm kimi rolunun gücləndirilməsi" mövzusunda konfrans (24.05.2010).*





**Şəkil 7, 8.** *Müvəkkil təsisatının Azərbaycan Respublikasının Milli Məclisi, ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi "Müvəkkilin Azərbaycanda milli preventiv mexanizm kimi rolunun gücləndirilməsi" mövzusunda konfrans (24.05.2010).*





**Şəkil 9, 10.** *Müvəkkil ilə ATƏT-in Bakı Ofisi arasında əldə olunmuş razılığa əsasən İşgəncələrin qarşısının alınması üzrə Assosiasiyanın "Azadlıqdan məhrumetmə yerlərinin monitorinqi" adlı praktiki soraq kitabının azərbaycan dilində nəşrinin təqdimatı (25.05.2010).*





**Şəkil 11, 12.** *Müvəkkil təsisatının ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi azadlıqdan məhrumetmə yerlərinin monitorinqi üzrə metodik təlim (25-26.05.2010).*






***Şəkil 13, 14.*** *Müvəkkil təsisatının ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birgə təşkil etdiyi azadlıqdan məhrumetmə yerlərinin monitorinqi üzrə metodik təlim (25-26.05.2010)*





**Şəkil 15, 16.** *Müvəkkil təsisatı tərəfindən ATƏT-in Bakı Ofisi və ATƏT DTİHB ilə birlikdə təşkil olunmuş ATƏT DTİHB-nin eksperti L.Adlerin iştirakı ilə Müvəkkilin MPM Qrupunun üzvlərinin zəruri nəzəri və təcrübi biliklərinin artırılmasına yönəlmiş təlim-seminar (26-29.10.2010).*



***Şəkil 17.*** *DİN-nin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin Araşdırma Mərkəzi. Saxlanılan şəxslərin yataq otağı.*



***Şəkil 18.***
*Bakı şəhəri, Xəzər RPİ, MST. Gəzinti meydançası.*



***Şəkil 19.***
*Qəbələ RPŞ, MST. Mətbəx.*




***Şəkil 20.***
*Qobustan RPŞ, MST.*
*Məlumatlandırıcı lövhə.*



***Şəkil 21.***
*Qobustan RPŞ, MST.*
*Məhbus kamerası.*



***Şəkil 22.*** *Şamaxı RPŞ, MST. İbadət otağı.*



***Şəkil 23.***
*Şamaxı RPŞ MST. Tibb otağı*



***Şəkil 24.*** *PX 8 saylı MTCM. Yataqxana.*



**Şəkil 25.**
*13 saylı MTCM.*
*Sanitar qovşaq.*



**Şəkil 26.** *MN-nin İntizam xarakterli hərbi hissəsi. Əsgər yataqxanası.*



***Şəkil 27.*** *MN-nin İntizam xarakterli hərbi hissəsi. Mətbəx.*



***Şəkil 28.*** *MN-nin İntizam xarakterli hərbi hissəsi. Əsgər yeməkxanası.*



***Şəkil 29.*** *MN-nin İntizam xarakterli hərbi hissəsi. MPM Qrupunun üzvü F.Həsənov şəxsi heyətlə maarifləndirmə xarakterli görüşdə.*



***Şəkil 30.*** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. İstirahət otağı.*



***Şəkil 31.*** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Sinif otağı.*



***Şəkil 32.***
*TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Uşaqların su içməsinin təmin edilməsi üçün sinif otağına qoyulmuş su bakı.*



**Şəkil 33.** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Köhnə qazanxana.*



**Şəkil 34.** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Yeni qazanxana.*



**Şəkil 35.** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Köhnə hamam.*



**Şəkil 36.** *TN-nin Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi. Yeni hamam.*